**MÜSEYİB İLYASOV**

# PEŞƏ, SƏNƏT və İXTİSAS SEÇİMİ HAQQINDA SÖHBƏTLƏR

**"Elm və təhstil"**
**BAKI- 2023**

Elmi redaktoru və
ön sözün müəllifi: **prof. İ.N. İsayev**

Rəyçilər: **prof. F.A.Rüstəmov**
**prof. H.B.Bayramov**

**İlyasov M.İ.** Peşə, sənət və ixtisas seçimi haqqında söhbətlər. Bakı: "Elm və təhsil", 2023, 120 səh.

*İnsanın müəyyən seçimlər qarşısında qaldıqda düzgün qərar qəbul edə bilməsi onun ən üstün keyfiyyətlərindəndir. Bu seçimlər içərisində peşə, sənət və ixtisas seçimi həyat üçün ən zəruri seçimlərdən biridir. Lakin insan hər zaman bu seçimi istədiyi kimi edə bilmir və bəzən də seçim düzgün edilmir. Bunun əsas səbəblərindən biri peşə, ixtisas və sənət seçiminin elmi əsasları haqqında bu seçim qarşısında olan şəxsin müəyyən biliyə, məlimata malik olmamasıdır.*

*Yeniyetmələr və gənclər üçün nəzərdə tutulan bu kitab peşə, ixtisas və sənət seçimində onlara ən yaxın köməkçi, bələdçi və yol xəritəsi ola biləcəkdir. Onlar seçim qarşısında qalarkən hansı məsələlərə daha çox diqqət verməyin vacibliyi, bacarıq və qabiliyyətlərini düzgün qiymətləndirə bilmək üçün nə etməli olduqları, istəklərinə uyğun qərar qəbul edə bilmələri üçün ilk növbədə nələri yerinə yetirəcəkləri haqqında buradan müəyyən biliklər ala biləcəklər. Kitabda həmçinin seçim qarşısında olan yeniyetmə və gənclərə kömək məqsədilə valideynlər və müəllimlər üçün də bir sıra məsləhətlər yer alır ki, bu da onun əhatə imkanlarını daha da genişləndirir.*

4603000000
N-98-2023
qrifli nəşr

© **İlyasov M.İ, 2023**

# GƏNCLƏRİN HƏYAT HAZIRLIĞINA LAYİQLİ TÖHFƏ

Müasir dövrdə ölkəmizin sosial-iqtisadi, mədəni-maarif həyatında baş verən intensiv tərəqqinin tələblərinə uyğun kompleks islahatlar proqramı həyata keçirilir. Təxirəsalınmaz islahatların mühüm tərkib hissələrindən biri kimi inkişafımızın strategiyasına cavab verə biləcək təhsil sisteminin təkmilləşdirilməsi daha da aktuallaşır. Əsas məqsəd formalaşmaqda olan gənc nəsli kiçik yaşlardan həyata uğurlu hazırlamaqdan ibarətdir. Həyata, əməli fəaliyyətə hazırlıq isə ölkədə gedən yeni iqtisadi inkişaf tempinin tələbinə müvafiq ixtisaslı peşə sahiblərinin yetişdirilməsini özündə ehtiva etməsidir. Təsadüfi deyil ki, təhsilin bu strateji istiqaməti Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramında xüsusi yer tutur:

"Bazar münasibətləri, iqtisadiyyatın infrastrukturunun kökündən dəyişməsi. Orta və kiçik müəssisələrin iqtisadiyyatda hakim mövqe tutmalı, qarışıq iqtisadiyyatın rəqabət sisteminin formalaşmasından asılı olaraq istehsal profillərinin tez-tez dəyişməsi qısa müddətdə və daha az xərclə çevik təfəkkürə malik təşəbbüskar mütəxəssislər tələb edir. Bu zaman respublika iqtisadiyyatının üstün inkişaf etdirilməsi sahələrinin müasir tələblərə cavab verən kadrla təmin olunması, onların hazırlığının aparıcı istiqaməti olmalıdır". Göründüyü kimi, ümumtəhsil sistemində peşə hazırlığına prioritet məsələlərdən biri kimi üstünlük

verilir. Bu kontekstdə bazar iqtisadiyyatı şəraitində rəqabətədavamlı ixtisas və peşə sahiblərinin hazırlığı kimi mühüm problemin həlli bilavasitə kiçik yaşlardan başlayır, yeniyetməlik və gənclik illərində davam etdirilərək onların həyata hazırlanması işinin düzgün və effektiv təşkilini təmin edir.

Yeniyetmə və gənclərin həyata hazırlanmasının əsas göstəricisi olan peşə seçiminin lazımı səviyyədə təşkili məqsədini özündə ehtiva edən Azərbaycan Respublikasında peşə təhsilinin İnkişaf Konsepsiyasında (2006-cı il) bu məramın reallaşdırılması vacibliyi irəli sürülmüşdür. Bu da təhsil sisteminin bütün pillələrində peşəyönümü işinin səmərəli təşkilini aktuallaşdırır, islahatın müvəffəqiyyətlə aparılmasına rəvac verir. Məhz həmin səbəbdəndir ki, son dövrlər problemin məqsədyönlü həlli iqtisadçıların psixoloq və pedaqoqların elmi-tədqiqat obyektinə çevrilmiş, bu sahədə bir sıra səmərəli araşdırmalar aparılmış, kitablar yazılmışdır. Öz tədqiqatlarını bu problemə həsr edən və bu sahədə respublikamızda kifayət qədər tanınmış peşəkar alimlərdən biri pedaqogika üzrə elmlər doktoru, professor, əməkdar müəllim Müseyib İlyasovdur.

M.İlyasovun tədqiqat dairəsinə daxil etdiyi bu vacib problemlə bağlı respublikada və xaricdə nəşr etdirdiyi çoxsaylı məqalələri, "Məktəbdə peşəyönümü işinin sistemi" (1997), "Şagirdlərin peşə seçməyə hazırlanmasının pedaqoji əsasları" (2005), "Şagirdlərin peşə seçməyə hazırlanması" (2009), "Peşəyönümünün əsasları" (2011), "Peşə, ixtisas seçimi" (2015) kimi monoqrafiya və kitabları onun bu sahədə xüsusi nüfuza malik bir araşdırıcı olduğunu

bir daha təsdiqləyir. Onun çapa hazırladığı "Peşə, ixtisas seçimi haqqında söhbətlər" adlı yeni kitabı da bu probleme həsr olunub və özünün mahiyyət və məzmunu ilə diqqəti cəlb edir.

Təcrübə göstərir ki, müasir dövrdə peşələrin kəmiyyət və keyfiyyət etibarilə kifayət qədər çox spektrli və rəngarəng olması yeniyetmələrin bu peşə müxtəlifliyi qarşısında düzgün və zəruri seçim edə bilməmələrinə səbəb olur.

Müəllifi belə bir kitabı yazmağa təhrik edən səbəb də məhz bu problem olmuşdur. O, kitabda peşə və ixtisas seçimək məqsədinə müvafiq olaraq yeniyetmə və gənclərə kömək etmək, yol göstərmək üçün onların qarşılaşdığı çətinliklərin aradan qaldırılmasına çalışır və yeniyetmə və gənclərə əsl yol xəritəsi təqdim edir. Əminliklə demək olar ki, kitabda yeniyetmə və gənclər "Gələcək həyat yolunu müəyyənləşdirərkən hansı məsələlərə diqqət yetirməlidir?", "Bacarıq və qabiliyyətlərini necə qiymətləndirməlidir?", "İstəklərinə, peşə və ixtisaslara uyğun müstəqil qərar qəbul edə bilirlərmi?" və s. suallara asanlıqla cavab tapa biləcəklər. Diqqəti cəlb edən cəhət ondan ibarətdir ki, professor M.İlyasov kitab yazılışında tapdanmış və yaxud klassik yazı tərzindən imtina edərək, daha effektiv yazı formalarından istifadə etmiş və fikirlərini daha aydın çatdırmaq məqsədilə "dialoq" formasına üstünlük vermişdir. Müəllif sanki peşə və ixtisas seçimi ilə bağlı hər bir yeniyetmə və gənclə söhbət edir, onlarla polemikaya girir, məsləhət və tövsiyələrini bildirir, onlara səmərəli yol göstərir. Kitabın əvvəlidə müəllifin ön söz kimi "Oxuculara" adlı müraciəti

kitabın yazılmasının məqsədi, mahiyyəti və məzmunu, burada söhbətin nələrdən gedəcəyi haqqında aydın təsəvvür yaradır və oxucunu özünə cəlb edir.

Bu xüsusda müəllif kitabı uşaqlara ünvanlanan "Gənc dost!" ifadələri ilə başlayır. Müəllif uşaqlara məxsus peşə və ixtisas seçimi ilə bağlı düşüncələri vertual formada ifadə edib, məktəb təhsilindən başlayaraq gələcək əmək fəaliyyəti barədə onlarla söhbət aparır, qarşılaşdıqları suallara cavab axtarır və belə qənaətə gəlir ki, "Sizə təqdim olunan və "Peşə, ixtisas seçimi haqqında söhbətlər" adlanan bu kitab qarşılaşdığınız suallara cavab tapmaqda və insanın həyatında ikinci doğuluş adlandırılan peşə seçimində bələdçiniz olacaq və sizə yaxından kömək edəcəkdir". Biz də əminik ki, bu belə olacaqdır.

Kitabın "Peşə özünütəyini", "Özünü dərk et" başlıqlarında müəllif haqlı olaraq birinci növbədə "Kim olmalı?", "Hansı peşəni seçməli?", "Gələcək karyeranı necə qurmalı?", "Necə olmalı?" suallarına cavb tapmaq üçün özünüdərkin, özünə nəzarətin, özünütəhlilin xüsusi önəm daşıdığını diqqət mərkəzinə çəkir, onların mahiyyətini, məzmununu və özünü inkişafetdirmə yollarını mərhələli formada ümumiləşdirir. Birinci mərhələyə "Özünümüşahidə"ni qoyan müəllif uşaqların dili ilə deyilən "Mən necə insanam?", "Hansı bacarıqlara malikəm?" və s. suallara cavab verilir. Özünə kənardan baxıb, özünü qiymətləndirmə, xüsusiyyətlərini xarakterizə etmək bacarığını formalaşdırmağı ön plana çəkir. İkinci mərhələdə özünəqiymətin obyektiv, düzgün olmasının vacibliyi, üçüncü mərhələdə peşə marağı ilə bilik, bacarıq və qabiliyyətlər arasında

uyğunluq səviyyəsinin aşkarlanmasına istiqamətlənən fikirlər öz əksini tapır. Nəhayət, son mərhələdə gələcəyi planlaşdırmaq üçün "özünütəhlil və özünüqiymətləndirmə"nin real imkanları qiymətləndirilir. Sonra kitabda mərhələlər üzrə formalaşdırılmalı xüsusiyyət və keyfiyyətlərə ailənin, yaşlıların, yoldaşlarının, dostlarının, müəllimlərinin və s. təsir imkanları (müsbət və mənfi təsir) araşdırılır. Burada şəxsin peşə planı, marağı, meyli tələbatları kimi amillərə də istinad edilməsi müəllifin qoyulan məsələlərin həllinə peşəkar yanaşma tərzini təsdiq edir.

"Özünü sına" başlığı altında müəllif oxucu ilə dialoqu davam etdirərək deyir: "Artıq sən seçim qarşısındasan. Özünü sınaqdan keçirmək lazım gələcəkdir". Bunun üçün kitaba oxucunun özünü yoxlama məqsədilə testlərdən istifadə etmək təklif edilir (70 test). Bununla da seçiminin düzgün olub olmadığını yoxlamağın mümkünlüyü göstərilir. Testlərə verilən cavablar təhlil olunur. Şəxsiyyətin sosial tipi təyin edilməklə peşə seçimi imkanları müəyyənləşdirilərək əsaslandırılır.

Kitabın "Peşələr aləmi" başlığı altında müəllif "Peşə" və "İxtisas" məfhumlarının mahiyyətini, məzmununu aydınlaşdırır, onun oxşar və fərqli cəhətlərini oxucunun diqqətinə çatdırır. İnsanların əmək predmetləri ilə məşğulluğunun əməyin xarakterinə uyğun tiplərini nəzərdən keçirilir. "İnsan – texnika", "İnsan – insan", "İnsan – təbiət", "İnsan – işarələr sistemi", "İnsan – bədii obraz" kimi tiplərin məzmun istiqaməti elmi əsaslara söykənən izahlarla müşayiət olunur. Əməyin məqsədi, əmək vasitələri, əmək şəraiti yeniyetmə və gənclərin peşəyə istiqamətləndirilmə-

sində mühüm amil kimi qruplaşdırılır. Daha sonra hər bir peşə və ixtisasın özünəməxsus fəaliyyət növləri, əməyin məzmunu və xarakteri nəzərə alınaraq, ibtidai sinif müəllimi, dövlət yol polisi, menecer, mühəndis-texnoloq ixtisasları, vergi müfəttişi peşəsi, fotoqraf peşəsi və s. peşələrin xüsusiyyətləri təhlil edilir. Belə müqayisəli təhlillər, həmin peşə və ixtisaslar haqqında verilən məlumatlar oxucunun peşələr barədə təsəvvürlərini daha da zənginləşdirir. Yeniyetmə - gənclərdə peşə və ixtisasa obyektiv, düzgün münasibət formalaşdırmağa əsaslı kömək edir, peşə biliklərinin inkişafına səbəb olur. Müəllif peşə və ixtisaslar barədə məlumatlar verərkən müasir dövrdə əmək bazarı və onun tələblərinin nəzərə alınmasının vacibliyini də ön plana çəkir.

Təbii ki, seçilən ixtisas və peşə hər bir şəxsin istək və arzusuna, cəmiyyətin sosial-iqtisadi tələbinə müvafiq olmaqla bərabər, seçim edənin də gələcək həyatını təmin edəcək səviyyədə olmalıdır. Bu baxımdan müəllif peşə seçərkən məktəblilərin aşağıdakı tələbləri nəzərə almalarını məsləhət bilir:

- Seçilən peşə nüfuzlu olmalıdır.
- Əməkhaqqı münasib olmalıdır.
- Peşə maraqlı olmalı, sahibini özünə cəlb etməlidir.
- Əmək şəraiti yaxşı olmalıdır.
- Valideynlərin arzu və marağı nəzərə alınmalıdır.
- Seçim bazarın tələblərinə uyğun olmalıdır.
- Seçim gələcək karyera üçün təminatlı olmalıdır.

Bununla yanaşı, müəllif peşə seçimində səhvə yol verməmək üçün maraq, motiv, bacarıq və qabiliyyət kimi psi-

xo-pedaqoji amillərin nəzərə alınmasını vacib şərt hesab edir. Bu isə bir mütəxəssis kimi onun yüksək psixo-pedaqoji metodik hazırlığa malik olduğu qənaətinə gəlməyə imkan verir.

Kitabın sonrakı hissələrində peşə özünütəhsili, tərbiyəsi, valideyn-müəllim məsləhətləri və s. bəhrələnməyin vacibliyi ön plana çəkilir.

Kitabı maraqlı edən, oxucunu özünə cəlb edən cəhətlərdən biri müəllifin nümunələrə, həyati misallara müraciət etməsi, yeri gəldikcə onlardan istifadə etməsidir.

Diqqət çəkən məsələlərdən biri kitabda hər bir fəslin sonunda müxtəlif başlıqlar altında həm yeniyetmə və gənclərə, həm də valideyn və müəllimlərə bir neçə məsləhət və tövsiyələrin ünvanlanmasıdır. Müəllif burada əvvəldə söylədiyi fikirlərin sanki ümumiləşdirilmiş modelini verir və seçim zamanı yeniyetmə və gənclərin, həmçinin valideyn və müəllimlərin daha çox nəyə diqqət vermələrini konkret müddəalar, yekun nəticələr kimi diqqətə çatdırır.

Yeniyetmə və gənclərin peşə və ixtisaslara düzgün istiqamətləndirilməsi və onların şüurlu, məqsədyönlü seçim etmələri üçün geniş imkanları özündə birləşdirən bu önəmli kitabın nüxtəlif istiqamətli əhəmiyyətini aşağıdakı kimi qruplaşdırmaq olar:

* Yeniyetmə və gənclər üçün əhəmiyyəti:

Hər bir yeniyetmə və gəncə ölkədə sosial-iqtisadi inkişaf tempinin tələblərinə müvafiq peşə seçimi etmək və gələcək uğurlu həyat yolunu düzgün müəyyənləşdirmək imkanı yaradar.

* Müəllimlər üçün əhəmiyyəti:

Müəllimlər ölkədə mövcud olan və yeni yaranan peşələrə şagirdləri istiqamətləndirmək məqsədilə onların müxtəlif peşələrə yararlılıq səviyyəsini aşkarlamaq və peşələrə şüurlu münasibət tərbiyə etmək sistemi əldə edərlər.

* Valideynlər üçün əhəmiyyəti:

Valideynlər kitabda göstərilən metodika, yanaşma tərzi və tövsiyələrlə övladıarının müxtəlif peşələrə münasibətini, maraq və meyllərini düzgün müəyyənləşdirə və məsləhət verə bilərlər.

* Cəmiyyət üçün əhəmiyyəti:

Gənclərin elmi – texniki tərəqinin və sosial – iqtisadi inkişafının tələb etdiyi müasir peşələrə və ixtisaslara dərindən yiyələnməsi səriştəli və rəqabətqabiliyyətli mütəxəssislərin formalaşmasına, ölkədə istehsal proseslərinin keyfiyyətində müsbət dəyişikliklərin olmasına və sosial-iqtisadi həyatın bütün sahələrində yüksəlişə gətirib çıxarar.

Əminik ki, bu kitab yeniyetmə və gənclərlə yanaşı, geniş oxucu kütləsinin də marağına səbəb olacaq, peşə, ixtisas seçimi qarşısında duran hər bir gəncə yol xəritəsi, onların müəllimlərinə və valideynlərinə isə metodik yardımçı olacaqdır.

***İramin İsayev***

*ADPU-nun Ümumi pedaqogika kafedrasının müdiri, professor*

## OXUCULARA

Dünya çox sürətlə dəyişir. Dünən yeni olan bir şey bu gün adiləşir və daha yeni olanlarla qarşılaşırıq. Bir vaxtlar, çox da uzaq olmayan bir keçmişdə bizlərə deyəndə ki, vaxt gələcək insanlar simsiz telefonlarla danışacaq, elə olacaq ki, televizoru bir tablo kimi divardan asacağıq, yaxud insanlar telefonla danışdıqda bir birlərini görəcəklər və s. biz təəccüb edirdik. Bunlar bizə bir xəyal, yaxud çox uzaq gələcək kimi görünürdü. Amma biz bunları gördük. İndi bunlar artıq bizim üçün adi həqiqətə çevrilmişdir və heç kimdə təəccüb yaratmır. Yəqin ki, bizlərdən çox-çox əsr əvvəllər yaşamış əcdadlarımız da bir vaxtlar xəyal etdikləri "Simurq quşu" və ya "Uçan xalça" kimi xəyallarının sonralar təyyarələr kimi göydə uçan maşınlara çevriləcəyinə ya inanmamış ya da təəccüb etmişlər...

Müasir dövrümüzdə kompüterin, internetin imkanları artıq əlçatmaz olan çox şeyləri sadələşdirmiş, yaxınlaşdıırmış, asanlaşdırmışdır. Artıq elə bir dövr gəlib çatmışdır ki, çox az bir zaman müddətində dünyanın istənilən nöqtəsi ilə əlaqə saxlamaq, onlardan informasiya almaq sadə bir həqiqətə çevrilmişdir.

Yaşadığımız həyat da çox sürətlə yeniləşir. İnformasiyalar getdikcə artır və bunları əldə etmək üçün insan daha çox öyrənmək, daha çox bilik əldə etmək və "daha sürətli hərəkət etmək" məcburiyyətində qalır. Texnikanın, texnologiyanın artması insanlardan daha çox bilik və sürət tələb edir. Texnika, texnologiya artdıqca onların ardınca

addımlamaq kifayət etmir, yüyürmək, qaçmaq lazım gəlir. Bunun üçün isə daha çox çalışmaq, daha çox bilik əldə etmək, bacarıq və vərdişlərə yiyələnmək lazım gəlir. Bunlar olmadan "bizi dindirən əsrə dinmək"mümkün deyildir.

Mürəkkəb, keşməkeşli və həm də qarışıq görünən həyatdan baş çıxarmaq olduqca çətindir və bu çətinlik getdikcə çoxalır, artır. Bunlar öz təsirini cəmiyyətdə sosial münasibətlərə də qabarıq şəkildə göstərir. Yalnız həqiqi biliyə, çevik ağıla, kreativ düşüncəyə, əsaslı bacarıq və vərdişlərə yiyələnməklə müəyyən sahədə özünü tapmaq, irəliləmək və yaxşı mütəxəssis olmağın mümkünlüyü göz qabağındadır.

Dar ixtisaslaşma dövrü başa çatmaqdadır. İndi elmə, hərtərəfli biliyə sahib olmağa, müasir texnologiyalardan baş çıxarmağa tələbat daha çoxdur. Bu tələbat getdikcə daha da artır. Elmlərin inteqrasiyası olduğu kimi, peşələrin, ixtisasların da inteqrasiyası baş verir. Bu isə daha hərtərəfli bilik əldə etməyə ehtiyac yaradır. İndiki ən sadə peşə, sənət adamı da müasir texnika və texnologiyaları öyrənməyə, bilməyə məcburdurlar.

İllərin təcrübəsi, real həyat hadisələri, tarixin yaddaşında qalan bir çox şəxsiyyətlərin həyatı göstərir ki, peşəsi, sənəti sahəsində böyük uğur qazanan şəxsiyyətlərin əksəriyyətinin və demək olar ki, hamısının seçimində qazandıqları uğurların səbəblərindən ən başlıcası onların öz istəklərinin ardınca getməsi, ürəyinin səsinə qulaq asaraq həyat yolunu düzgün müəyyənləşdirməsi olmuşdur. Lakin həyat yollarının seçimində səhvlər, səhv edənlər də az olmamışdır. Bunun isə xoşa gəlməyən, bəzən də acı nəti-

cələri insanlara bütün ömür boyu əzab vermiş, onun peşimançılığını çəkmişlər...

Lakin "ziyanın yarısından qayıdanlar" da az olmamışdır. Bəzi şəxsiyyətlər və şəxslər hətta ilk vaxtlarda, ilk seçimlərində başqa bir yol, özgə bir sənət, peşə seçsələr də müəyyən dövr, vaxt keçdikdən sonra qəlblərinin səsi, daxili istəkləri onları gələcəkdə onunla məşhurlaşacağı, onu özünün həyat amalı hesab edəcəyi sahəyə aparmış və bu sahədə fəaliyyət göstərmiş, özlərini reallaşdırmışlar. Bunları yaradan bəlkə də onun fərdiliyi, özünəməxsusluğu, onun daxilində gizlənən və doğularkən özü ilə gətirdiyi imkanların onu təhrik etməsi ilə əlaqədar gizli qüvvələr olmuşdur. O qüvvələr ki, onları fitri istedad, qabiliyyət, talant və s. adlandırırlar. Məhz bu qüvvələr hələ uşaq vaxtlarında insanları bir-birindən fərqləndirir, onların hər birinin bir sahə, bir istiqamət üzrə maraqlanmasına səbəb olur. Kimisi təbiətlə, kimisi texnika ilə, kimisi ədəbiyyatla, kimisi incəsənətin bu və ya digər sahələrilə, kimisi idmanla, kimisi ekzotik bir sahə ilə maraqlanır, onlara meyl edirlər. Lakin çox zaman bu maraq və istəklər valideynlər və ya başqa şəxslər tərəfindən, yaxud şəraitsizlik və ya imkansızlıq üzündən müəyyən maneələrə rast gəlir, istək bir tərəfə, seçim digər tərəfə yönəlmiş olur. Bunun nəticəsi isə insanı çox gözlətmir. Seçimindən məmnun qalmamaq, özündən, işindən narazılıq, yaxud işini, sənətini, peşəsini dəyişmək, vaxt itirmək və s. kimi əngəllər onu təqib edir və həyatda öz yerini tapana qədər müəyyən yol qət etməli olur...

Peşə, sənət dəyərdir. Həm də elə bir dəyərdir ki, o özünü insan fəaliyyətinin meyarı və yol göstəricisi kimi göstərir. Eyni zamanda, spesifik sosial hadisə kimi insanların və cəmiyyətin həyatında mühüm yer tutur.

Bəs necə etmək ki, seçim edərkən səhvə yol verilməsin, seçilən yol həm seçənin və onun valideynlərinin ürəyincə olsun. Müəyyən vaxt keçəndən sonra peşimançılıq hissi keçirilməsin, özünü qınamasın və nə vaxtsa peşəsini dəyişəcəyi haqqında düşünməsin. Bəs bunların olmaması, həyat yolunun düzgün müəyyənləşdirilməsi, peşə, sənət, ixtisas seçiminin düzgün olması üçün nələrə fikir vermək, nə etmək lazımdır ki, sonradan təəssüf, kədər və ya köks ötürmək hissləri olmasın. Seçilmiş peşə, ixtisas insan üçün zövq mənbəyi olsun, bu sahədə işləmək fərəh yaratsın, onu daha yaxşı işləməyə, bu sahədə irəliləməyə, yüksək müvəffəqiyyətlər əldə etməyə ruhlandırsın. Hər gün çalışdığı iş onu inkişafa, ucalığa doğru aparsın. Cavab aydındır: seçimi düzgün etmək, seçilən peşəni, ixtisası sevmək! Təqdim olunan bu kitabda bunlar haqqında müəyyən bilgilər əldə edə biləcəyinizə inanırıq.

Kitab peşə, ixtisas və sənət seçimində maraqları olan üç kateqoriya insanlar üçün bir yol xəritəsi, bələdçi kimi nəzərdə tutulmuş, həm sənət, peşə və ixtisas seçmək astanasında olan yeniyetmə və gənclərimizə, həm də onların valideynlərinə və orta təhsil müəssisələrində təlim-tərbiyə işləri aparan müəllimlərə ünvanlanmış, onların bu sahədə görəcəkləri işlərin qısa məzmununa həsr edilmişdir. Ümid edirik ki, bu kitabı vərəqləməklə həm seçim qarşısında olanlar, həm də onlara məsləhət verən valideyn və

müəllimlər buradan onlara kömək edə biləcək müəyyən məlumatlar, biliklər əldə edə biləcəklər. Əsas məqsədimiz və hədəfimiz ondan ibarətdir ki, peşə və ixtisas seçimi qarşısında olan yeniyetmə və gənclərimiz özlərinin bilik, bacarıq və qabiliyyətlərini düzgün qiymətləndirsinlər, həyat yollarını düzgün seçsinlər, onların yol göstərənləri - valideynlər və müəllimlər isə onlara seçimlərində yardımçı olsunlar və  əsl dəstək nümayiş etdirə bilsinlər.

***Müəllif***

## YOLUN DÜZGÜN SEÇİLMƏSİ ONU GETMƏK QƏDƏR MƏSULİYYƏTLİDİR

***Düzlüyü çox sevər taleyi yazan,***
***Görmədim düz yolda yolunu azan.***
***Sədi Şirazi***

Gənc dost, yəqin ki, uşaq vaxtlarında gələcəkdə kim olacağın haqqında öz xəyallarını qurmuş, valideynlərinə, müəllimlərinə, qohumlarına öz arzularını bildirmiş, gələcək planlarını dostlarınla bölüşmüsən. Hətta ola bilər ki, öz fikrini indiyə kimi bir neçə dəfə dəyşmisən də. Bu da təbii haldır. İndi o vaxtdan xeyli keçib. Sən artıq böyümüşsən və böyük həyatın astanasında dayanmısan. Bəlkə elə indi ötən illərdə tez-tez dəyişən fikrini dəqiqləşdirmək, qətiləşdirmək üzərində düşünür və gələcəkdə kim olmaq haqqında fikrində müəyyən götür-qoy edirsən. Bu, belə də olmalıdır. Axı indi sənin qarşında olan yolları uşaqlıq illərinə nisbətən daha aydın görürsən: gələcəkdə ali təhsil arzusu ilə tam orta məktəbdə təhsilini davam etdirməkmi, yoxsa, ümumi orta təhsildən sonra kollecə daxil olmaq, kollec təhsili almaqmı? Yaxud, texniki-peşə məktəblərində müəyyən bir peşə - sənət öyrənmək, bu və ya digər sahədə əmək fəaliyyətilə məşğul olmaqmı? Yollar çox, arzular geniş, öz cavabını gözləyən suallarsa lap çox. Nə etmək, kim və necə olmaq ki, həm cəmiyyət üçün faydalı bir vətəndaş olasan, həm də gələcək həyatını düzgün qura biləsən?...

Bu olduqca vacib bir problem, həyatı əhəmiyyətli bir məsələdir.

Ançaq çox təəssüflər ki, bu düz yolu tapana qədər insan bəzən çox yollardan keçməli, çox sədləri aşmalı olur. Sən çox çətin bir yolun ayrıcındasan. Kim olmalı, necə olmalı? – sualının cavabı üzərində bəlkə də uzun müddətdir ki, düşünür və doğru cavabın axtarırşındasan. Lakin bəlkə də arzunu, marağını artıq dəqiqləşdirmisən, seçim üçün hansısa bir qərar vermisən. Belədirsə lap yaxşı. Amma nəzərdən qaçırmaq olmaz ki, bu çətin işi təkcə maraqla həll etmək mümkün deyildir. Maraq işin yalnız bir tərəfi və həm də görünən tərəfidir. Burada görünməyən və nəzərə alınması olduqca zəruri olan onlarla, yüzlərlə amillər vardır ki, peşə, ixtisas seçiminin düzgünlüyü və optimallığı da çox zaman onlardan asılı olur. Peşə və ixtisas seçimində bunların hər birinin müəyyən rolu, təsir dairəsi vardır. Onların birinin və ya bir neçəsinin nəzərə alınmaması seçimin düzgün olmamasına və bəzən də uğursuzluğuna gətirib çıxarır. Buna görə də burada "yüz ölçüb, bir biçmək" lazım gəlir.

Müasir dünya ədəbiyyatının görkəmli nümayəndələrindən biri (Braziliya) Paulo Koelyo yazır: "*Əgər səfəriniz çətindirsə, öz qəlbinizin səsinə qulaq asın. Özünüzlə mümkün qədər namuslu olmağa çalışın, onda görərsiniz, doğrudanmı öz yolunuzla gedirsiniz, öz arzularınızın əvəzini ödəyirsiniz. Əgər bunu eləsəniz və həyatınız çətin olaraq qalarsa, şikayətlənməkdə haqlı olacağınız vaxt yetişəcək. Amma həmin hərəkəti uşağın öz valideynlərinə şikayətləndiyi sayaq, hörmətlə yerinə yetirin. Allah – Ata və Anadır, valideynlərsə, həmişə öz övladlarının yax-*

*şılığını istəyirlər. Bu, çox çətinliklə başa gələn, fasilə götürmək və bir qədər mehribanlıq tələb eləyən təhsil ola bilər. Amma heç vaxt şişirtməyin. İş öz vaxtında yerinə yetiriləcək, əşyalarınızsa özünüzə qayıdacaq. Əl-Faid həddən artıq çox şikayətləndi, Allah da daha ona qulaq asmadı".*

Bəs peşə, sənət və ixtisas seçimində əsas nədir, nəyə daha çox diqqət yetirmək lazımdır? Əsasdan qeyri əsası necə ayıra bilmək ki, səhvə yol verilməsin? "Kim olmalı?", "Hansı peşə və ixtisası seçməli?", "Gələcək karyeranı necə qurmalı?", "Daha çox uğur qazanmaq üçün hansı sahəyə üz tutmalı?" - sualları məhz bu yaşınızda, yeniyetməlik və ilk gənclik dövründə öz dəqiq cavabını tapmalıdır.

Yadda saxlayın ki, onlarla, yüzlərlə müxtəlif cavabları olan bu tipli suallara düzgün və düşünülmüş cavabların verilməsi gələcək həyatın başlanğıcı üçün olduqca önəmlidir.

Hər hansı bir istəyin yerinə yetirilməsi insandan ona müəyyən vaxt və güc sərf etməyi tələb edir. Böyük arzu o zaman həyata keçə bilir ki, ona müəyyən qədər güclü enerji daxil edə bilək. Seçmək istədiyimizin isə dəyərini ödəməliyik. Hər hansı arzumuzun da reallaşması üçün onun dəyərini verməliyik. Bu, gələcək həyat yolu seçimində vaxt, səbr, dözüm, çalışqanlıq, daha çox öyrənməyə istək, çətinlikdən qorxmamaq, hər gün yeni nəsə öyrənmək və s. kimi dəyərlərdən ibarətdir ki, bunlarsız arzu və istəyə çatmaq mümkün deyildir. Başqa yollarla çatılsa belə, onun nə sevinci sevinc olur, nə də dəyəri bilinir. Ona görə də həyatı mənalı yaşamaq, ondan zövq almaq, insana verilən ömür payını arzu etdiyin kimi yaşamaq üçün daha çox

çalışmalı, verilən fürsətdən səmərəli istifadə etməliyik. Necə deyərlər, qışda rahat yaşamaq, ocağımızın isti olmasını istəyiriksə, onun tədarükünü yayda havaların qızmar günündə görməliyik. Yaxşı yaşamaq istəyi də belədir. Gənclik dövründə çəkilən zəhmət insanın sonrakı həyatının əsasını yaratmış olur. Bəs bunun üçün il növbədə nə etmək və nədən başlamaq lazımdır? Fikrimizcə, ilk növbədə özünüz və seçmək istədiyiniz peşə və ixtisas haqqında müəyyən məlumatlar əldə etmək, bunlar haqqında dəqiq biliklərə, bacarıq və vərdişlərə yiyələnmək olduqca vacibdir. Hər bir seçim ərəfəsində olan gənc peşə özünütəyinini müəyyənləşdirilməli, özünün potensial imkanlarını öyrənməyə çalışmalı və seçəcəyi sahə haqqında ətraflı məlumata malik olmalıdır. Bir növ özünü və seçmək istədiyi sahəni tanımalıdır.

Əvvəlcə peşə özünütəyinindən başlayaq.

Bəs peşə özünütəyini nədir, ona necə nail olmalı?

# PEŞƏ ÖZÜNÜTƏYİNİ

*Hər kəs öz yerni tapsa həyatda,*
*Sanki, xəzinə var başının altda.*
***M.Şəhriyar.***

***Peşə özünütəyini*** – peşə seçən yeniyetmə və gəncin peşə və ixtisas yolununun mahiyyətini düzgün dərk etməklə seçimini dəqiq təyin edə bilməsidir. Bu prosesin nəticəsi şəxsiyyətin peşə və həyat yolu seçiminə əqli və mənəvi hazırlığını təmin edən biliklərin, bacarıqların, motivlərin, dəyərlərin, peşə borcu və məsuliyyəti haqqında təsəvvürlərin hansı səviyyədə formalaşmasında öz ifadəsini tapır. Peşə özünütəyininin formalaşması şəxsiyyətin inkişafının elə bir mərhələsidir ki, o, şəxsiyyəti daha da kamilləşdirir və özünün bir sıra keyfiyyətlərini – "Mən"ini dərk etməsinə və "Mən kiməm, hansı sahədə daha böyük müvəffəqiyyət əldə edə bilərəm?"- sualına cavab verməyə səbəb olur.

Öz "Mən"ini dərk edən hər bir gənc, yeniyetmə özünün mənəvi və fiziki gücünü, bacarığını, bilik səviyyəsini dözgün dərk etməklə özünü gələcəyə hazırlayır. O, təkcə "Kim olmalı?"– sualına deyil, həm də "Necə olmalı?"– sualına da cavab verməyə çalışır. Özünün psixoloji, fizioloji imkanlarına nəzər yetirir, seçmək istədiyi peşənin tələbləri ilə özünün imkanlarını müqayisə edir, ona necə yiyələnmək haqqında düşünür. Belə "özünənəzər" və "özünütəhlil" şəxsiyyətin seçəcəyi peşəyə, ixtisasa münasibətinin bir sıra tərəflərini üzə çıxarır və peşə özünütəyini

şagird şəxsiyyətinin inkişaf səviyyəsinin, peşəyönümünün və peşəözünüdərkinin ayrılmaz bir hissəsi kimi çıxış edir. Buna görə də peşəözünütəyininin düzgün həll edilə bilməsi şəxsiyyətin özünün imkanlarını bu peşənin tələblərinə uyğunlaşdırmağa səbəb olacaq və bu sahədə uğur əldə edilə biləcəyinə inamı artıracaqdır. Bu inam isə peşə seçmək astanasında olan gəncin maraq göstərdiyi peşənin tələblərinə nə dərəcədə cavab verə biləcəyini aydın dərk etməsinə səbəb olacaq, özünü seçdiyi peşəyə hazırlaya biləcəkdir. Amerika psixoloqu A. Maslounun qeyd etdiyi – öz potensialını artırmaq tələbatları kimi təzahür edən özünüaktuallaşdırma tələbatları meydana çıxacaq ki, bu da şəxsiyyətin özünü ifadə etməsinə gətirib çıxaracaqdır.

Peşə özünütəyini gələcək həyat yolunun düzgün seçilməsidir. Yəni özünü həmin əmək sahəsində, həyati proseslərdə görə bilməkdir. Seçimin düzgün olduğuna inamının olması və gələcəkdə bu sahədə uğur qazanmaq üçün özünü hazır hesab etməkdir. Bunun üçün bir sıra mühüm şərtlərin gözlənilməsi vacibdir.

***Daxilindəki gücü ölç-biç və özünə güvən***

İnsanı kamilliyə doğru aparan yolun məhz müəyyən çətinliklərdən keçməsi yəqin ki, heç kəsə sirr deyildir. Asan yolla, zəhmət çəkmədən ucuz şan-şöhrət arxasınca qaçıb, haradasa, nələrdəsə maipuliyasiya edib müəyyən ad, titul qazanmaq olar və bəzən olur da. Ancaq bunlar daimi olmur, çoxluq tərəfindən qəbul edilmir, müəyyən vaxtdan sonra öz əhəmiyyətini itirir və tez bir zamanda populyarlığı aradan qalxır. Buna görə də çətinlikdən qorxmamaq və çətin, lakin güc çata biləcək işdən yapışmaq la-

zımdır. Elə bir işdən ki, onu yerinə yetirə biləcəyinə daxili istək, inam, dözüm, iradə, cəsarət, bacarıq  və potensial imkanlar olsun. Bunlar olduqda və bir-birini tamamladıqda gedilən yolun uzunluğu və çətinliyi insanı qorxutmur, məqsədindən çəkindirmir.

Heç kəs dahiliyin zirvəsinə, şənətinin fövqünə, işinin tanınmış mütəxəssisi adına, sənətinin bilicisinə asan yolla nail olmayıb və ola da bilməz. Bunun üçün daim öyrənmək, öz üzərində inamla çalışmaq və qarşıya qoyulan məqsədə çatmaq  üçün inamlı addımlar atmaq, insanda özünə güvən hissi olmalıdır.

Bu da maraqlıdır ki, belə insanlar nəyəsə nail olub arxayınlaşmır, kiçik müvəffəqiyyətlə qənaətlənərək, sanki hər şeyə nail olmuş kimi axtarışlarını, fəaliyyətində daha yüksək nəticələr əldə etmək istəklərini dayandırmırlar. Onlar daim axtarır, yeniliyə can atır və yeni nələrəsə nail olurlar. Bu da onların öz peşə, ixtisas və sənəti sahəsində öz işinin əsl bilicisi, ustası kimi tanınmasına gətirb çıxarır. Bunu demək olar ki, bütün tanınmış şəxslərin həyatına nəzər saldıqda aydın görmək mümkündür.

Peşə, sənət və ixtisas seçimində böyüklərdən və mütəxəssislərdən məsləhət almaq faydalıdır. Lakin belə bir atalar sözü də yaddan çıxarılmamalıdır: "Böyüklə də məsləhətləş, kiçiklə də, lakin öz ağlını unutma". Bu, yaxşı məsələdir. İnsanın daxili aləmini özündən yaxşı heç kim dərk edə bilməz. Özündən başqa heç kim onun daxili istəklərini duya bilməz, ürəyinin səsini eşidə bilməz. Peşə, sənət seçimində də insan öz daxili istəklərini, ürəyinin səsini eşitməli və gücü, qüvvəsi  çatacağı, həmçinin arzu və

marağında olduğu sahəni seçməyə, ona doğru irəliləməyə çalışmalıdır. Yetər ki, bu istək, arzu və maraq onun bacarıq və qabiliyyəti ilə uzlaşa bilsin, ikincilər, birincilərə uyğun gəlsin, xəyal olaraq qalmasın.

Burada başlıca məsələlərdən biri özünə kənardan baxa bilmək və özünü dərk etməkdir.

## ÖZÜNÜ DƏRK ET

*Özünü dərk et!*

***Spartalı Xilon***

Qədim yunan filosofu Sokrat – "Şeylərin təbiəti dərkedilməzdir, insan yalnız özünü dərk edə bilər" – demişdir. Doğrudanmı insan yalnız özünü dərk edə bilər? Yəni bu, şeylərin təbiətini dərk etməkdən asandırmı? Axı bəşəriyyət bu sözlərin deyildiyi zamandan çox-çox uzağa getmişdir. Yer kürəsinin təbiətinin, kosmosun, Günəş sistemi planetlərinin xassələrinin öyrənilməsi, təbiət hadisələrinin çoxlarının sirlərinin açılması, təbiətdə baş verəcək bir sıra hadisələrin qabaqcadan proqnozlaşdırılması, vaxtilə insan ağlına sığa bilməyən xəyalların gerçəkləşdirilməsi və s. məsələlər bu gün şeylərin təbiətinin öyrənilməsində insanların çox böyük müvəffəqiyyətlər əldə etdiyini aydın şəkildə sübut edir. Bütün bunlar şeylərin təbiətinin heç də tamamilə dərkedilməz olmadığını göstərən amilllərdir. İndi bəlkə də bunun əksi daha doğrudur. İnsanın özünü dərk etməsi heç də acan məsələ deyildir.

Bəs özünüdərk nədir, bunun üçün nə etmək lazımdır?

***Özünüdərk*** – özündə olan müsbət və mənfi cəhətləri aydın görə bilmək, özünün nəyə qabil olduğunu, bacarıq və qabiliyyətinin, biliyinin səviyyəsini düzgün qiymətləndirə bilmək və özünü təkmilləşdirmək istiqamətində fəaliyyət göstərməkdir. Özünüdərk meylləri formalaşdıqdan sonra bu keyfiyyətlər insanın özünə nəzər salmaq, özündə olan mənfi və müsbət cəhətləri qiymətləndirmək, özündə görmək istədiyi bir sıra keyfiyyətləri formalaşdırmaq, yəni ***özünü tərbiyə*** etmək motivlərinin inkişaf etməsinə səbəb olur.

XVII əsr İspan yazıçısı və mütəfəkkiri Baltasar Qarsian "Kamillik elmi" adlı fəlsəfi traktatında yazırdı: *"Öz xasiyyətini, ağlını, fikirlərini, həvəslərini dərk et. Özünü tanımasan, özünü idarə edə bilməzsən. Özünə güzgüdə baxa bilərsən, amma qəlbin güzgüsü yoxdur; qoy özün haqqında sağlam düşüncən qəlbinin güzgüsü olsun. Öz xarici görkəmini unuda bilərsən; amma daxili aləmin haqqında, onu yaxşılaşdırmaq və kamilləşdirmək üçün daima düşün. Kamalda nə qədər möhkəm, fəaliyyət göstərməyə nə qədər qadir olduğunu yoxla. Coşqunluğunu sınaqdan çıxar, qəlbinin dərinliyini yoxla, qabiliyyətlərini götür - qoy et."*[1] İnsanın özünü dərk etməsi üçün çox dəyərli məsləhətlərdir.

Aparılan çoxsaylı tədqiqatlar sübut edir ki, çox vaxt insanın özünün özünə verdiyi qiymət başqalarının ona verdiyi qiymətlə heç də mütənasib olmur. Özünün qiyməti ya real qiymətdən yüksək (təəssüf ki, çox vaxt belə olur), ya da aşağı olur. Özünə olduğundan daha yüksək qiymət

---

[1] Baltasar Qarsian. Kamillik elmi.Bakı: "Qanun" nəşriyyatı, 2001, s. 36.

vermək özündən razılıq, təkkəbbürlük, lovğalıq, kiçik bir müvəffəqiyyəti böyük bir iş kimi qiymətləndirmək, başqalarına qarşı laqeydlik, özünü yüksək tutmaq və s. kimi mənfi hisslər yaratdığı kimi, şəxsiyyətin özünə verdiyi qiymət aşağı olduqda da özündən narazılıq, öz potensial imkanlarını düzgün qiymətləndirə bilməmək, müəyyən problemlər qarşısında tərəddüd etmək və s. kimi halların yaranmasına gətirib çıxarır. Hər iki hal zərərlidir. Buna görə hər bir insan üçün başqalarının real qiymətinə ehtiyac duyulur.

Görkəmli rus yazıçısı və pedaqoqu L.N. Tolstoy yazırdı ki, insan bir kəsrə bənzəyir: bu kəsrin surətində onun özü, məxrəcində isə özünə verdiyi qiymət dayanır. Kəsrin məxrəci böyüdükcə onun qiyməti azaldığı kimi, insanın özünə verdiyi qiymət də artdıqca onun özünün qiyməti kiçilir.

Hər bir insanın özünü aydın dərk etməsi bu qiymətin düzgün olmasında mühüm rol oynayır.

Bəs bunu necə, hansı yollarla etmək lazımdır ki, insan öz potensial imkanlarını, daxili gücünü, qabiliyyət və bacarığını düzgün qiymətləndirə bilsin?

*İlk addım özünümüşahidədir.*

***Özünümüşahidə*** – insanın özünə kənardan, başqa adamın gözü ilə baxması, özündə olan keyfiyyətləri görə bilməsidir.

Özünümüşahidə şəxsiyyətin özü haqqında, özünün maraqları, qabiliyyətləri və dəyərləri haqqında məlumat toplamasına, yəni şəxsi məlumatlılığa geniş imkanlar yaradır. Bu məlumatlar peşə və ixtisas seçmək astanasında

olan hər bir şəxsdə aşağıdakı suallara cavab tapmağa kömək edir:

1. Mən necə insanam? Özüm haqqında nəyi bilirəm?
2. Hansı növ iş görməkdən zövq alıram?
3. Mənim maraq və qabiliyyətlərim nəyədir?
4. Hansı bacarıqlara malikəm?
5. Gələcək peşəmlə bağlı hansı qərara gələ bilərəm?
6.Başqalarının mənim bacarıq və qabiliyyətlərimi necə qiymətləndirdiklərini bilirəmmi?
7. Öz maraq, bacarıq və qabiliyyətlərimi dərindən öyrənmək üçün hansı yenilikləri əlavə edə bilərəm və s.

Bu və bu tipli suallara cavab tapmaq hər bir şəxsdən ozünün daxili aləminə dərindən nüfuz edə bilməsi sayəsində mümkün olduğunu unutmaq olmaz. Bunların hər biri şəxsiyyətin özünə, öz daxili aləminə sanki mikroskopla baxmağı tələb edir. Səthi və tələsik verilən cavablar bunların daxili mahiyyətini görməyə imkan vermədiyindən bu zaman diqqətli olmaq tələb olunur. Bu baxımdan şəxsi məlumatlılıq sahəsində aşağıdakı tapşırıqlar üzərində fikirləşmək faydalıdır:

• özünün təlim müvəffəqiyyətinə nəzər salaraq hansı fənnin daha asan, hansının çətin olduğunu aydınlaşdırmaq;

• hansı dərslərə həvəslə gedilir və onlarda özünü rahat hiss edir;

• öz asudə vaxtının necə keçirdiyinə nəzər salmaq;

• əlvə olaraq hansı kitabları oxumağa və filmlərə baxmağa həvəsli olmaq;

• şəxsi marağı qeydə almaq və gələcəkdə kim olacağını aydınlaşdırmaq və s.

Aparılan bir sıra tədqiqatlar göstərir ki, özünümüşahidə prosesi şəxsiyyətin inkişafı ilə sıx bağlıdır. Şəxsiyyət inkişaf etdikcə onun elə xüsusiyyətləri üzə çıxır ki, bunlar şəxsiyyətin özünə kənardan baxmasını və özündə olan bir sıra keyfiyyətləri yenidən qiymətləndirməsini zəruri edir. Buna görə də özünün müsbət və mənfi cəhətlərinə daha obyektiv yanaşması üçün  şəxsiyyətin özünə kənardan baxa bilmək keyfiyyətinə malik olması olduqca faydalıdır. Əlbəttə, bu keyfiyyətin özündə tərbiyə edilməsi də vacib amillərdəndir. Lakin təəssüflər ki, bu mühüm keyfiyyət heç də bütün insanlara müyəssər olmur.

Özünə kənardan baxa bilmək insanın özünə verdiyi və eyni zamanda ona başqası tərəfindən verilən qiymətin daha dəqiq olmasına mühüm təsir göstərir. Sanki, başqa bir adama baxıb onu xarakterizə edirsən. Bu zaman insan özünün qabiliyyətini, bacarığını, psixi xüsusiyyətlərini müşahidə edir, maraq göstərdiyi peşə və ixtisasla  bacarıq və qabliyyətlərinin uyğunluq səviyyəsini araşdırır, arzu etdiyi sahəni seçməyə mane olan çətinlikləri görməyə və aradan qaldırmağa, nəhayət, imkanlarını real qiymətləndirməklə düzgün seçim etməyə çalışır.

Özünə kənardan baxmaq, özünün müsbət və mənfi cəhətlərini görmək və təhlil edə bilmək insanı ona verilən kənar qiymətlərə daha da yaxınlaşdırır. Bu zaman təkcə müsbət cəhətlər deyil, mənfi cəhətlər də müşahidə obyektinə çevrilir. İnsan onu görür və qiymətləndirə bilir ki, bu

da seçim astanasında olan hər bir şəxsi öz potensial imkanlarını artırmağa sövq edir.

*İkinci addım* müşahidə "materiallarının" ***obyektiv və düzgün*** olmasına çalışmaqdır. Nə artırmadan, nə azaltmadan verilən qiymət uğurlu yolun başlanğıcı kimi insana özünü tanımağa, yaxın gələcəkdə nələrə daha çox diqqət yetirməli olacağına təkan verə biləcək amillərdəndir. Buna görə də hər bir gəncin özünümüşahidə nəticəsində əldə etdiyi məlumatları qeydə alması və təhlil edə bilməsi, onlara müsbət və mənfi olmasından asılı olmayaraq düzgün və obyektiv qiymət verə bilməsi onun bir şəxsiyyət kimi inkişafını da səciyyələndirən amillərdən olduğu nəzərdən qaçırılmamalıdır. Burada xüsusi diqqət verilməli məsələ peşə maraq və meylin davamlı və dərin olub-olmadığını üzə çıxarmaq, alternativ, yaxud ehtiyat variantın olub-olmadığını yəqinləşdirmək, ən əsası isə özünün bacarıq və qabiliyyətini düzgün dəyərləndirə bilməkdən ibarətdir.

*Üçüncü addım* müəyyənləşmiş peşə marağı ilə bilik, bacarıq və qabiliyyət arasında ***uyğunluq səviyyəsini*** aşkara çıxara bilməkdir. Əgər bunlar bir-biri ilə uzlaşırsa, deməli seçim üçün əla şans var. Seçimin düzgün olduğuna əmin olmaq olar. Lakin belə bir uzlaşma yoxdursa, düşünmək və ciddi götür-qoy etmək lazım gəlir. Bu zaman araşdırmaq lazımdır: maraq və motiv güclüdürsə və qərar qətidirsə onda bu sahəyə lazım olacaq bilik, bacarıq və qabiliyyətləri inkişaf etdirmək və maraqla onların uzlaşmasına nail olmaq lazım gələcəkdir. Əks hal müşahidə edilərsə, yəni maraq və meyl dərin deyilsə onda bacarıq və qabiliyyətin hazırkı səviyyəsi ilə hesablaşmaq və bacarıq və qa-

biliyyət daha çox hansı sahədə özünü göstərərsə marağı onlara uyğunlaşdırmaq zəruri olacaqdır. Yəni, hansı sahədə daha çox müvəffəqiyyət qazanıla bilərsə o sahəni də seçmək haqqında fikirləşilməlidir.

Nəhayət, *dördüncü addım* ***özünütəhlil və özünüqiymətləndirmə*** işlərinin aparılmasıdır. Bu mərhələ gələcəyi planlaşdırmaq və yekun qərar vermək üçün peal imkan yaradır. Nə etməli? Hansı seçimi etməli? Əlbəttə, burada valideyn məsləhətini, müəllim sözünü də unutmaq olmaz. Necə deyərlər: yüz ölçüb bir biçdikdən sonra qərara gəlmək lazımdır. Çünki seçim qarşısında olan şəxsin qəlbində tükənməyən arzular, qarşında geniş sahələr və çoxsaylı peşələr aləmi vardır. Bu aləmi tədqiq etməklə, araşdırmaqla axtardığını tapa bilərsən. İnsanın özünün yaxşı cəhətlərini bilməsi onun ən üstün keyfiyyətlərindən biridir. Görkəmli Çin mütəfəkkiri Konfutsinin dediyi kimi, əsl bilik – bildiyin şeyi bildiyini, bilmədiyin şeyi isə bilmədiyini bilməkdir.

Peşə və ixtisas seçimində yekun qərara gəlmək, tərəddüd etmədən son qərar verə bilmək olduqca faydalıdır. Lakin burada tələskənlik və ya müəyyən amilləri nəzərdən qaçırmaq heç də gözlənilən nəticələrin əldə edilməsi üçün faydalı olmur. Bu baxımdan yekun qərarın qəbulundan əvvəl peşəyönümü problemi üzrə görkəmli mütəxəssis, rus psixoloqu E.A.Klimovun aşağıda təqdim etdiyimiz «Peşə seçmədə ***səkkiz bucaq*** situasıyası»nın da nəzərdən keçirilməsi, peşə-ixtisas seçiminə bu bucaqlardan baxılması və bunların bir-birilə hansı səviyyədə uyğun gəlib-gəlmədıyını aydınlaşdırmaq olduqca faydalı olar.

**1. Ailənin yaşlı üzvlərinin mövqeyi.** Bu mövqe Azərbaycan şəraitində olduqca mühüm yer tutur. Bizim xalqımız başqa xalqlarla nisbətdə nəinki öz övladlarının, həmçinin onların övladlarının da (oxu: nəvələrinin) gələcəkləri üçün düşündüklərindən və narahatlıq hissi keçirdiklərindən onların peşə, sənət və ixtisas seçimlərini də özlərinin arzu və niyyətlərinə uyğun olaraq həll etməkdə maraqlı olurlar. Burada valideynlərin özlərinin vaxtilə edə bilmədiklərini övladlarında görmək istəyi, yaxud da övladlarını daha nüfuzlu, bəzən də daha qazanclı yerlərdə görmək arzusu az rol oynamır. Bu zaman ağıllı məsləhətlər öz yaxşı nəticələri ilə həmişə faydalı olur. Lakin bunun əksinə də az təsadüf olunmur. Seçimin ata və analar tərəfindən onların öz istəklərinə və arzularına uyğun olaraq edilməsi heç də həmişə uğurlu nəticələrə gətirib çıxarmır. Bir qism alilələr (təəssüf ki, bunlar daha çoxluq təşkil edir) seçimi övladlarının arzu və marağını, həmçinin bacarıq və qabiliyyətlərini nəzərə almadan özlərinin istəklərinə uyğun apardıqlarından elə bəri başdan onların peşə və ixtisas seçimində uğursuzluqların təməlini qoymuş olurlar.

Real faktlar və tədqiqatlar göstərir ki, ailənin yaşlı üzvləri məsələyə övladlarının arzusu, istəyi və bacarığı prizmasından yanaşdıqda, övladlar bu sahədə valideynlərin dəstəyini hiss etdikdə onların öz gələcəkləri haqqında düşüncəsi, atdıqları addım daha inamlı, daha müstəqil və sərbəst olur. Ailənin yaşlı üzvləri ilə uşaqlar həmfikir olduqda, onların fikirləri üst-üstə düşdükdə məsələnin həlli daha münasib, daha optimal və daha məzmunlu olur. Buna görə də hər bir seçim qarşısında olan yeniyetmə və

gəncin valideynləri ilə məsləhətləşməsi, öz arzu və maraqlarına onların münasibətini öyrənməsi, eyni zamanda onların fikirləri ilə tanış olması, məsləhətlərini dinləməsi və valideynlərin də öz növbəsində övladları ilə səmimi, elmi əsaslara söykənən məsləhətləşmələr aparması həm olduqca zəruri, həm də faydalıdır. Atalar “Məsləhətli don gen olar”- deyiblər.

**2. Yoldaşların, rəfiqələrin, dostların mövqeyi.** Bəzən peşəseçməyə bu şəxslərin etdiyi təsir başqa təsirlərdən daha güclü olur. Bu, xüsusən peşəseçmədə dərin və davamlı marağa malik olmayan, “təki ali təhsil olsun” – fikri ilə seçim edənlərdə özünü daha çox göstərir. Yeniyetmə və ya gənc başqalarının təsiri və təkidi ilə peşə seçmək məcburiyyətində olur ki, bunun da nəticəsi heç də həmişə uğurlu olmur. Bunun başlıca səbəblərindən biri də məsləhət verdikləri şəxslərin arzusunu, marağını, bacarıq və qabiliyyətini qiymətləndirməkdə onların da kifayət qədər səriştəsinin olmamasıdır.

Bəzən də dostlar, rəfiqələr bir birlərindən ayrılmamaq üçün bacarıq və qabiliyyətlərini nəzərə almadan, yaxud da onların birinin istəyi ilə müəyyən bir peşə və ya ixtisas seçməyə qərar verirlər. Belə bir addımın atılması həm seçm prosesində, həmçinin sonradan peşə-ixtisas təhsili zamanı və həm də diplomdansonrakı fəaliyyətdə müəyyən çətinliklərin yaranmasına səbəb olur. Yaddan çıxarmaq olmaz ki, belə təsirlər yalnız o halda faydalı ola bilir ki, məsləhət verənlər səni anlayır, başa düşür və seçiminə hörmətlə yanaşırlar. Buna görə də belə hallarda məsləhəti

peşəkar mütəxəssislərdən – məktəb psixoloqlarından, müəllimlərdən və s. almaq daha çox faydalı olur.

**3. Müəllimlərin, sinif rəhbərlərinin mövqeyi.** Yaxşı müəllim, öz işinin əsl ustası olan səriştəli müəllim yalnız dərs deyən, fənləri tədris edən şəxs deyildir. O, həm də pedaqoq, psixoloq, tərbiyəçi və məsləhətçidir. Bəzən nə sənin, nə də sənin valideynlərinin görüb - duya bilmədikləri müəyyən bacarıq və qabiliyyətini müəllim daha yaxşı görür və daha düzgün qiymətləndirməyi bacarır. Buna görə də peşə seçmək astanasında fənn müəllimlərinin, bir neçə il sizin sinfə rəhbərlik edən sinif rəhbərinin mövqeyini bilmək, məsləhətlərinə qulaq asmaq olduqca faydalıdır. Öz seçiminizlə bu fikirləri müqayisə etmək, onların arasında uyğunluq və oxşarlıqları görmək, uyğunsuzluq varsa onun mahiyyətinə varmaq, səbəbləri araşdırmaq və düzgün istiqaməti seçmək bu baxımdan zəruridir.

**4. Şəxsi peşə planı (özünün planın).** Peşəseçmənin ən müvəffəqiyyətli, ən zəruri amillərindən biri hər bir şəxsin şəxsi peşə planının olmasıdır. Belə bir planın olması və onun hərtərəfli və mükəmməl işlənilməsi peşə seçimində əsas yer tutur. Özünüqiymətləndirmə və öz arzu və marağını reallaşdıra bilmək nöqteyi-nəzərindən şəxsi peşə planı məqsəd və ona çatmağın real mənzərəsini əks etdirən bələdçi rolunu oynayır. Bu baxımdan peşə planının hərtərəfli tərtib edilməsi, məqsədə çatmağın yol və vasitələrinin optimal seçiməsi, hansı məsələlərə daha çox önəm verilməsi və məqsədin aydın ifadə edilməsi olduqca vacibdir. Yol xəritəsi rolunu oynayacaq bu planın düzgün tərtib edilməsi peşəseçmənin optimal şəkildə həll olunmasında

əhəmiyyətli yer tutur. Buna görə də şəxsi peşə planında fikrin aydın olması, hədəfin düzgün seçilməsi və ona çatmağın yollarının düzgün müəyyənləşməsi olduqca vacibdir. Bunun üçün aşağıdakı məsələlərin diqqət mərkəzində saxlanılmasını faydalı hesab edirik:

**1.** ***Əsas məqsəd və motivlərin müəyyənləşdirilməsi.*** Bura daxil olan işlərin əsas məzmunu aşağıdakılardan ibarətdir:

- başqa peşənin, ixtisasın deyil, nə üçün məhz bu peşənin, ixtisasın seçilməsini zəruri hesab etdiyini əsaslandırmaq və seçiminin etibarlılığına inanmaq;

- bu seçimdə gələcək perspektivləri müəyyənləşdirmək. Yəni seçiləcək peşə və ixtisas haqqında, ona haralarda yiyələnməyin mümkünlüyü barədə məlumat toplamaq, sorğu-məlumat xarakterli kitablara baxmaq, böyüklərdən və bu sahədə işləyən adamlardan məsləhət almaq;

- gələcək iş yeri, iş şəraiti haqqında ətraflı məlumata yiyələnmək, bu peşə və ixtisasa yiyələndikdən sonra gələcək hədəfləri özü üçün aydınlaşdırmaq ;

- peşənin onu seçən insandan tələb etdiyi psixoloji, fizioloji və mənəvi tələblərin nələrdən ibarət olduğunu bilmək və s.

**2.** ***Seçmək istədiyin peşəyə, ixtisasa yiyələnmək yollarını müəyyən etmək.*** Bu seçimə təsir edən müsbət və mənfi amilləri müəyyənləşdirmək, əks təsir göstərə biləcək maneələri neytrallaşdırmaq planını nəzərdə tutmaq;

**3.** ***Planın ayrı-ayrı bəndləri üzrə sistem və ardıcıllığı müəyyənləşdirmək.*** Planın həyata keçirilmə texnologiyalarını işləyib hazırlamaq; fəaliyyətdə fasiləsizliyi təmin etmək.

**4. A*lternativ variant hazırlamaq, digər yardımçı vasitələri nəzərdə tutmaq.*** Bu, nəzərdə tutulan planın həyata keçirilməsi üçün köməkçi, yardımçı vasitələrin müəyyənləşdirilməsi və hazırlanması, eyni zamanda, nəzərdə tutulan seçim baş tutmadığı təqdirdə ona yaxın olan digər peşə və ixtisas seçimini də nəzərdə tutan variant ola bilər.

Plan əhatəli olmaqla yanaşı, konkret olmalı, özünü bu peşəyə hazırlamağın bütün təfərrüatları orada öz əksini tapmalıdır.

Peşə planının tərtibində, müstəqil olmağa və nəzərdə tutduğunuz planı həyata keçirməyə çalışın. Çünki söhbət məhz sizin seçəcəyiniz sahədən gedir.

**5. Qabiliyyətlər.** "Səkkizbucaqlı"da qabiliyyətlər mühüm yer tutur. Peşə, ixtisas seçimində bunun öz yeri və mühüm rolu vardır. Hər bir sahə özünün tələblərinə müvafiq olaraq müəyyən qabiliyyətlər tələb edir. Onları görə bilmək, fərqləndirmək olduqca vacibdir. Qabiliyyətin uyğun gəldiyi peşə və ixtisası seç-mək əsl xoşbətlikdir. Çünki qabiliyyətlərin uyğun gəldiyi peşə, sənət sahəsində müvəffəqiyyət əldə etmək üçün imkanlar, həm də təbii imkanlar daha çoxdur. Qabiliyyətin uyğun gəlmədiyi peşə və ixtisasın seçilməsi müvəffəqiyyətsizliyin başlanğıcıdır. Hələ XIII əsrdə Şərqin böyük əxlaq nəzəriyyəçisi Nəsrəddin Tusi "Əxlaqi-Nasiri"əsərində yazırdı: *"Kimin nəyə qabiliyyəti varsa, onunla məşğul olsa, tez nəticə verər, böyük sənətkar olar, əks təqdirdə zəhmət hədər gedər, ömür puç olar."*[2] Bunu nəzərdən qaçırmaq olmaz. Ona görə də istər peşə seçən

---

[2] N.Tusi. Əxlaqi-Nasiri. Bakı: Elm, 1980, səh. 160-161.

gəncin özü olsun, istərsə də valideynlər və müəllimlər, uşaqların bacarıq və qabiliyyətlərini nəzərə almalı, kimin hansı sahəyə qabiliyyətinin müvafiq olmasına dərindən fikir verməlidirlər.

Peşə seçimində seçilən sahənin qabiliyyətə uyğun olması, ona müvafiq gəlməsi ən mühüm şərtlərdəndir. Bu, həm onu reallaşdırmaq imkanlarını artırır, həm də daha böyük müvəffəqiyyətlər qazanmağa səbəb olur, mükəmməllliyə aparan yolları genişləndirir, bacarıq və vərdişlərin artırılmasını təmin edə bilir. Seçimdə arzu və istəklə qabiliyyətlər bir-birini tamamladıqda qarşıda yeni-yeni yollar açılır, seçilən sahə üzrə daha böyük uğurlar əldə etməyə motivlər artır, güclənir. Bunlar da eyni zamanda yeni-yeni bilklərin, bacarıqların və daha yüksək müvəffəqiyyətlərin əldə edilməsinə həm imkan, həm də ehtiyac yaradır. Yerində saymaqla, olanlarla qənaətlənib yeni biliklərə can atmamaqla heç nə əldə etmək olmaz. Bu, olsa-olsa adi bir sənət, peşə sahibi, sıradan bir işçi, gündəlik işə gedib-gələn və yeknəsək bir həyat tərzi keçirən işçi demək olacaqdır.

**6. Iddia səviyyəsini ictimaiyyətə tanıtma.** Bu, iddiasında olduğun peşə və ixtisası seçmək üçün hansı arqumentlərinin olduğunu (uşaqlıqdan bu peşəni seçmək arzusunda olduğunu, yaxud mövcud bacarıqlarının və qabiliyyətinin ona müvafiqliyini və ya valideynlərin davamçısı olmaq iddiasında olduğunu, yaxud bu istiqamətdə olan tədris fənlərini daha yaxşı bildiyini, yaxud da bu sahədə qazana biləcəyin uğurların daha çox ola biləcəyini və s.) ətrafdakılara - valideynlərinə, yoldaşlarına, müəllimlərinə

çatdıra bilməkdir. Burada hər bir şəxsin öz iddia səviyyəsini düzgün dərk etməsi olduqca vacibdir. İddiası ilə imkanlarının səviyyəsini düzgün qiymətləndirə bilmək bu istiqamətdə mühüm məsələdir. Bununla yanaşı, iddia səviyyəsini qoruyub saxlamaq, onu inkişaf etdirmək də əsas şərtlərdəndir. Bunun üçün bu sahədə biliklərini genişləndirmək, uğursuzluqlardan qorxmamaq, müvəffəqiyyəti artırmaq üçün müntəzəm çalışmaq lazımdır. Bir növ, bu sahədə özünü təqdim etməyi bacarmalısan. Buna həm bilik və bacarıqların, həm də digər şəxsi keyfiyyətlərin (məsuliyyət hissinin olması, səliqəlilik, diqqətlilik, inamlı olmaq və s.) olduğunu göstərə bilmək də mühüm amillərdəndir.

**7. Məlumatlılıq.** "Səkkizbucaqlı"da mühüm yer tutan bu amilə ciddi yanaşmaq tələb olunur. Seçiləcək peşə, ixtisas və əmək sahəsi haqqında məlumatların genişliyi, dərinliyi və düzgünlüyü nə qədər çoxdursa, seçimdə səhvlərin az olacağı ehtimalı da bir o qədər böyükdür. Peşə və ixtisas haqqında ətraflı məlumata yiyələnmədən, onların əsl mahiyyəti ilə deyil, ikinci, üçüncü dərəcəli göstəriciləri, xüsusən zahiri tərəfləri ilə bağlı olan amillərə əsaslanılaraq seçim edilməsi çox vaxt istənilən və gözlənilən nəticələr vermir. Buna görə də seçim qarşısında olan hər bir şəxsin seçiləcək sahə haqqında kifayət qədər məlumat toplaması olduqca vacibdir. Belə bir məlumatlara yiyələnmədən müəyyən sahəni seçmək iddiasında olmaq ucsuz-bucaqsız sıx meşədə yolların haraya aparacağını bilmədən onun dərinliklərinə doğru irəliləməyə bənzəyir ki, burada da azmaq, çıxış yolu tapa bilməmək ehtimalı daha çox

olur. Buna görə də hər bir peşə və ixtisasa maraq göstərərkən əvvəlcə onun professioqramları ilə ətraflı tanış olmaq, onun bütün xüsusiyyətlərini öyrənmək lazımdır. Təcrübə göstərir ki, belə məlumatların çox olması seçim prosesinin optimallığına olduqca müsbət təsir göstərə bilir.

**8. Meyllilik.** Meyllər hər hansı bir fəaliyyəti həyata keçirmək istəyidir. Müəyyən bir peşə və əmək sahəsinə meylin olması o sahədə fəal, yaradıçı işə istiqamətlənməkdir. Müəyyən bir peşə və ixtisas sahəsinə marağın olması seçim üçün kifayət qədər yetərli olmadığından burada meyllərin olmasının vacibliyi xüsusi diqqətə çatdırılır. Buna görə də burada söhbət maraqdan daha güclü olan meyllərdən gedir. E.A.Klimov bu təsnifatında səkkizinci bucağın məhz maraq deyil, meyl olduğunu göstərmişdir. Beləliklə, peşə, sənət və ixtisas seçimi prosesində nəzərə alınması vacib olan bu "səkkizbucaqlı"nın hər bir "bucağının" xarakterinə, tələblərinə və nəhayət onun tamlıqla reallaşdırılmasına nail olunması hər bir şəxsin gələcək həyat yolunun düzgün müəyyənləşməsinə və seçimin müvəffəyiyyətlə həyata keçirilməsinə mühüm əminlik yaradır.

Lakin bunlar da son deyildir. Peşəseçmədə qarşılaşacağınız elə məqamlar, incəliklər olacaq ki, bunlara da cavab tapmalı olacaqsınız. Bu çoxsaylı sualların düzgün cavabları sizi real seçimə daha da yaxınlaşdıracaqdır. Buna görə də bu prosesdə tələskənliyə, tez qərar çıxarmağa yol vermək olmaz. Həmçinin, gecikmək də zərərlidir. Hər bir işi vaxtında görmək faydalı olduğu kimi, peşə seçmə məsələsini də vaxtında həll etmək lazımdır.

Bəs bu vaxtın neçə yaşdan başlandığını bilirsinizmi? Yəqin ki, yox.

Bu sahədə çoxlu fikirlər, müxtəlif məsləhətlər vardır. Real vəziyyət isə heç də hamı üçün eyni deyildir. Kimi lap uşaqlıqdan, hələ ibtidai məktəbdə oxuduğu vaxtlardan hər hansı bir peşə, ixtisas seçmək arzusunda olur, böyüdükcə bu istəyini daha da möhkəmləndirir, kimi yeniyetməlik yaşı dövründə (ümumi orta təhsil illərində) seçimini tam müəyyənləşdirir, kimi də qəti söz demək, seçimini dəqiqləşdirmək üçün tərəddüdlər edir, qəti qərara gəlməkdə çətinliklər çəkir, seçim edənə qədər bir-neçə dəfə fikrini dəyişmiş olur.

Müşahidələr göstərir ki, əksər şagirdlər doqquzuncu sinifdə oxuduqları ərəfədə öz gələcək həyat yollarına nəzər yetirir, gələcək peşə planını qururlar. Onlar ya təhsilin tam orta məktəb pilləsində seçdikləri peşə və ixtisasa uyğun fənn blokları üzrə təlim məşğələlərinə davam edir, ya da peşə-ixtisas təhsili müəssisələrinə – peşə məktəblərinə, peşə liseylərinə və orta ixtisas məktəblərinə üz tuturlar. Təcrübə göstərir ki, seçimin məhz tam orta təhsil pilləsinə keçməzdən əvvəl, yəni ümumi orta təhsil zamanı, doqquzuncu sinifdən gec olmayaraq edilməsi daha faydalıdır. Bu prosesdə qəlbin dərinliklərində olan səsə laqeyd qalmamaq zəruri amillərdəndir.

***Ürəyinin səsinə qulaq as***

Başqa seçimlərdə olduğu kimi, peşə, sənət seçimində də ürəyin səsinə qulaq asmaq, insanı sövq etdirən sahəyə, sənətə üz tutmaq gələcəkdə ona müvəffəqiyyət qazandıra biləcək əsas şərtlərdəndir. Bəlkə də bunlar insanların

dünyaya gələrkən özləri ilə gətirdikləri genlərin təsiridir ki, bunların da əksinə getmək heç də həmişə uğur gətirmir. Valideynlərin, müəllimlərin uşaqların nə ilə maraqlandıqlarını, daha çox nələrə üstünlük verdiklərini dərindən müşühidə etmələri, onları buna təhrik edən amilləri görə bilmələri bu baxımdan olduqca faydalıdır. Çünki, çox vaxt yeniyetmə və gənclərin bu maraqları onların daxili qüvvələri ilə bir ahəngdarlıq təşkil edir ki, bu da onların gələcək seçimlərinə öz təsirini göstərməyə bilmir.

Görkəmli Amerika yazıçısı Mark Tvenin ədəbi qəhrəmanlarından biri axirət dünyasında tələb edir ki, bütün dövrlərin və xalqların ən böyük sərkərdəsini ona göstərsinlər. Və göstərirlər, o, "bu ki, bizim qonşuluğumuzda olan və çoxdan ölmüş pinəçidir" – deyir. Bu nə olan şeydir? Doğurdan da pinəçi anadan hərb adamı, sərkərdə kimi doğulmuşdur, ancaq ona heç bölməyə belə komandirlik etmək müyəssər olmamaışdır. Çünki, o, öz ömür yolunu düzgün seçə bilməmişdir.

Görkəmli alman mütəfəkkiri və şairi İ.V.Höte bu münasibətlə yazmışdır: *"Öhdəsindən gəlmədiyin bəlanın kökü sənin seçdiyin sənətdə yox, sənin öz içindədir. Özünə peşə, sənət, ya da hər hansı məşğuliyyət seçən hər bir adam bu sahəyə içindən gələn cazibə (çağırış) hiss etməsə, həyatını hökmən dözülməz edəcək. Kim istedadlı olmaq üçün istedadlı doğulubsa, həyatın bütün zövqünü yaşayacaq. Cazibəsiz həyatda heç nə verilmir. Yalnız daxili istək, yalnız daxili ehtiras və sevgi bizə hər cür maneəni dəf etməyə kömək edir, bizə yol açır, ətrafda əbəs yerə vurnuxan məhdud sayda adamların başı üzərinə qaldırıb irəli aparır."*

Peşə, sənət, ixtisas seçmək insanın həyata vəsiqəsinin başlanğıcıdır. İnsanın gələcək həyatı, quracağı karyera bu seçimin düzgünlüyündən çox asılıdır. Bunun üçün ürəyin, qəlbin dərinliklərində olan arzunun həyata keçirilməsinə, ürəyin səsinə qulaq asaraq onun səni istiqamətləndirdiyi səmtə doğru getmək lazımdır.

*"Allaha inanan, hər gün ibadətlə məşğul olan mömin bir adam gözlənilmədən bütün var-dövlətini itirdi. Bütün hallarda Allahın ona kömək göstərəcəyinə inanaraq ona dua etməyə başladı və "İlahi, mümkünsə lotereyada udmağıma komək elə"- deyə hər gün ondan xahiş edirdi. O, illər boyu dua eləsə də, amma kasıb olaraq qalırdı. Günlərin birində öldü və çox dindar adam olduğundan birbaşa allahın dərgahına apardılar. Lakin dərgaha çatanda ora girməkdən imtina etdi və: - "Dini təlimlərə uyğun uzun bir ömür yaşadım. Allahsa mənim lotereyada udmağıma heç cür kömək eləmədi. Sənin mənə vəd elədiklərinin hamısı yalanmış"- deyə mömin adam dilləndi.*

*-"Mən həmişə sənə lotereyada udmaqda kömək etməyə hazır idim. Amma mənim nə qədər çox istədiyimdən asılı olmayaraq sən heç vaxt lotereya bileti almadın" - deyə İlahi cavab verdi.*

Belə bir misal onu göstərir ki, nəyə isə çatmaq, nəyi isə əldə etmək üçün hökmən fəaliyyət göstərmək, hərəkət etmək və bu istiqamətdə çalışmaq lazımdır. Heç bir nailiyyət zəhmətsiz, heç bir əziyyət isə nəticəsiz olmur.

## ÖZÜNÜ SINA

*Xoşlamadığınıza səbr etməsəniz,*
*xoşladığınızı əldə edə bilməzsiniz.*
*İsa peyğəmbər*

Seçim qarşısında olan hər bir gəncin özünü sınaqdan keçirməsi, yəni nələrə malik olduğunu dəqiqləşdirə bilməsi vacib məsələlərdəndir. Burada həm arzu və istəyə, həm də real bacarıq və qabiliyyətlərə nəzər yetirmək, eyni zamanda digər təsirlərin də nə dərəcədə güclü olub-olmadığını da saf-çürük etmək lazım gələcəkdir. Bunun üçün müxtəlif metodlardan və vasitələrdən istifadə etmək olar. Məsələn, özünümüşahidə, bacarıq və qabiliyyətini sınaqdan keçirmə, özünütəhlil və s. Bunlardan daha münasib olanı peşəyönümü üzrə testlərdən istifadə edilməsidir.

Peşəyönümü üzrə testlərdən istifadə edilməsi hər bir şəxsin maraq və meylinin istiqaməti və onların bacarıq və qabiliyyətinə uyğun olub-olmaması haqqında müəyyən dəqiqləşdirmələrin aparılması üçün faydalı metodlardandır. Testlərə düzgün cavab verməklə seçiminin düzgün olub-olmadığını müəyyən etmək mümkündür. Gəlin əvvəlcə yuxarıda haqqında bəhs etdiyimiz "Səkkizbucaqlı"nın hər bir bucağına müvafiq olan suallardan başlayaq və onları cavablandırmağa çalışaq:

1. Ata – ana və ailənin digər yaşlı üzvləri sənə hansı peşə və ixtisası seçməyi məsləhət görür?

2. Sinif yoldaşların, rəfiqələrin, dostların nə fikirdədirlər, onların məsləhəti nədir?

3. Seçimin haqqında müəllimlərinin və səni bir neçə ildir yaxından tanıyan sinif rəhbərinin məsləhəti nədir?

4. Sən özün hansı peşə və konkret ixtisası seçmək arzusundasan? Gələcək karyeranı necə qurmağı planlaşdırmısan?

5. Hansı qabiliyyətə malik olduğunu araşdırmısanmı? Sənə bu haqda bir şey deyiblərmi?

6. İddia etdiyin peşə və ixtisas haqqında fikirlərini, hisslərini və ya əməli fəaliyyətini ətrafındakı insanlara hər hansı səviyyədə çatdra bilmisənmi?

7. Arzu etdiyin peşənin məzmunu, əmək obyekti, predmeti, əmək şəraiti, əmək haqqı və karyera imkanları haqqında hansı məlumatların vardır?

8. Arzusunda olduğun peşəyə yiyələnmək üçün hansı işləri görür və necə fəaliyyət göstərirsən?

Əvvəlcə bu sualların üzərində düşünmək, sonra verlən cavabları nəzərdən keçirmək lazımdır.

Cavablar səmimi və dəqiq olmalıdır. Onları təhlil edərkən çox aydın şəkildə bəzi məsələləri dəqiqliyinə qədər görə biləcəksiniz: valideynlərin seçiminizə münasibəti, onların sizi necə və haralarda görmək arzusu; dostlarınızın, müəllimlərinizin sizə məsləhəti; öz gücünü, bacarıq və qabiliyyətini qiymətləndirə bilirsənmi və s.

Təbii ki, bu təhlildən sonra qarşıya yenə də bəzi suallar çıxacaq və həmin suallara da cavab axtarmaqla bir qədər də seçiminizə yaxınlaşmış olacaqsınız. Bu suallar təxminən aşağıdakı səpkidə olacağından onlara da münasib cavablar axtarmağa çalışmaq lazımdır.

1. Seçəcəyin yolda israrlısanmı, göstərdiyin peşə və ixtisası seçmək qəti qərarındırmı?

2. Alternativ variantın varmı? Əgər bu seçimin baş tutmasa başqa peşə və ixtisası seçməyi planlaşdırmısanmı?

3. Sənin fikrinlə ata-ananın və ailənin digər yaşlı üzvlərinin fikirləri üst-üstə düşür, yoxsa fərqlidir? Fərqlidirsə, nə etmək fikrindəsən?

4. Yoldaşların, rəfiqələrin və dostlarının fikri necə, sənin fikrinə uyğundurmu? Bunlara münasibətin necədir?

5. Müəllimlərin və sinif rəhbərinin məsləhət gördüyü peşə və ixtisasla sənin arzuladığın peşə və ixtisas uyğundurmu? Uyğun deyilsə, fikrin nədir?

6. Seçəcəyin peşə və ixtisas yönümündə bacarıq və qabiliyyətini sınamısanmı? Bunlar seçəcəyin əmək obyektinin tələblərinə uyğun gəlirmi?

7. Ən yüsək hesab etdiyin qabiliyyətin nədir və onu necə qiymətləndirirsən?

8. Fiziki imkanların və sağlamlıq vəziyyətin seçəcəyin peşənin tələbləri ilə uzlaşırmı?

Bu sualları cavablandırdıqdan sonra uyğunluqları və uyğunsuzluqları müəyyən etmək lazımdır. Diqqət yetirmək lazımdır. Əgər bu sadalananlar arasında uyğunluq, bir-biri ilə mütənasiblik varsa, demək seçim əladır, başqa variantları düşünməsən də olar. Yox, əgər burada çoxlu uyğunsuzluq və bir-birinə münasib olmayan hallar varsa onda yəqin ki, alternativ variantlar haqqında düşünmək lazım gələcəkdir. Eyni zamanda, peşə-ixtisas marağı ilə bacarıq və qabiliyyət, öz arzu və istəyi ilə valideynin arzusu və istəyi arasında münasibətləri götür-qoy etmək də la-

zım gələcəkdir. Burada şəxsiyyət tipinin xarakteri haqqında məlumatının olması da olduqca önəmlidir. Bunun üçün müxtəlif testlər üzərində işləməyinizi məsləhət görürük (Bax: Əlavə 1).

Nəzərə alın ki, psixoloji və pedaqoji ədəbiyyatlarda onlarla, yüzlərlə bu tipli testlər vardır. Digər kitablardan, mənbələrdən də istifadə etməklə belə testlərdən faydalanmaq olar. Burada başlıca məsələlərdən biri müraciət etdiyiniz testlərin, anketlərin diaqnostika işlərində nə dərəcədə səmərəli olub-olmadığını bilmək və onlardan düzgün istifadə etməkdir.

***Arzularını reallaşdırmağa çalış***

"Quş qanadla uçar, insan diləklə" - deyiblər. Arzu, istək, niyyət qətidirsə onu reallaşdırmaq lazımdır. Mübariz olmaq, hədəfə doğru inamla, səbrlə, dözümlə və mətanətlə irəliləmək lazımdır.

Çalışmaq lazımdır ki, seçilən peşə, sənət və ixtisas marağa uyğun olsun. Bu sahə səni maraqlandırsın və bir növ səni özünə tərəf çəkə bilsin. Belə olduqda üstün maraqlar o istiqamətdə axtarışlar aparmağa, yeni yollar axtarmağa, seçilən sahədə yeniliklər etməyə insanı cəlb edə biləcəkdir. Bu zaman müstəqil düşünmək, nə etmək lazım gəldiyini aydın görə bilmək, başqalarının təsiri altına düşmədən öz yolunu müəyyənləşdirməyə cəhd etmək olduqca vacibdir. Bir şərtlə ki, seçilmiş yolun yanlış olmadığına əminlik olsun və bilik, bacarıq və vərdişlərin inkişaf etdirilməsi üçün mövcud olan və bəzən də olması ehtimal edilən imkanlardan səmərəli istifadə edilsin. İlk uğursuzluqlar ümidsizlik yaratmasın və hədəfə doğru mübarizə da-

yandırılmasın. Belə bir maraqlı həyat hekayəsini nəzərdən keçirək:

*"Mənim on iki yaşım var idi. Arif Sağ Musiqi Evində konservatoriyaya gedirdim. Tək arzum sazda ifa edib mahnı oxumaq idi. Bir il getdim. Özümü çox xoşbəxt hiss etdiyim bir ixtisas oxuyurdum və solfecio məşqləri keçirdim. Əmrə Saltık müəllim və Arif müəllim bizə dərs deyirdi. Təəsüf ki, 13 yaşım olanda ailəmin iqtisadi vəziyyətinin yaxşı olmaması səbəbi ilə konservatoriya təhsilim yarımçıq qaldı. İçimdə çılğın bir arzu vardı, müğənni olub səhnədə mahnı ifa edəcəkdim. Amma mümkün olmadı. 14 yaşımda yəni, orta məktəbdə oxuyanda su satmağa başladım. Çünki işləməli və pul qazanmalı idim. Axşamları harasa gedirdim, mahnı ifa edirdim, oxuyurdum. Sonra özüm özümə deyirdim ki, olacaq, bax camaat əl çalır, olacaq; amma olmadı. 16-17 yaşımda disklərə mahnı yazan qardaşlarla tanış oldum və onların yanına getdim amma o iş də alınmadı. Daha sonra vokallar ifa etməyə başladım. Bununla yanaşı, orta məktəb həyatım davam edirdi, sonra universitetə daxil oldum. Ancaq səhv seçim etdiyim üçün Marmara Universitetinin tekstil ixtisasına qəbul oldum. Valideynlərim, xüsusən də atam mənə universiteti qurtar, işlə, pulunu qazan deyə təzyiq göstərirdi. Universitetdə oxuyan vaxtı müəllimlərimdən biri dedi ki, "Sən bu işin öhdəsindən gələ bilməyəcəksən, sən tekstil adamı deyilsən. Sənin insanlarla münasibətin, rəftarın çox yaxşıdır. Ona görə də sən psixologiya oxumalısan. "Mən də: - "Müəllim, valideynlərimin mənim oxumağıma sərf edəcək pulları yoxdur" - deyə söylədim. Müəllimim mənə kömək edəcəyini söylədi və məni Amerika Universitetinin qeydiyyatından keçirdi. Bu universitetin psixologiya fakültəsinin davranış elmləri ixtisasına daxil oldum. Müəlli-*

*mim: - "Mən sənə kömək edəcəm amma sən də işləyəcəksən" - dedi. Mən də: - "Necə, müəllim?" - deyə soruşdum. O da: "Bir tanışın autizmli uşağı var, sən ona qardaslıq edəcəksən, onunla məşğul olacaqsan" - dedi.*

*Dörd il o autizmli usaqla məşğul oldum. Dörd il ərzində daun sindromlu və autizmli uşaqlara baxan, onları küçələrdə gəzdirən, oynayan, onlarla qrup terapiyasına gedən, onları yedizdirən, bezlərini dəyişən qardaşları oldum. Məhəllədəki bütün dostlarım mənə: - "Sən xadiməsən, nəsən! Ancaq çirkləri təmizləyirsən, xəstə uşaqlara qulluq edirsən, deməli, onların tibb bacısından başqa bir şey deyilsən " - deyə lağa qoyurdular. Amma gördüyüm bu işlər nəticəsində mənə başqa yerlərdən qapı açıldı.*

*Mən əqli çatışmazlığı olan insanlarla işləyərkən onları müşahidə etməyə, onların dünyasına girməyə və yavaş-yavaş onlar haqqında yazıb-cızmağa başladım. Onların anaları uşaqlarının vəziyyətinə görə çox ağlayır, ataları isə evi tərk edərək övladlarını inkar edirdilər. İki il əqli qüsurlu olan uşaqların anaları ilə söhbət edib, "Bax, keçəcək. Bu uşaq Allahın sənə hədiyyəsidir, səbr et" - dedim. Və sonda o söhbətlər seminarlara çevrildi.*

*Mən müğənni olmağı unutmuşdum, artıq səhnədə mahnı ifa etmirdim. Sonra mənə dedilər ki, sən çox gözəl danışırsan ona görə də teatr təlimlərində iştirak etməlisən. Beləliklə, Müjdat Gezen Sənət Mərkəzinə girdim. İki il orada teatr təlimində iştirak etdim. Məqsədim daha yaxşı danışa bilən biri olmaq idi. Orada çox yaxşı təlimlərdən keçdim. Artıq universitet də bitmişdi. Bundan üç il əvvəl kitab yazmaq, əqli qüsurlu insanlarla işləmək, seminarlar təşkil etmək və digər perspektivlərdən danışarkən BKM-dən (Beşiktaş Mədəniyyət Mərkəzi) təklif aldım. Mənə dedilər ki, "Bax, teatr təhsilin var, insan psixologiyasını bilir-*

*sən, mahnı oxuyursan gəlib stand up şou edə bilərsən. (Stand-up teatrın çox qədim növlərindən biridir.) Mən o vaxt terapiya ilə məşğul olurdum, kitablar yazırdım. Dönüb öz-özümə dedim ki, "Allahım, mən müğənni deyiləm, amma stand-up şou edərkən mahnı oxuya bilərəm. Aktyor deyiləm, amma stand-up şou edə bilirəm  və o da teatr fəaliyyətlərindən biridir." Mən bununla yanaşı psixologiya biliyimi də buraya əlavə etdim. Artıq səkkiz il olmuşdu, amma nəhayət istədiyim nailiyyəti əldə edə bilmişdim.*

*Demək istəyirəm ki, qarşımıza məqsəd kimi qoyduğumuz işlər axırda olur. Amma siz qətiyyətli duruşunuzu pozmayın və heç vaxt məqsədlerinizdən imtina etməyin. Hətta bəziləri mənim adıma, soyadıma, insanlara olan münasibətimə, yazdığım kitab və yazılara lağ edirdi. Mənim özümü formalaşdırmağım üçün bəlkə də bunlar da lazım idi.*

*Səmimiyyət imtihanını uğurla keçməyiniz ancaq sizin qətiyyətliliyiniz ilə mümkündür, buna əminəm. Ona görədə vaz keçməyin! Vaz keç deyənlərə inad edin, vaz keçməyin!*

*Dünyanın ən pis ölkəsində doğulsanız da, ən kasıb evində və ən pis məhəlləsində yaşasanız da arzularınıza, xəyallarınıza səmimiyyətlə sarılın və heç vaxt onlardan imtina etməyin."*[3]

Mən də əminəm ki, əgər məqsədinizin üstündə möhkəm dursanız, arzunuza doğru daim hərəkətdə olsanız bütün maneələri dəf edə biləcək və tezliklə olmasa da, ona çata biləcəksiniz.

[3] Kapışmak Aşqım. Küçük Mutluluklar Kitabı. İstanbul, Baskı: Kasım 2021, səh.127-130.

Görkəmli Alman filosofu Fridrix Nitsşe yazırdı: *"Yalnız dahinin yox, ümumiyyətlə, insanın hər bir fəaliyyəti təəccüblü dərəcədə mürəkkəbdir, amma heç biri "möcüzə" deyil."* Bu da o deməkdir ki, başqa insanların, hətta dahilərin də yaratdıqları, nail olduqları müvəffəqiyyətlər ağılın, düşüncənin, zəhmətsevərliyin və məqsədə doğru "hərəkətin" nəticəsidir, möcüzə deyil. Hər bir insan özünün bacarığı, qabiliyyəti və əsası isə çalışqanlığı ilə qarşısına qoyduğu məqsədə nail ola bilər.

## PEŞƏLƏR ALƏMİ

***Kişi bir sənəti bilər xalis,***
***Çoxuna meyl edən qalar naqis.***
***S.Ə.Şirvani***

Bəzən peşə, sənət, ixtisas anlayışları danışıqda və yazılışda ya eyniləşdirilir, sinonim kimi işlədilir, ya da fərqinə varmadan hər yerdə "peşə" ifadəsi işlədilərək müəyyən təhriflərə yol verilir. Bəzən də "peşə" dedikdə ilk anlamda göz önünə "texniki-peşə", insanın ilk yiyələndiyi sənət gəlir və onun əhatə dairəsi çox kiçildilir. Belə olduqda sual yaranır: Peşə nədir, ixtisas nədir? Maraqlıdır ki, bunları bir-birindən fərqləndirmək bəzən mübahisəyə də səbəb olur. Bunlar bəzən eyni mahiyyət və məzmunda izah edilir, bəzən də tamam fərqli cəhətlərə malik anlamlar kimi izah olunur.

Azərbaycan dilinin izahlı lüğətində ***peşə*** – sənət, iş, məşğuliyyət kimi, ***ixtisas*** **–** elmin, texnikanın, sənətin, yaxud incəsənətin ayrıca sahəsi, xüsusi hazırlıq nəticəsində

əldə edilmiş bilik, sənət, peşə kimi xarakterizə edilir. Göründüyü kimi, "peşə" anlayışı daha genişdir, ixtisas peşənin nisbətən dar, daha konkret bir sahəsi üzrə olan məşğuliyyət növünü əhatə edir. Məsələn, müəllim, həkim, mühəndis peşələrdir, tarix müəllimi, kardioloq, avtomobil mühəndisi isə ixtisaslardır.

Peşə və ixtisas insanın öz həyatını davam etdirməsi, həyatda öz yerini tuta bilməsi, ailəsini maddi və mənəvi cəhətdən təmin edə bilməsi, arzu və istəklərini reallaşdırması və cəmiyyət daxilində özünü ifadə edə bilməsi üçün zəruri bir vasitədir. Peşə insana fərəh gətirməli, seçdiyi peşə sahəsində çalışmaq hər kəsə mənəvi zövq və başqalarına da fayda verməlidir.

Peşə təkcə vasitə yox, zəruri ehtiyacdır. Bu ehtiyacın təmin olunması insanı bir çox cəhətdən – həm mənəvi, həm də maddi tərəfdən təmin etmiş olur. Elə bu əhəmiyyətinə görə bütün görkəmli şəxsiyyətlər, aqil adamlar, müdriklər peşə, sənət seçməyə, insanın müəyyən bir sənətə yiyələnməsinə böyük əhəmiyyət vermiş və onu həyatda ən böyük var-dövlət hesab etmişlər. Şərqin böyük ədəbi abidələrindən biri olan "Qabusnamə" əsərində deyilir: "İnsan nə ilə məşğul olsa, o da onun peşəsi sayılar. İnsan öz sənətini yaxşı bilməlidir ki, ondan fayda götürə bilsin. ...elə bir iş və peşə tapmaq mümkün deyil ki, onda nizam-intizam olmasın. Hər peşənin öz qayda-qanunu var. Peşələr isə müxtəlif və çoxdur, bunların hamısının üsulunu bilmək lazımdır." [4]

[4] Qabusnamə. Bakı: Azərbaycan, 2014, s. 140.

Şərqin böyük əxlaq nəzəriyyəçisi Nəsrəddin Tusi elmlə əməli (iş, fəaliyyət, peşə) vəhdətdə götürür və bunları hikmətin tərkib hissələri hesab edərək əməli (peşəni) yüksək qiymətləndirir. N.Tusi yazır: *"Elm – varlığın həqiqətən necə olduqlarını düzgün təsəvvür etmək, insanın yaradıcı ağlı (nəfse-əmr) və sağlam düşüncəsi dairəsində onun xüsusiyyət və keyfiyyətlərini kəşf etməkdir. Əməl – gizli qüvvələri ortaya çıxarmaq, müxtəlif sənət və peşələrdən fayda götürmək, müxtəlif iş vərdişləri əldə etmək üçün göstərilən fəaliyyətə deyilir, bu şərtlə ki, o, bəşəriyyətin qüdrətinin artmasına, onun təkmilləşməsinə səbəb olsun."* [5]

Peşəyönümü sahəsində bir çox tədqiqatların müəllifi olan rus psixoloqu E.A.Klimov isə peşə seçməni insanın *ikinci doğuluşu* adlandırmışdır. Qeyd etmək vacibdir ki, bu "doğuluş" düzgün olduqda, seçim peşə seçən gəncin zövqünə, biliyinə, bacarıq və qabiliyyətinə, imkanlarına müvafiq gəldikdə o həmişə öz işindən, çəkdiyi zəhmətdən zövq alır. İşini sevir, onu həvəslə, zövqlə icra edir. Bu seçim düzgün aparılmadıqda isə insan həmişə özündən, öz peşə və ixtisasından narazı qalır. Ya bütün həyatı boyu bu narazılıqlar içərisində yaşayır, ya da peşə və ixtisas sahəsini dəyişmək, başqa sahələrə üz tutmaq məcburiyyətində qalır. Bi isə əlavə vaxt və vəsait itkisi, əlavə çətinliklərlə qarmşılaşmaq deməkdir.

Peşə seçiminə ciddi yanaşılmalıdır. Buna görə də o elmi şəkildə həll edilməlidir. Lakin təssüf ki, bəzi hallarda buna nail olmaq mümkün olmur.

---

[5] N.Tusi. Əxlaqi-Nasiri. Bakı: Elm, 1980, səh. 35.

Peşə və ixtisaslar çox və rəngarəngdir. İllər keçdikcə bir sıra peşələr daha mütərəqqi, peşələrlə əvəz olunur, sənayenin və iqtisadiyyatın inkişafı ilə əlaqədar olaraq yeni-yeni istehsal sahələri və bunlara müvafiq yeni peşələr, ixtisaslar yaranır, meydana gəlir. Eyni zamanda, bəzi peşələr modernləşdirilir. Bunlar da insanlardan yeni biliklər və bacarıqlar tələb edir.

Hər bir peşə, sənət və ixtisasın özünəməxsus spesifik xüsusiyyətləri və çətinlikləri olduğu kimi, cəlbediciliyi və romantikası da vardır. Əsas məsələ onu hiss etmək və ondan zövq ala bilməyi bacarmaqdır. Onda seçiminizdən də, işinizdən də razı qalacaq, bu sahədə sevə-sevə işləyəcək, çalışacaq və peşənizdən, ixtisasınızdan iftixar hissi duyacaqsınız.

Belə olanda nəinki özünüz, hətta başqaları da sizin işinizdən razı qalacaq və bu fəaliyyət sizi peşəkar və səriştəli bir mütəxəssis kimi tanıtdıracaqdır.

Buna görə də seçmək üçün peşələr aləmini araşdırmaq, onları bir növ tədqiq etmək, onların içərisindən uyğun olanı, münasibini olanı seçmək lazımdır.

Peşələr aləminin tədqiqi – şəxsi maraqlara uyğun ola biləcək peşə, ixtisas və iş haqqında məlumat toplamaq prosesidir. Bu zaman aşağıdakı suallar meydana çıxır ki, bunların üzərində düşünməyə dəyər:

1. Seçəcəyin peşə və ixtisas üzrə hansı təhsil tələb olunur?

2. Seçəcəyin peşə və ixtisas üzrə işin müsbət və mənfi cəhətləri hansılardır?

3. Kənardan baxdıqda seçmək istədiyin konkret peşə haqqında ilkin təsəvvürlərin necədir?

4. Seçmək istədiyin peşə, ixtisas və konkret iş növünün tələbləri (şəxsiyyətə
verdiyi tələblər) nələrdən ibarətdir?

5. Bu sahədə (peşə, ixtisas) çalışanların əmək haqqı nə qədərdir?

Bu suallara cavab tapmaq üçün aşağıdakı tövsiyələrə diqqət yetirilməsi məqsədəmüvafiqdir:

– peşələr haqqında, eyni zamanda seçmək istədiyin peşə haqqında çox məlumat toplamaq;

– bu peşədə işləyən insanlarla görüş və onlara müvafiq suallar vermək, məlumatlar əldə etmək;

– bu peşədə sizin məsuliyyətiniz nədən ibarət olacağını aydınlaşdırmaq;

– başqa peşə sahəsində də işləyə bilərsənmi, bu hansı peşə ola bilər;

– seçəcəyin peşədə xoşuna gələn və ya gəlməyən nələrdən ibarətdir;

– bu sahədə hansı bacarıqlar tələb olunur, bunlar səndə varmı;

– seçəcəyin peşənin gələcək perspektivlərini (imkanlarını) necə görürsünüz;

– bu peşə üzrə işləmək istəyənlərə hansı məsləhətlər verərdiniz.

Mövcud peşələr haqqında ətraflı məlumat almaq təkcə peşə seçmək üçün deyil, həm də seçiləcək peşə, onun imkanları və tələbləri haqqında məlumatların toplanması üçün olduqca zəruridir. Burada məqsəd müxtəlif

peşələr haqqında biliklərlə silahlanmaq, hər bir peşə üzrə əmək fəaliyyətinin məzmunu, peşələrin insanlara nə kimi tələblər verdiyii haqqında ətraflı elmi dəlil və sübutlara əsaslanan məlumatlar əldə etməkdir. Çünki, əvvəldə deyildiyi kimi, seçilən peşə:

– birincisi, insanda xoş hisslər yaratmalı, ona xoşbəxtlik gətirməlidir;

– ikincisi, bacarıq və qabiliyyətə uyğun olmalıdır;

– üçüncüsü, cəmiyyət və insanlar üçün faydalı, lazımlı olmalıdır.

Bunlar peşə seçmədə – «***Istəyirəm***», «***Bacarıram***», «***Lazımdır***» – kimi üç mühüm baza amillərini əlaqələndirir ki, bu əlaqə və inteqrasiyanın olması peşə seçiminin uğurlu həlli hesab olunur. Belə ki, şəxsi istək şəxsiyyətin bacarıq və qabiliyyəti ilə uzlaşmalı və bunlar elə peşə və ixtisasla əlaqəli olmalıdır ki, cəmiyyətin bu sahəyə tələbatı olsun və seçilən sahə əmək bazarının tələblərinə müvafiq gəlsin. Bunun üçün həm də ölkəmizdə və dünyada mövcud olan peşə və ixtisasların qruplar üzrə təsnifatından xəbərdar olmaq və bu qrupların nələri əsas götürməklə təsnif edildiyini bilmək lazımdır. Bu bilik həm də seçiləcək peşə və ixtisasın xarakteri, əmək şəraiti və s. haqqında müfəssəl məlumatın olması üçün vacibdir.

Ötən əsrin 70-ci illərində görkəmli psixoloq E.A.Klimov[6] əməyin dörd ünsürünü: əmək premeti, əmək məqsədi, əmək vasitələri və əmək şəraitini əsas götürməklə peşələrin aşağıdakı təsnifatını vermişdir.

[6] Климов Е.А. Путь в профессию. Л.: Лениздат, 1974.

**Əmək predmeti** üzrə peşələrin təsnifatında adamların iş prosesində qarşılıqlı əlaqədə olduğu obyektlər, yəni insanın hansı əmək predmeti ilə məşğul olması əsas götürülür və peşələr bu əsasda, yəni əməyin xarakterini nəzərə almaqla aşağıdakı beş tipə ayrılır:

***1. "İnsan – texnika"***. Bu qrupa daxil olan peşə və ixtisaslar bilavasitə maşınlarla, mexanizmlərlə, yəni texnika ilə bağlı olan peşələr və ixtisaslardır (məsələn, sürücü, mexanizator, mühəndis, maşinist və s). Əmək sahəsinə görə bu qrupun özünü də bir neçə yarımqrupa ayırmaq olar:

– qruntların, dağ süxurlarının istehsalı və emalı üzrə: qazmaçı, buldozer maşinisti, buruq qurğularının maşinisti, dağ texniki, mühəndis-geoloq və s.

– qeyri-metal sənaye materialları, məmulatları, yarımfabrikatların emalı və istifadə edilməsi üzrə: xarrat, toxucu, məşqçi-motorist, mühəndis, texnoloq və s.

– metalın istehsalı və emalı, maşınların, cihazların mexaniki yığılması və montajı üzrə peşələr: tornaçı, proqramla idarə olunan dəzgahların operatoru, alətçi çilingər, texnik-metallurq, yarımavtomat maşınlarda elektrik qaynaqçısı və s.

–texnoloji maşınların, dəzgahların, nəqliyyat vasitələrinin təmiri, sazlanması və onlara xidmət üzrə peşələr: təmirçi-çilingər, texnoloji avadanlıq sazlayıcısı, mühəndis-mexanik və s.

– binaların, qurğuların, konstruksiyaların təmiri və montajı üzrə peşələr: gəmi elektrik montajçısı, radio aparatları və cihazları montajçısı, mikrosxemyığan, saat ustası, fizik və s.

– elektrik avadanlığı, cihaz və aparatların təmiri, sazlanması üzrə peşələr: radio və televiziya təmiri ustası (radiomexanik), elektrik çilingəri, proqramla idarə olunan dəzgahların sazlayıcısı, elektrik rabitə texniki, radiofizik və s.

– qaldırıcı nəqliyyat vasitələrinin istismarı və idarə olunması ilə əlaqədar peşələr: avtomobil sürücüsü, mülki aviasiya pilotu, avtomexanik, və s.

– kənd təsərrüfatı məhsullarının yenidən emalı üzrə peşələr: aşpaz, qənnadçı, şirniyyatçı, qida texnoloqu, çörəkbişirən və s.

***2. "İnsan – insan"***. Bu qrupa daxil olan peşə və ixtisaslar elə peşə və ixtisaslardır ki, həmin peşə və ixtisas sahibləri bilavasitə insanlarla və ya insan qrupları ilə məşğul olurlar. Onların əmək predmeti əsasən insanlardır (məsələn, müəllim, həkim, aktyor, psixoloq, palitoloq və s). Bu qrupun özünü də istiqamətinə görə bir neçə yarımqrupa ayırmaq olar:

– insanların təlimi və tərbiyəsi, uşaq kollektivlərinin təşkili ilə əlaqədar olanlar: tərbiyəçi-müəllim, müəllim, istehsalat təlimi ustası, həkim və s.;

– iqtisadiyyatın idarə edilməsi, insanlara, kollektivə rəhbərlik və s. ilə əlaqədar olanlar: biznesmen, menecer, dispetçer, istehsalatın təşkili üzrə mühəndis-iqtisadçı və s.;

– məişət, ticarət xidməti ilə əlaqədar olanlar: marketoloq, satıcı, anbardar və s.

– məlumat xidməti ilə əlaqədar: qaynar xətt operatoru, bələdçi və s.

– tibbi xidmətlə əlaqədar: həkim, feldşer, tibb bacısı və s.

***3. "İnsan – təbiət"***(torpaq, su). Bu qrupa daxil olan peşə və ixtisas sahibləri əsasən təbiətlə qarşılıqlı əlaqədə olurlar. Bu peşə qrupu özü də iki yerə – "İnsan–canlı təbiət" (məsələn, ekoloq, aqronom, zooloq və s.) və "İnsan – cansız təbiət" (məsələn, metroloq, astpoloq və s.) qruplarına ayrılır.

"İnsan – təbiət" tipindən olan peşələr arasında əmək predmeti canlı təbiət olanlardan bitkilərlə bağlı olan peşələri, əmək predmeti heyvanlarla bağlı olan peşələri, əmək əşyası mikroorqanizmlərlə bağlı olan peşələri ayırmaq olar.

***4. "İnsan – işarələr sistemi"***. Bu qrupa elə peşə və ixtisaslar daxil edilir ki, burada insanlar müəyyən işarələr sistemi və ya şərti işarələrlə məşğul olurlar (məsələn, ana dili və ya xarici dillərdə sənədlərin tərtibi, proqramçı, etnoqraf, tərcüməçi, çertyojçu, redaktor, korrektor, kargüzarlıq, operator və s. Bu qrupun özünü də istiqamətinə görə bir neçə yarımqrupa ayırmaq olar:

– əmək predmeti rəqəmdən, kəmiyyət münasibətlərindən ibarət olan peşələr: proqramçı, EHM operatoru, nəzarətçi-kassir, mühasib, kartoqraf və s.

– şərti işarələr sistemi, obyektlərin təsviri şəklində olan informasiyaların işlənməsi ilə əlaqədar peşələr: çertyojçu, tipoqraf, texnik-geodezist, mühəndis və s.

***5. "İnsan – bədii obraz"***. Bu qrupa daxil olan peşə və ixtisasların sahibləri bədii obrazlarla, ədəbiyyat və incəsənət əsərləri ilə məşğul olurlar. Rəssam, aktyor, heykəltə-

raş, yazıçı, bəstəkar və s. peşələri bu qrupa nümunə göstərmək olar. Bu qrupun özünü də istiqamətinə görə bir neçə yarımqrupa ayırmaq olar:

– təsviri fəaliyyətlə əlaqədar peşələr: dizayner, dekorativ mebel istehsalı üzrə xarrat, daş üzərində oymaçı-nəqqaş, konstruktor, rəssam-qrafik və s.

– musiqi fəaliyyəti ilə əlaqədar peşələr: bəstəkar, ifaçı və s.

– ədəbi-bədii fəaliyyətlə əlaqədar peşələr: bədii ədəbiyyat redaktoru, ədəbi işçi və s.

– aktyor-səhnə fəaliyyəti ilə əlaqədar peşələr: teatr artisti, estrada artisti və s.

**Əməyin məqsədinə** görə təsnifatda əməyin hansı məqsəd daşıması əsas götürülür və bu qrup özü də üç növə bölünür: *idrakı, dəyişdirici və axtarıcı.*

***İdrakı məqsəd*** daşıyan qrupa elə peşə və ixtisaslar daxil edilir ki, burada əsas yeri idrak prosesi, diqqətlilik, müşahidəçilik qabiliyyətləri tutur. Bura həm əqli əmək sahəsini, məsələn məhkəmə - tibb eksperti, sosioloq, teatrşünas və s.kimi peşə və ixtisasları, həm də maddi istehsalla bağlı olan sahələri aid etmək olar. Məsələn, nəzarətçilər, çeşidləyicilər, ekspertlər, müfəttişlər və s. Bura aid peşələr işçinin qarşısında müəyyən tələblər qoyur: kifayət qədər aydın nəzərə çarpan dərketmə fəallığı; müşahidəçilik; yüksək iş qabiliyyəti; güclü diqqət, yaddaş, düşüncə və s. Məhsulun keyfiyyətinə nəzarət, obyektlərin qiymətləndirilməsi şəraiti digər şəxslərə münasibətdə gərginlik yaradırsa, möhkəm mövqe tutmaq, nəticə çıxararkən obyektivlik və prinsipiallıq göstərmək lazım gəlir.

***Dəyişdirici peşələr*** elə peşələrdir ki, bu peşə sahibləri öz fəaliyyətlərində dəyişdirici praktik işlərlə məşğul olurlar. İnsan fəaliyyətinin əsas xarakterik məzmunu əməyin məqsədidir. Əməyin məqsədinin müxtəlif olmasına baxmayaraq, onları üç böyük qrupda birləşdirmək mümkündür: öyrənmək, yaratmaq (yenidən yaratmaq), fikirləşib tapmaq. Bu peşələrin böyük əksəriyyəti əmək əşyalarının dəyişməsi ilə əlaqədardır. Dəyişdirici peşələrə inşaatçılar, texniklər, aqronom, zoomühəndis; çilingər, müəllim, təlimçi, ekskursiya rəhbəri, rəssam, naxış ustası və s. aid etmək olar.

***Axtarıcı*** qrupa daxil olan peşələr və ixtisaslarda əməyin məqsədi məhz axtarıcılıq, fikirləşmək, axtarıb-tapmaq, işə yaradıcı yanaşmadır. Buna geoloq, bioloq, tədqiqatçı, mühəndis-konstruktor, proqramçı, riyaziyyatçı və s. peşə və ixtisasları aid etmək olar. Bu sahəyə daxil olan peşə və ixtisaslarda əməyin əsas məqsədi naməlum bir şeyi, həm də əsasən məhdud vaxt şəraitində axtarmaq və tapmaqdır.

**Əmək vasitələrinə** görə peşələr özləri də dörd yarımqrupda təsnif edilirlər:

***1) əl əməyinin icrası ilə bağlı olan peşələr.*** Bu yarımqrupa daxil edilən peşələrdə əl əməyindən və əməyin mexanikləşdirilmiş alətlərindən istifadə edilir;

**2)** ***əl ilə idarə edilən maşınlardan istifadə ilə əlaqədar olan peşələr.*** Bu yarımqrupa daxil olan peşələr ixtisas tələb edir və bu peşə adamlarından təkcə texnoloji biliklər deyil, həm də əl əməyi bacarıqları, gözlənilməz siqnal və hadisələrə hazır olmaq vərdişləri tələb olunur;

**3)** ***avtomatlaşdırılmış və avtomat sistem və aparatların icrası ilə əlaqədar olan peşələr.*** Bu yarımqrupa daxil olan peşələr istehsalatın avtomatlaşdırılması dərəcəsindən asılı olaraq müxtəlif hazırlıqlı ixtisasçı mütəxəssislər tələb edir;

**4)** ***əmək alətləri funksional vasitələr olan peşələr.*** Bura daxil olan peşələrdə əmək aləti kimi fuksional hərəkət vasitələri və insanın nitqi, mimikası, sözü, emosional intonasiyası, jesti və s. əsas rol oynayır. Bu yarımqrupa daxil olan peşə sahiblərindən nəzarət və özünənəzarət bacarıqları, bir çox qaydaları yadda saxlaya bilmək qabiliyyəti tələb olunur.

**Əmək şəraitinə** görə peşələr dörd qrupa bölünür:

*1) adi mikroiqlim şəraitində olan peşələr;*

*2) temperaturun və iqlim şəraitinin birdən-birə dəyişilə biləcəyi qeyri-adi əmək şəraitində olan peşələr;*

*3) qeyri-adi şəraitdə, məsələn, yer altında, su altında, yüksəklikdə, açıq havada və s. olan peşələr;*

*4) insanın həyatı, sağlamlığı, mənəvi keyfiyyətlərinin yüksəldilməsi və maddi məsuliyyətlə bağlı olan peşələr.*

Bunlarla yanaşı, peşələr əməyin müxtəlifliyi və genişliyi üzrə də müxtəlif növlərə bölünür: *universal, qismən ixtisaslaşmış və dar ixtisaslaşmış.*

***Universal*** peşə sahibləri müxtəlif istehsalat sahələrində işləyə bilir və bir neçə iş növünü yerinə yetirə bilir.

***Qismən ixtisaslaşmış*** peşə sahibi bir peşə sahəsində, bir sahə üzrə olan alətlərlə və müəyyənləşdirilmiş bir iş növünü yerinə yetirir.

***Dar ixtisaslaşmış*** peşə sahibi isə ümumi məhsul hazırlığı prosesində bir neçə əməliyyatı yerinə yetirir.

Lakin nəzərə almaq lazımdır ki, bu təsnifatı mütləq bölgü kimi qəbul etmək olmaz. Çünki, peşələrin əksəriyyəti öz xarakterinə görə elə səciyyəvi xüsusiyyətlərə malikdir ki, onların predimeti bəzən bir deyil, bir neçə sahəni əhatə edir. Məsələn, bitkiçilə məşğul olan adam kollektivdə işləyir, müxtəlif texnikadan istifadə edir, bəzən öz əməyini iqtisadi cəhətdən qiymətləndirmək, hesaba almaq işləri ilə məşğul olur. Lakin onların əsas diqqəti və qayğısı yenə mühüm əşya sayılan bitkilər və onların yaşadıqları mühitdir.

Buna görə də əksər peşə və ixtisasları konkret olaraq bir əmək sahəsinə aid etmək mümkün deyildir. Bunlara baxmayaraq, peşə, sənət və ixtisas seçimində sərbəstliyə nail olmaq üçün bu təsnifat haqqında müəyyən məlumata malik olmaq olduqca vacibdir. Hər bir gənc oğlan və qız seçəcəyi peşənin əmək predmeti və vasitələri, heç də az əhəmiyyət kəsb etməyən əmək şəraiti haqqında müfəssəl məlumata malik olmalıdır. Yaddan çıxarmayın ki, bu sahələrin hər birinin peşə seçmək istəyənlərə fərdi tələbləri vardır. Məsələn, elə son dövrlər gənclərimizdə dərin maraq oyadan ***psixoloq*** peşəsini götürək. Psixoloqlar insanlarla daim təmasda olduqlarından ilk növbədə onların taktiki danışıq tərzi, inandırıcı, təlqinedici nitq qabiliyyəti olmalıdır. Analitik təfəkkürə malik olmalı, kommunikativ ünsiyyətin demokratik tərzinə yiyələnməlidir. Görmə, eşitmə və əsəbilik problemləri olmamalıdır. Həmçinin,

məsuliyyətli olmalı, dərin müşahidəçilik qabiliyyətinə yiyələnməli, məntiqli və obrazlı yaddaşa malik olmalıdır.

Peşə seçmək heç də dəbə uyğun hər hansı bir geyim əşyası seçmək deyildir. Burada dəb, moda, zahiri parlaqlıq, az əmək sərf etməklə çox pul qazanmaq kimi mənfi meyllər və motivlər sonda seçimin düzgün olmadığını üzə çıxarır və nəticə etibarı ilə özünü doğrultmur. Buna görə də seçiləcək peşə yaxşı öyrənilməli, qəti qərar yalnız onun haqqında müfəssəl məlumatlar toplandıqdan sonra verilməlidir.

***Peşənin, sənətin pisi yoxdur***

Bəs hansı peşəni, hansı ixtisası seçmək ki, daha böyük uğurlara imza atmaq

mümkün olsun? Burada da sizin düzgün qərar qəbul edə bilməyiniz, yolunuzu özünüzün bilik, bacarıqlarınıza uyğun seçə bilməyiniz mühümdür. Belə bir deyim vardır ki, pis peşə yoxdur, onu yaxşı edən də, pis edən də onun sahibləridir. Dahi N.Gəncəvinin təsvir etdiyi öz işini kamil bilən bir palançının yarımçıq papaqçıdan daha hörmətli, daha yaxşı və daha üstün olmasının da səbəbi budur. Buna görə də hansı peşə və ixtisas seçiləcəksə, onun bütün incəliklərinə yiyələnmək lazımdır. Onda görəcəksiniz ki, bütün peşələr yaxşıdır. Görkəmli Azərbaycan şairi Əvhədi Marağayinin "Cami-Cəm" əsərində dediyi kkimi:

*O kəsin peşəsi yaxşıdır gerçək,*
*Ondan incik düşmür əsla bir ürək.*

Seçim sərbəstdir və hamısı da yaxşıdır. Hamısında da insanın şəxsi keyfiyyətləri mühüm əhəmiyyət kəsb edir. İş prosesində yaxşı əhvali-ruhiyyənin olması, işini

sevmək, işinə məsuliyyət, daim öz bacarıq və qabiliyyətini təkmilləşdirməyə çalışması – bütün bunlar öz nəticəsini hökmən göstərəcəkdir!

## PEŞƏ VƏ IXTISAS TƏLƏBLƏRI

*Təkcə insan peşəni seçmir,*
*peşə də insanı "seçir"*

Hər bir peşə və ixtisasın özünəməxsus əmək sahələri, bu sahələrin də hər birinin özünəməxsus fəaliyyət növləri, əməyin məzmunu və xarakteri vardır. Bəzən peşə və ixtisas seçilir, lakin yeniyetmə və gənc seçdiyi sahədə əməyinin məzmununun nələrdən ibarət olacağı, hətta bəzən təhsil aldıqdan sonra hansı sahələrdə işləyə biləcəyi, nə işlər görəcəyi haqqında geniş təsəvvürə malik olmur. Bu məlumatsızlıq və informasiya azlığı seçilən peşə və ixtisasın əmək sferası, kariyera imkanları, peşə seçən şəxslərə verilən tələblər və s. nələrdən ibarət olduğunu aydınlaşdırmaq imkanlarını məhdudlaşdırır ki, bu da peşə və ixtisas seçimində müəyyən uğursuzluqların yaranmasına səbəb olur.

Ayrı-ayrı peşə və ixtisaslara xas olan əməyin məzmunu, əmək və iş şəraiti, zəruri bilik, bacarıq və vərdişlər, tibbi əks göstəricinin nələrdən ibarət olması və s. problemlər heç də passiv xarakter daşımır. Onlar həmin sahələr üzrə peşə, ixtisas seçən şəxslərə qarşı bir sıra tələblər irəli sürür ki, bu tələblərin də nələrdən ibarət olması, onların məzmunu və xarakterinin nəzərə alınması peşə seçimində ol-

duqca mühüm əhəmiyyət kəsb edir. Bu tələbləri nəzərə almadan aparılan peşə seçimi isə heç də uğurlu nəticələr vəd etmir.

Peşə seçimi ikitərəfli prosesdir. İnsanlar peşələri seçdiyi kimi, peşələr də insanları seçir. Belə ki, peşə seçən gəncin psixofizioloji xüsusiyyətləri bu peşə və ixtisasın insanlara verdiyi tələblərə uyğun gəlmədikdə, göstəricilər bir-birinə əks olduqda bir çox problemlər meydana çıxır ki, bu da həmin peşənin onu seçmək istəyən şəxsi "seçməməsi" anlamını yaradır. Məhz buna görə də seçim ərəfəsində şəxsiyyətin psixofizioloji xüsusiyyətinin dənəzərə alınması, onun seçiləcək peşə və ixtisasın tələblərinə müvafiq olub-olmaması dərindən araşdırılmalıdır. Belə bir uyğunluğun olması peşə seçimində uğurlu başlanğıc kimi özünü göstərdiyindən ona xüsusi diqqət verilməlidir. Buna görə də hər bir yeniyetmə və gənc, onların valideynləri və müəllimləri sonradan müəyyən problemlərlə üzləşməmək üçün seçim prosesində bu amilə ciddi yanaşmalıdırlar.

Peşə seçimi probleminin bu xüsusiyyətini nəzərə alaraq hər bir peşə qrupu üzrə populyar olan bir neçə peşə və ixtisasın qısa xarakteristikasını və onların ixtisas tələblərini nəzərdən keçirək.

***İbtidai sinif müəllimliyi*** *ixtisası:*

İbtidai sinif müəllimliyi ixtisası *əmək predmetinə görə* **"İnsan-İnsan"** peşələr qrupuna daxildir.

*İbtidai sinif müəlliminin əməyinin məzmununa* aşağıdakılar daxildir:

– kiçik yaşlı (6 -10 yaşlı) şagirdlərin təlimini, təhsilini və tərbiyəsini həyata keçirir;

– uşaq şəxsiyyətinin formalaşmasını, şəxsiyyətin ümumi mədəniyyətini və sosiallaşmasını təmin edir;

– dövlət təhsil standartları çərçivəsində dövlət təhsil proqramını həyata keçirir;

– təlim və tərbiyənin müasir forma, metod və vasitələrindən istifadə etməklə şagirdləri milli və ümumbəşəri dəyərlərlə silahlandırır;

– ixtisası üzrə müxtəlif elmi-tədqiqat və metodik işlər aparır.

*İbtidai sinif müəlliminin əmək şəraiti və iş yeri:*

Normal həyat şəraitinə malik, zəruri avadanlıq və vəsaitlərlə təmin olunmuş, yüksək estetik tərtibatı olan məktəb və sinif otağı.

*İbtidai sinif müəllimi bilməlidir:*

– Təhsil haqqında Azərbaycan Respublikasının Qanununu;

– ümumtəhsil məktəbi haqqında Əsasnaməni:

–ibtidai təhsil pedaqogikası, ümumi psixologiya, yaş və pedaqoji psixologiya fənlərini;

– uşaq anatomiyası və fiziologiyasını;

– canlı və cansız təbiətə aid olan fənləri;

– ibtidai sinif proqramlarını və dərsliklərini;

– respublikamızda və dünyanın bir sıra qabaqcıl ölkələrində elmin və təhsilin inkişaf istiqamətlərini;

– uşaq ədəbiyyatını.

*İbtidai sinif müəllimi bacarmalıdır:*

– uşaq kollektivini təşkil etməyi və ona rəhbərliyin metodlarını;

– şagirdlərlə rəngarəng təlim və tərbiyə işləri aparmağı;

– valideynlərlə müxtəlif forma və məzmunda söhbətlər apara bilməyi;

– nəzəri bilikləri praktikaya tətbiq etməyi;

– şagirdlərin və onların valideynlərinin hörmət və məhəbbətini qazanmağı;

– gözlənilməz situasiyalarda tez və düzgün qərar qəbul edə bilməyi.

*İbtidai sinif müəllimi yiyələnməlidir:*

– müasir təlim və tərbiyə texnologiyalarına;

–Azərbaycan ədəbi dil normalarına;

– aktyorluq və rejissorluq qabiliyyətlərinə;

– emosional və gözəl nitq qabiliyyətinə;

– pedaqogika və psixologiya elmlərinin son naliyyətlərinə;

– didaktik, təşkilatçılıq, kommunikativ, perseptiv və digər pedaqoji-psixoloji qabiliyyətlərə.

*İbtidai sinif müəllimi üçün zəruri peşə keyfiyyətləri:*

– humanistlik;

– diqqətlilik;

– emosionallıq;

– kommunikativlik və təşkilatçılıq;

– yumor hissinə malik olmaq;

– tələbkarlıq və obyektivlik;

– dözümlülük;

– nikbinlik.

*İbtidai sinif müəlliminə ixtisas tələbləri:*

Pedaqoji institut və universitetlərin pedaqoji fakültələrində, müəllimlər institutunda, pedaqoji kolleclərdə ali və ya orta ixtisas təhsilinə yiyələnmək.

*İbtidai sinif müəlliləri üçün tibbi əksgöstərici:*

– qüsurlu nitq;

– hövsələsizlik;

– müxtəlif əsəb, infeksion və dəri xəstəliklərinin olması;

– görmə və eşitmədə zəiflik;

– əl, qol, hərəkət və dayaq sistemində ciddi qüsurlar.

**Dövlət yol polisi** ixtisası:

Dövlət yol polisi ixtisası *əmək predmetimə görə* **"İnsan-İnsan"** peşələr qrupuna daxildir.

*Dövlət yol polisi əməyinin məzmunua* aşağıdakılar daxildir:

– yol hərəkəti qaydalarının düzgün yerinə yetirilməsi üzərində nəzarəti həyata keçirir;

– nəqliyyat və piyadaların küçə hərəkətlərini nizamlayır;

– yol-nəqliyyat hadisələrində sürücülərə, sərnişinlərə, piyadalara və zərərçəkənlərə kömək göstərir.

*Dövlət yol polisnin əmək şəraiti və iş yeri:*

İlin bütün fəsillərində, hər cür hava şəraitində açıq hava və yollar.

*Dövlət yol polisi bilməlidir:*

– yol hərəkəti normativlərini və qaydalarını;

– hərəkətin təhlükəsizliyinin təmin olunması qaydalarını;

–hərəkət vasitələrinin konstruksiyasını və texniki vəziyyətini.

*Dövlət yol polisi bacarmalıdır:*

– nəqliyyat vasitələrini idarə etməyi;

– müxtəlif xarakterli və temperamentli insanlarla ünsiyyət yaratmağı;

– ekstermal situasiyalarda tez qərar qəbul edə bilməyi.

*Dövlət yol polisi yiyələnməlidir:*

– yüksək fiziki hazırlığa;

– diqqəti bir neçə obyekt üzərinə paylaya bilmək qabiliyyətinə;

– güclü yaddaşa.

*Dövlət yol polisinin zəruri peşə keyfiyyətləri:*

– güclü fiziki hazırlıq;

– hadisə və proseslərə tez reaksiya verə bilmək:

– cəldlik;

– çeviklik;

– diqqəti bir neçə obyekt üzərinə paylaya bilmək;

– soyuqqanlılıq;

– görmə yaddaşına malik olmaq.

*Dövlət yol polisinə ixtisas tələbləri:*

Polis Akademiyasında və ya müvafiq kolleclərdə ali və orta ixtisas təhsili almaq.

*Tibbi əks göstərici:*

– fiziki zəiflik;

– boyun kiçik olması;

– görmə və eşitmə orqanlarının zəif olması;

– əsəbilik və psixi xəstəlik;

– hafizə və yaddaşın qeyri-mütəşəkkilliyi.

**Menecer** ixtisası

Menecer ixtisası *əmək predmetimə görə* **"İnsan-İnsan"** peşələr qrupuna daxildir.

*Menecer əməyinin məzmunu* aşağıdakılardan ibarətdir:

– istehsalatın və kommersiya fəaliyyətinin təşkili;

– xarici və daxili ticarət əməliyyatlarının təşkili;

– kommersiya danışıqlarının aparılması;

– marketinqlə məşğul olmaq;

– ticarət rəqabətinin strategiya və taktikasını hazırlamaq.

*Menecer bilməlidir:*

– əmək qanunvericiliyini;

– kommersiya danışıqlarının aparılması texnikasını;

– kommersiya fəaliyyətinin təlimatlarını, qanunvericiliyini və əsasnaməsini;

– istehsalatın təşkili mexanizmini;

– kredit və bank işini;

– marketiq işini.

*Menecer bacarmalıdır:*

– yaxşı təşkilatçı olmağı;

– işgüzar əlaqələr yaratmağı;

– diqqətli və həssas olmağı;

– tez qərar qəbul edə bilməyi.

*Menecer yiyələnməlidir:*

– yüksək təşkilatçılıq bacarığına;

– riyazi və məntiqi təfəkkürə;

– ünsiyyət bacarığına;

– inandırıcı nitqə.

*Menecerin zəruri peşə keyfiyyətləri:*

– kommunukativ və təşkilatçılıq bacarıqlarının yaxşı inkişaf etməsi;

– möhkəm yaddaş;

– məsuliyyətlilik;

– məntiqi düşüncə tərzi;

– tez qərar qəbul edə bilmək;

– fikri dəqiq ifadə edə bilmək.

*Menecerin ixtisas tələbləri:*

Ali məktəblərin müvafiq fakültələri.

*Tibbi əks göstərici:*

– əsəb sisteminin ciddi xəstəliyi;

– görmə və eşitmə orqanlarının xəstəliyi.

**Mühəndis texnoloq** ixtisası:

Mühəndis texnoloq ixtisası əmək predimetinə görə **"Insan-texnika"** peşələr qrupuna daxildir.

*Mühəndis texnoloqun əməyinin məzmunu aşağıdakılardan ibarətdir:*

– müəssisələrin istehsal etdiyi məhsulların texnologiyasını hazırlayır və tətbiq edir;

– texnoloji əməliyyatların icrası qaydalarını hazırlayır;

– məhsulun keyfiyyətinə nəzarətin əsas metodlarını müəyyənləşdirir;

– texniki sənədləşmələr aparır;

–eksperimental işlərin aparılmasında və istehsalın keyfiyyətinin yüksəldilməsi üzrə təşkilati-texniki tədbirlərdə iştirak edir.

*Mühəndis texnoloq bilməlidir:*

–istehsalatda texnoloji hazırlıq üzrə normativ və metodik materialları;

– məhsul istehsalının texnologiyasını və texniki xarakterini;

– analoji texnologiyaların texniki xarakterini və iqtisadi göstəricilərini;

–fizika, kimya, texniki mexanika, o cümlədən psixologiya, sosiologiya elmlərini, əmək qanunvericiliyini və s.

*Mühəndis texnoloq bacarmalıdır:*

– texnoloji bilikləri tətbiq etməyi;

– texnoloji avadanlıqlardan istifadə etməyi;

– səmərələşdirici təkliflər verməyi;

– texnoloji əməliyyatların icra qaydalarını hazırlamağı və onların üzərində nəzarət etməyi;

– texnoloji əməliyyatların sənədlərini hazırlamağı və s.

*Mühəndis texnoloq yiyələnməlidir:*

– yüksək texnoloji biliyə;

– bilikləri tətbiq edə bilmə bacarıqlarına;

– analitik və texniki təfəkkürə;

– iqtisadi biliklərə;

– kollektivdə işləyə bilmək səriştəsinə və s.

*Mühəndis texnoloq üçün zəruri peşə keyfiyyətləri:*

– məntiqi təfəkkür;

– analitik bacarıqlar;

– müstəqillik;

– möhkəm xarakter;

– təşkilatçılıq bacarığı;

–kommunikativ bacarıqlar və s.

*İxtisas tələbləri:*

– ali təhsilə malik olmaq.

*Tibbi əks göstərici:*

– əsəb sisteminin xəstəliyi;

– psixi xəstəlik;

– hipertonik xəstəlik.

**Vergi müfəttişi** peşəsi:

Vergi müfəttişi ixtisası əmək predimetinə görə **"İnsan-işarələr sistemi"** peşələr qrupuna daxildir.

*Vergi müfəttişi əməyinin məzmunu aşağıdakılardan ibarətdir:*

– vergi qanunvericiliyinə nəzarəti həyata keçirir;

– vergi və digər ödənişlərin büdcəyə daxil olmasına nəzarət edir;

– pul sənədlərini yoxlayır;

– mühasibat sənədlərini – kitabları, hesabatları, smetanı və digər sənədləri yoxlayır;

– yoxlama nəticələrini təhlil edir, qayda pozğunluqlarını aşkara çıxarır, qayda pozanlara maliyyə sanksiyaları tətbiq edir.

*Vergi müfəttişi bilməlidir:*

– vergi qanunvericiliyinin əsaslarını;

– mühasibat uçotu və hesabatların bütün növlərini və formalarını;

– hesabatların hazırlanması metodikasını;

– arbitraj fəaliyyətinin prinsirlərini.

*Vergi müfəttişi bacarmalıdır:*

– nəzarətin müxtəlif forma və metodlarla həyata keçirilməsini;

– istehsalçı və  istehlakçıları vergi qanunvericiliyinə tabe etdirməyi;

– vergi qanunvericiliyinin pozulmasının qarşısının alınmasını;

– insanları inandırmağı;

– obyektiv olmağı və dövlət qanunvericiliyini üstün tutmağı və s.

*Vergi müfəttişi yiyələnməlidir:*

– vergi qnunvericiliyinin prinsip, forma və metodlarının əsaslarına aid biliklərə və bacarıqlara;

– inandırıcı nitqə, arqument və dəlillər gətirməyə;

– dövlət qanunvericiliyini qorumaq vərdişlərinə;

– analitik təfəkkürə və çevik ağıla.

*Vergi müfəttişninin zəruri peşə keyfiyyətləri:*

– analitik təfəkkür;

– diqqəti bir neçə obyekt üzərində paylaya bilmək;

– emosional- hissi davamlılıq;

– vicdanlılıq;

– düzgünlük;

– kommunukativ bacarıqlar.

*İxtisas tələbləri:*

– maliyyə-iqtisad yönümlü ali məktəblərdə təhsil almaq.

*Tibbi əks göstərici:*

– görmə orqanlarının pozulması;

– əsəbi və psixi xəstəliklər;

– ürək-damar xəstəlikləri.

**Fotoqraf peşəsi.**

Fotoqraf peşəsi **"İnsan-bədii obraz"** peşələr qrupuna daxildir.

*Fotoqraf əməyinin məzmunu aşağıdakılardan ibarətdir:*

– fərdi portretlərin fotoçəkilişini aparır;

– kiçik qrupların studiyada və ondan xaricdə fotoçəkilişini həyata keçirir;

– vacib obyektlərdə qapalı və açıq şəraitdə texnoloji çəkilişlər aparır;

– panoram çəkilişlər aparır;
– işıqlandırma variantlarının seçilməsini həyata keçirir.

*Fotoqraf bilməlidir:*

– fotoşəkil çəkməyin texnikasını;
– işıqlandırmanın əsas sxemini;
– aşkarlayıcı və möhkəmləndirici maddələrin təyinatını;
– fotomaterialların xüsusiyyətlərini;
– işıqlandırmanı və s.

*Fotoqraf bacarmalıdır:*

– müxtəlif fotoaparatlarla işləməyi;
– müasir fototexnika ilə işləməyi;
– retuş və fotoşop etməyi;
– fotoçəkiliş üçün münasib şərait seçməyi;
– fotoplyonkaları aşkarlamağı və fotoşəkil çıxarmağı və s.

*Fotoqraf yiyələnməlidir:*

– fotoqrafiya biliklərinə;
– şəkil çəkmək və çıxarmaq bacarığına;
– obyektləri düzgün seçə bilmək bacarıqlarına vəs.

*Fotoqrafın zəruri peşə keyfiyyətləri:*

– bədii zövq;
– diqqətlilik;
– hövsələ;
– işıq hissiyyatı;
– yaxşı görmə qabiliyyəti.

*İxtisas tələbləri:*

– texniki peşə məktəblərində və ya liseylərində fotoqraf təhsili almaq.

*Tibbi əks göstərici:*

–zəif görmə;

– işıq hissiyyatının pozulması.

**Ekoloq ixtisası:**

Ekoloq ixtisası **"İnsan-təbiət"** peşələr qrupuna daxildir.

*Ekoloq əməyinin məzmunu aşağıdakılardan ibarətdir:*

– təbii və insanlar tərəfindən yaradılan bioloji sistemlərin strukturunu və funksiyalarını öyrənmək;

– ekoloji maarifləndirmə;

– ətraf aləmin qorunması üzrə tədbirlərin hazırlanması;

– canlı obyektlərə təsir edən vasitələrinin tədqiq edilməsi;

– yaşıl aləmə təsir edən istehsalat tullantılarının təsirinin öyrənilməsi.

*Ekoloq bilməlidir:*

– təbiəti mühafizə haqqında qanunvericiliyin əsaslarını;

– genetikanın əsaslarını, insan və bitki fiziologiyasını;

– hidrologiya və toxumçuluğu;

– ekoloji işlər üzrə dünya təcrübəsini.

*Ekoloq bacrmalıdır:*

– ekoloji maarifləndirmə işlərinin aparılmasını;

– təbiəti qorumağın müxtəlif metodlarından istifadə etməyi;

– canlı aləmə mənfi təsir edən vasitələrin aradan qaldırılmasına nail olmağı;

– insan və canlı aləm arasında ekoloji tarazlığın yaradılması üzrə müxtəlif vasitələrdən istifadə etməyi və s.

*Ekoloq yiyələnməlidir:*

– ekoloji biliklərə;

– ekoloji bilikləri tətbiq edə bilmək bacarıqlarına;

– ekoloji tərbiyə, maarifləndirmə işlərinin müxtəlif forma və metodlarına;

– ekoloji tarazlığın qorunması üzrə qlobal təcrübələrə;

– yaşıllıqları qorumaq və artırmağın kompleks həlli yollarına və s.

*Ekoloqun zəruri peşə keyfiyyətləri:*

– analitik təfəkkür;

– müşahidəçilik;

– təbiətə vurğunluq;

– təşkilatçılıq və daxili intizam;

– vətəndaşlıq qeyrəti;

– yaddaşın uzunmüddətliliyi.

*İxtisas tələbləri:*

– Universitetlərin biologiya, ekologiya və ya texnologiya fakültələrini bitirmək.

*Tibbi əks göstərici:*

– dəri və ya allergik xəstəliklər;

– hərəkət-dayaq aparatının funksiyalarının pozulması;

– fiziki zəiflik.

Əziz dostlar, biz burada peşə və ixtisasların yalnız bir neçəsinin spesifik xüsusiyyətləri haqqında əsas məlumatları verə bildik. Xatırladaq ki, mövcud peşə və ixtisasların hamısının özünəməxsus məzmun standartları, şəxsiyyətə verdiyi əqli, intellektual və ixtisas tələbləri, özünəməxsus əks göstəriciləri və s. vardır. Bunları ümumiləşdirərək qrup halında aşağıdakı kimi təsnif etmək olar:

*1. Ümumvətəndaş keyfiyyətləri.* Bu keyfiyyət ona istiqamətlənir ki, harada olursan ol, kim olursansa ol, Azərbaycan Respublikasının vətəndaşı, bir əsgər kimi on milyonluq "şəxsi heyətin bir üzvü" olduğunu, Azərbaycan Respublikasına xidmət etdiyini unutmamalısan. Vətəndaşa məxsus bütün müsbət keyfiyyətləri öz fəaliyyətində doğrultmağı, nümayiş etdirməyi özündə tərbiyə etməlisən.

*2. Hər bir peşə və ixtisasın spesifik xüsusiyyətlərini müəyyənləşdirən, göstərən və özündə əks etdirən keyfiyyyətlər.* Bu keyfiyyətlər məhz fəaliyyətdə olan hər hansı bir peşə, sənət və ixtisasın öözünəməxsus spesifikliyini müəyyənləşdirə bilən keyfiyyətlərdən ibarətdir.

*3. Konkret peşə, sənət və ixtisas sahəsi üzrə xüsusi bilik, bacarıq, vərdiş və səriştələrə malik olmaq keyfiyyətləri.* Bunlar həmin sahədə peşəkarcasına, yüksək səriştəliliklə fəaliyyət göstərməyin mümkünlüyünü özündə daşıyan keyfiyyətlərdir.

Bütün bu keyfiyyətlər toplu halında hər bir peşənin məzmun və mahiyyətini özündə cəmləşdirən *peşə professioqramları* şəklində olur ki, onlarla tanış olmaqla siz seçdiyiniz sahə üzrə daha mükəmməl məlumatlara yiyələnmiş olarsınız. Nümunə kimi çox populyar olan iki peşənin – *müəllimlik peşəsinin və diplomat* peşələrinin *professioqramını* Sizə təqdim edirik. Əminik ki, bu peşələri seçmək istəyən gənclərimiz onlardan yararlana biləcəklər.

**Peşə: Müəllim**

***Cəmiyyətdə müəllimlik peşəsinin əhəmiyyəti və yeri:***

Müəllim gələcək cəmiyyətin memarı və qurucusudur. Müəllim gənc nəslin tərbiyə olunması, onların gələcək hə-

yata hazırlanması kimi nəcib və şərəfli bir işi yerinə yetirir. Müəllim bu gün yaşayır, işləyir, bu işi ilə gələcəyi qurur. Yaxşı deyilmişdir: «Bağ bağbansız keçinə bilmədiyi kimi, bəşəriyyət də müəllimsiz keçinə bilməz» (S.M.Qənizadə). Cəmiyyət öz gələcəyini məhz onlara etibar etdiyindən, müəllim peşəsi cəmiyyətdə ən şərəfli və ali məqsədlərə xidmət edən peşələrdən biri sayılır.

Vətənimizin insanlıq tarixinin gələcək səhifələrinin yazılmasında müəllimin

öz yeri və rolu vardır. Çünki gələcək cəmiyyətin necəliyi müəllimdən çox asılıdır. Bu baxımdan müəllim peşəsi ən məsuliyyətli peşələrdən biridir. Məhz buna görə də dövlətimiz hər vasitə ilə müəllimlərin sosial və mədəni həyatını diqqət mərkəzində saxlayır və bu sahəyə qayğını artırır.

Müəllim təhsilin mərkəzində dayanan başlıca simadır. Bu gün gənclərə verdiyimiz təhsilin keyfiyyəti də müəllimdən asılıdır. Ulu öndər Heydər Əliyevin dediyi kimi, cəmiyyətin gələcək tərəqqisi indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılıdır. Bu mənada cəmiyyətin gələcək taleyi də müəllimdən asılıdır. Bu baxımdan cəmiyyətdə müəllimin status böyük və məsuliyyəti çox yüksəkdir.

**Əmək növü:**

Müəllim peşəsi «insan-insan» peşələr qrupuna daxildir. Bu qrupun əsas əlaməti nitqdən ünsiyyət vasitəsi kimi istifadə edilməsidir. Burada «əmək aləti» rolunu müəllimin nitqi oynayır. Bu qrupda fəaliyyət insanların ünsiyyəti əsasında qurulur.

**Əməyin obyekti və məhsulu:**

Müəllim əməyinin obyekti böyüməkdə, inkişaf etməkdə olan insanlar – şagirdlərdir. Müəllim onlarla təlim-tərbiyə işləri apararaq onları elmlərin əsasları ilə silahlandırır, onlarda dünyagörüşü və şəxsiyyət üçün zəruri olan bir sıra mənəvi keyfiyyətlər formalaşdırır. Müəllim əməyinin məhsulu onun necə vətəndaşlar yetişdirib tərbiyələndirməsidir.

**Müəllim üçün zəruri olan bilik və bacarıqlar:**

– öz ixtisasını dərindən bilmək və onun tədris edə bilmək;

– biliyinə inam və bu biliyi şagirdlərə çatdırmaq;

– pedaqoji talant və təxəyyül;

– dövlətin təhsil siyasəti və müəllimlərin qarşısında duran məsuliyyətin ağırlığı;

– uşaqların yaş və fərdi xüsusiyyətlərini, yaş və pedaqoji psixologıyanın əsaslarını bilmək;

– müasir pedaqoji texnologiyalara, təhsil, təlim və tərbiyə nəzəriyyələrinin xarakterinə və əsaslarına yiyələnmək.

**Əmək şəraiti və iş yeri:**

Gigiyenik tələblərə və normal həyat şəraitinə uyğun, estetik cəhətdən müəyyən tərtibata malik, xüsusi avadanlıqlar və vəsaitlərlə təmin olunmuş iş yeri – məktəb və digər təhsil ocaqları.

**Əmək rejimi və istirahət:**

Ayda 48 saat (həftədə 12 saat) dərs yükü. Hər həftə 2 gün (şənbə və bazar günləri) istirahət. Hər bir saatdan (45 dəqiqədən) sonra tənəffüs və ildə 48 iş günü haqqı ödənilməklə əmək məzmuniyyəti.

**Tibbi əksgöstərici:**

Nöqsanlı nitq, əsəb zəifliyi, təmkin və səbrlılıyi bacarmamaq.

**Şəxsiyyətə olan iradə, iş və digər keyfiyyət tələbləri:**

– peşəsinə maraq, uşaqları sevmək və onlarla işləməyə həvəs;

– yüksək müşahidəçilik qabiliyyəti və pedaqoji sayıqlıq;

– ünsiyyət mədəniyyətinə malik olmaq, ünsiyyətə girməyi bacarmaq;

– tələbkarlıq keyfiyyətlərinə malik olmaq;

– işgüzarlıq, əməksevərlik, yeniliyə can atma;

– ciddilik və incə yumor hissinə malik olmaq;

– pedaqoji incəsənətə yiyələnmək;

– öyrətməyə həvəs;

– yüksək ziyalılıq, əxlaqi və intellektual keyfiyyətlərin ahəngdarlığı;

– emosional və ifadəli nitqə, səsə, mimikaya, jestə, pedaqoji texnika və takta malik olmaq;

– cəmiyyətin müəyyənləşdirdiyi əxlaqi-etik davranış qaydalarına yiyələnmək;

– səmimilik, saflıq, düzgünlük;

– sözü ilə hərəkətləri arasında ahəngdarlıq;

– geniş elmi, siyasi dünyagörüş və erudisiya;

– kollektivçilik və kollektivlə əməkdaşlıq;

– təşkilatçılıq bacarığı;

– özünənəzarət və özünü ələ alma bacarığı, emosional vəziyyətini idarə edə bilməsi, səbrlilik;

– təmkinlilik və möhkəmlik;

– ünsiyyətdə olduğu şəxsə və ya qrupa qarşı diqqətlilik;

– psixoloji mədəniyyətə malik olmaq.

**Peşənin şəxsiyyətə təsiri:**

Müəllim peşəsi incəsənətdir. Bu peşə onu seçənlərdən bir sıra keyfiyyətlərin olmasını tələb etməklə yanaşı, onun sahibinin ümumi mədəniyyətinin formalaşmasına da ciddi təsir göstərir. Müəllim öz şəxsiyyətinin nümunəvi təsirə malik olduğunu dərk etdikdə onun öz şəxsiyyətinə qarşı tələbkarlığı da artır. Özünənəzarət, özünün hərəkət və davranışına tənzimləyici münasibət onu nəcibləşdirir, yüksək mədəniyyətə və ziyalılıq keyfiyyətlərinə yiyələnməyə səbəb olur.

Müəllimin öz fənnini, ixtisasını dərindən bilməsi, yüksək elmi dünyagörüşə malik olması tələbi onun əqli qabiliyyətlərinin inkişafına, dərin və geniş elmi bi-

liklərə malik olmasına imkan yaradır.

Müəllim peşəsinə yiyələnmə həmçinin möhkəm xarakterin, əqidə və ideya-lılığın da formalaşmasına mühüm təsir göstərir.

**Müəllimlik peşəsinə yiyələnməyin yolları:**

Cəmiyyət ən qiymətli kapitalı olan uşaqları müəllimə etibar etdiyindən, bu peşəyə yiyələnmək istəyənlər də yüksək elmi biliyə və bir sıra keyfiyyətlərə malik olmalıdırlar. Respublikamızda müəllimlik peşəsinə yiyələnmək üçün kifayət dərəcədə geniş yollar – təhsil müəssisələri mövcuddur. Bunlar həm ali təhsil ocaqları – universitet və institutlar, həm də orta ixtisas məktəbləri – kolleclər formasında fəaliyyət göstərir. Ali pedaqoji təhsil verən universitetlərdə təhsil iki pillədə – bakalavr (təhsil müddəti

əyanidə 4 il, qiyabidə 5 il) və magistr (əyani – 2 il) pillələrində aparılır. Ali məktəblərə qəbul tam orta təhsil əsasında, test üsulu ilə müvafiq ali məktəblər üzrə müəyyən olunmuş fənlərdən qəbul imtahanları verməklə aparılır. Orta ixtisas məktəblərinə (kolleclərə) qəbul isə ümumi orta və tam orta təhsil bazaları əsasında aparılır və təhsil müddəti müvafiq olaraq 4 və 2 ildir.

Respublikamızda ali təhsil almağın iki forması – əyani və qiyabi formaları mövcuddur. Yeganə meyar bilikdir.

**Peşə üzrə yüksəlmək perspektivi:**

Müəllim peşəsi üzrə yüksəlmək imkanları çox genişdir. Bu, 3 istiqamətdə mümkündür: 1) yüksək pedaqoji ustalıq sayəsində dövlət təltiflərinə layiq görülməklə; 2) elmi yaradıcılıq yolu ilə (doktoranturaya daxil olmaq, dissertasiya müdafiə etmək və elmi adlara, dərəcələrə yiyələnmək); 3) məktəbdə, təhsil şöbələrində və nazirlikdə müvafiq vəzifələrə irəli çəkilmə yolu ilə. Bunlar isə müəllimdən gərgin əmək, zəhmətsevərlik, işgüzarlıq, səriştə və qabiliyyətlər tələb edir.

**Müəllim peşəsinin yaxın olduğu peşələr:**

Müəllim peşəsinin «insan-insan» peşələr qrupuna daxil olan bir sıra peşələrlə – həkimliklə, rejisorluqla, aktyorluqla, mədəni-maarif peşələri ilə müəyyən sahələrdə yaxınlığı vardır.

**Əmək haqqının səviyyəsi:**

Təhsil sistemi büdcədən maliyyələşən iqtisadiyyat sahəsinə aiddir. Dövlətimiz müəllimlərin əmək haqqının artırılmasına daim qayğı ilə yanaşır. Son on illiklər ərzində müəllimlərin əmək haqqının dəfələrlə artırılması, kənd

məktəbləri müəllimlərinə verilən imtiyazlar buna bariz nümunədir. Respublikamızda müəllimlər minımum əmək haqqından 2-2,5 dəfə çox əmək haqqı alırlar. Ali pedaqoji təhsilli gənc müəllimin (1ildən 5 ilə qədər stajı olan) 1 stavka dərs yükü hazırda 607 manatdır. Lakin bu son hədd deyildir. Müxtəlif vaxtlarda dövlət tərəfindən müəllimlərin maaşı artmaqla yanaşı, müəllimlərin stajları artdıqca əməkhaqları da artır. Hal-hazırda isə respublikamızda müəllimlərin sertifikatlaşdırılması həyata keçirilir ki, bu prosesdə də yüksək bal toplayan müəllimlərin əməkhaqqında nəzərəçarpacaq artımların olması gözlənilir.

**Peşə: Diplomat**

**Peşənin mahiyyəti, cəmiyyətdə və əmək bazarında mövqeyi**

Beynəlxalq münasibətlər siyasi elmlərin bir qolu olub, beynəlxalq sistemdə dövlətlərin bir-biri ilə, eləcə də beynəlxalq hökumətlərarası təşkilatlar, transmilli korporasiyalar və digər qeyri-dövlət sektorları ilə münasibətlərini öyrənir. Beynəlxalq münasibətlər ixtisasının məqsədi bu sahənin əsas predmeti olan ölkələrin və təşkilatların beynəlxalq iqtisadi və hüquqi normalar çərçivəsində inteqrasiyası və sıx əməkdaşlıq münasibətlərinin qurulması üçün lazım olan bilik və bacarıqların tələbələrə aşılanmasıdır.

**Peşə fəaliyyətinin məzmunu**

Bu ixtisasın məzmununu aşağıdakı hüquq, iqtisad, xarici dillər və sosial mövzular əhatə edir.

- dövlətin və ya şirkətin daxili və ya xarici siyasətini müəyyənləşdirmək və bu istiqamətdə beynəlxalq əlaqələrin yaradılması və inkişafı üzrə təkliflərin hazırlanması;

- xarici əməkdaşlığın qurulması və partnyorların cəlb olunması istiqamətində ın aparılması;
- layihələrin, sazişlərin, diplomatik sənədlərin hazırlanması və lazımi qaydada icrası;
- müxtəlif mənbələrdən vacib məlumatların toplanması və onların təhlili;
- işlə bağlı yazılı və şifahi tərcümələr etmək;
- beynəlxalq təşkilatlarla əməkdaşlıqda dövləti və ya şirkəti təmsil etmək;
- beynəlxalq nümayəndə heyətlərinin müşayiəti, beynəlxalq tədbirlərin təşkili və keçirilməsi;
- protokol işlərinin aparılması;
- rəsmi səfərlərin hazırlanması;
- beynəlxalq əməkdaşlıq çərçivəsində tədbirlərin, görüşlərin təşkili;
- mediya ilə iş, müasir informasiya texnologiyalarından istifadə;
- millətlərarası ünsiyyət mədəniyyətinim, xarici ölkələrin iş mədəniyyətinin qorunması;
- müxtəlif xarakterli iqtisadi, mədəni, hərbi, siyasi, ekoloji, qlobal proseslərin tənzimlənməsi;
- dövlət xaricində soydaşlarımızın maraqlarınının qorunması (dövlətin diaspora fəaliyyəti) və s.

**Diplomatın malik olmalı olduğu bilik və bacarıqlar**

Gələcək diplomatların Azərbaycanın milli maraqlarına uyğun mənimsəməli olduqları nəzəri və metodoloji biliklər peşə-ixtisas hazırlığı fənləri vasitəsilə həyata keçirilir. Nəticədə onlar aşağıdakı bacarıqlara yiyələnirlər:

- beynəxalq münasibətlərin müxtəlif sahələrinə müvafiq olaraq qazanılmış nəzəri və metodoloji biliklərin praktik həyatda və elmi tədqiqatlarda səmərəli istifadə etmək;
- beynəlxalq münasibətlər tarixinin inkişaf yolunu tam dərk etmək və onun gələcək inkişaf kontorlarını müəyyənləşdirə bilmək;
- beynəlxalq münasibətlərin əsas problemlərini müəyyən edə bilmək və bu məsələlər üzrə müstəqil mövqeyə sahib olmaq;
- beynəlxalq münasibətlərin əsas məsələlərinə dair fikir, düşüncə və mülahizələrini Azərbaycan və ən azı bir xarici dildə (İngilis) akademik səviyyədə yazılı və şifahi formada ifadə edə bilmək;
- İngilis dilində milli, regional və qlobal səviyyədə beynəlxalq münasibətlərlə bağlı proseslərə tənqidi və analitik yanaşa bilmək;
- müstəqil fəaliyyət zamanı tələb olunan etik (əxlaqi) dəyərlərə sadiq qalmaq;
- cəmiyyətin ümumi inkişafına töhfə verə biləcək intellektual və mənəvi keyfiyyətlərə malik olmaq.

***Gələcək diplomatda təhsil müəssisəsində peşəyə yüksək səviyyədə yiyələnmək və gələcək əmək fəaliyyətində uğur qazanmaq üçün aşağıdakı şəxsi keyfiyyətlərin olması zəruridir:***

- analitik düşünə tərzi, milli, beynəlxalq münasibətlərlə bağlı proseslərə tənqidi və analitik yanaşa bilmək;
- tez və düzgün qərar vermə bacarığı;

- kommunikativlik, təşkilatçılıq və idarəetmə (liderlik) bacarıqları;
- nitq qabiliyyəti, ünsiyyət bacarığı;
- informasiya ilə işləmə, təhlil etmə bacarıqları;
- müxtəlif insanlarla ünsiyyətdə olduğundan stressə davamlı olmaq;
- geniş dünyagörüş, yüksək intellekt;
- emosional sabitlik;
- iş prosesində dəqiqlik.

**Diplomat peşəsinə yiyələnmək üçün təhsil müəssisələri:**

- Bakı Dövlət Universiteti
- Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
- ADA Universiteti
- Azərbaycan Dövlət İqtisad Universiteti
- Azərbaycan Turizm və Menecment Universiteti
- Bakı Slavyan Universiteti
- Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti.

**Peşənin tətbiq sahəsi**

- Diplomat yəni, "Beynəlxalq münasibətlər" ixtisası üzrə təhsilə yiyələnmiş kadrlar aşağıdakı qurumlarda çalışa bilərlər:
- Xarici İşlər Nazirliyində, diplomatik nümayəndəlikərdə;
- Beynəlxalq təşkilatlarda;
- Xarici şirkətlərdə;

- Dövlət orqanlarının və yerli şirkətlərin beynəlxalq əlaqələr şöbələrində;
- Beynəlxalq və yerli qeyri-hökumət təşkilatlarında;
- Elmi-tədqiqat mərkəzlərində tədqiqatçı (bunun üçün ən azı magistr dərəcəsi lazımdır);
- Ali məktəblərdə ixtisas fənləri üzrə müəllim (bunun üçün ən azı magistr dərəcəsi lazımdır);
- Transmilli Korporasiyalarda

**Əmək şəraiti**

Diplomatlar gigiyenik tələblərə və normal həyat şəraitinə uyğun, estetik cəhətdən müəyyən tərtibata malik, xüsusi avadanlıqlar və ləvazimatlarla təchiz olunmuş ofis və idarə binalarında çalışırlar.

*Tam iş vaxtı:*

- ✓ beş günlük iş həftəsi olan (həftəlik normal iş vaxtının müddəti 40 saatdan artıq olmamaqla) gündəlik normal iş vaxtının müddəti 8 saat, iki istirahət günü;
- ✓ altı günlük iş həftəsi olan (həftəlik norma 40 saatdan çox olduqda) gündəlik iş vaxtının müddəti 7 saat, səhərisi gün istirahət günü olan iş gününün müddəti isə 6 saat.

İş adətən müxtəlif növ diplomatik təşkilatlarda müntəzəm iş saatlarında yerinə yetirilir. Uzadılmış iş saatlarında çalışmaq və səfərlər etmək tələb oluna bilər.

Əmək qanunvericiliyinə uyğun olaraq, ildə bir dəfə bir aylıq ödənişli məzuniyyət müddəti müəyyən olunmuşdur.

Peşə fəaliyyəti intellektual olduğundan yüksək əqli əmək tələb olunur. İş yüksək qarşılıqlı inam, etibar və eti-

mad şəraitində həyata keçirilir. Fəaliyyət müvafiq idarəetmə orqanı tərəfindən təsdiq edilmiş iş planına uyğun olaraq həyata keçirilir.

**Karyera perspektivi**

Akademik karyera (magistr ixtisaslaşması):

- Beynəlxalq münasibətlər və diplomatiya;
- Müasir danışıqlar təcrübəsi;
- Beynəlxalq mədəni əlaqələr;
- Müasir dövrdə Yaxın və Orta Şərq ölkələrinin xarici siyasəti

**Diplomat peşəsi ilə əlaqəli, əmək fəaliyyətinin məzmunu yaxın olan peşələr:**

– Beynəlxalq ticarət və logistika;
– Dövlət və ictimai münasibətlər;
– Regionşünaslıq (regionlar üzrə);
– Hüquqşünaslıq;
– Menecment;
– Politologiya;
– Sosiologiya;
– Tərcümə (dillər üzrə)

**Tibbi əksgöstərici və məhdudiyyətlər**

- sinir sistemi və psixi xəstəliklər;
- görmə və eşitmə qüsuru;
- zəif immun sistemi, tez yorulma;
- nitq qüsuru və s.

Burada yalnız iki peşənin, yəni müəllimlik və diplomat peşələrinin xarakteristikasını verə bildik. Xatırladaq ki, müxtəlif sorğu kitablarından, «Peşələr aləmi» adlı ensiklopedıyadan və digər kitablardan istifadə etməklə hər bir

peşəyə aid belə professioqramlarla tanış olmaq mümkündür və peşə seçmək astanasında olan yeniyetmə və gənclərin onları oxuyub - öyrənməsi çox vacibdir.

***Vaxtın hər şeydən qiymətli olduğunu unutma***

Zaman gözləmir. Bir də yaddan cıxarmayın ki, bu gün əldə edəcəyin bir şeyi bəlkə də sabah əldə edə bilməyəcəksən. Yaxşı işləri sonraya saxlamaq olmaz. Bu gün edəcəyinizi, edə biləcəyinizi elə bu gün də edin, sabah özü ilə daha başqa, daha yeni problemlər gətirəcəkdir. Sabahın da öz problemləri, öz işi vardır Onda da işin çoxluğu, vaxtın isə azlığı sizi dilə gətirəcəkdir. Buna yol verməmək üçün hər günün, hər saatın qədrini bilmək gərəkdir. Bu istəyi boğmamaq, elə onun yarandığı vaxt onu cavablandırmaq daha çox fayda gətirir, nəinki, sonradan ona qayıdasan. Bəzən ona heç qayıtmaq da olmur. Buna görə də hər işi vaxtında görmək lazımdır. *"Vaxtında görülən işdən gül iyi gələr",* - deyib atalar.

Yaxşı bir mütəxəssis olmaq üçün çox-çox oxumaq, öyrənmək, daim axtarışda olmaq, yenilikləri mənimsəmək və nə isə yeni bir şey yaratmaq lazım gəlir. Oxuduqca, öyrəndikcə adamın ağılına yeni fikirlər gəlir, yenə də yeni nəsə öyrənmək istəyirsən.

Hansı peşəni, ixtisası seçirsizsə və ya seçmişsinizsə onun üzərində çox çalışın, onun sirlərini öyrənin, bu sahədə biliklərinizi artırın, bu sizi uzaqlara apara biləcək yeganə yoldur. Lakin təkcə bir sahəyə qapanıb qalmayın. Biliklərinizi artırmağa, dünyagörüşünüzü genişləndirməyə və bacarıqlarınızı dərinləşdirməyə çalışın. Çalışın ki, həyata

baxışınız, dünyagörüşünüz geniş olsun, onda daha da irəli gedə biləcəksiniz. O zaman təkcə bir sahədə deyil, digər sahələrdə də qarşınıza çıxacaq maneələri asanlıqla dəf edə biləcəksiniz.

Bunu həyat da sübut edir ki, insanın bilikləri az olduqda çox şeyi bildiyini zənn edir. Lakin müəyyən bir sahə ilə maraqlandıqca, o sahənin dərinliklərinə baş vurduqca özünün nə qədər az bildiyini, qarşısında isə nə qədər qaranlıqların, elm ümmanının olduğunu görür, duyur. Öyrənməyə müəyyən vaxtın itirilməsi yox, qazanılması kimi baxmaq lazımdır.

Vaxtdan düzgün və ondan da vaxtında istifadə etmək aqillik əlamətidir.

## ƏMƏK BAZARININ TƏLƏBİ

***İnsanı kamilliyə çatdırmaq məqsədini güdən sənət dünya sənətlərinin ən şərəflisi olmadıdır.***
***N.Tusi***

Çox tez-tez dəyişən bir sosial mühitdə yaşayırıq. Cəmiyyət yeniləşdikcə, həyat inkişaf etdikcə əmək bazarının tələbi və tələbatı da dəyişilir, yeniləşir. Yeni istehsal sahələrinin yaranması və yeni texnologiyalarının tətbiqi əmək bazarında bir çox yeni peşə və ixtisaslara tələbatı gücləndirmişdir. İndi elə əmək sahələri yaranmışdır ki, yaxın keçmişimizdə nəinki onların məzmunu və əmək şəraiti haqqında əsaslı məlumata malik deyildik, heç bəzilə-

rinin adını da eşitməmişdik. Respublika iqtisadiyyatının bir sıra önəmli sahələrinə xarici şirkətlərin, iş adamlarının maraq göstərməsi, onlara sərmayə qoyması, yeni neft və qaz yataqlarının istismarı, qeyri neft sektorunda yeni iş yerlərinin yaranması kimi məsələlər bir sıra peşə və ixtisaslara əsaslı tələbat yaratmışdır. Başlıca məsələ əmək bazarının bu tələbinə cavab verə bilən rəqabətqabiliyyətli kadrların hazırlanmasından ibarətdir. Hazırda əmək bazarında elə bir şərait yaranmışdır ki, burada bilik və bacarıq diplomdan önə keçir. Yəni, hər hansı bir işə qəbul üçün təkcə diplomun olması kifayət deyildir. Əsas meyar kimi bilik, bacarıq və qabiliyyət götürülür ki, bu da gələcək karyerasını qurmaq istəyən hər bir gəncdən seçdiyi peşə və ixtisasa daha dərindən yiyələnməyi, ona yaradıcılıqla yanaşmağı tələb edir.

Bəs konkret olaraq respublikamızın əmək bazarının bu gün hansı peşə və ixtisaslara tələbatı vardır?

Belə bir həqiqət vardır ki, "Kim olmalı?", "Hansı peşəni seçməli?"– suallarına cavab axtaran yeniyetmə və yuxarı sinif şagirdləri hər şeydən əvvəl əmək bazarına hansı peşələrin lazım olduğuna və harada daha çox əmək haqqı verildiyinə diqqət yetirirlər ki, buna da təbii baxmaq lazımdır.

Hazırda respublikamızın ali məktəblərində bakalvriat üzrə 148, orta ixtisas məktəblərində subbakalvriat üzrə 141, ilk peşə-ixtisas məktəblərində (texniki-peşə məktəblərində və peşə liseylərində) isə 217 peşə və ixtisaslar üzrə mütəxəssislər hazırlanır. Bunlardan əlavə hər il yüzlərlə məzun xarici ölkələrdə təhsil almağa yollanırlar ki,

bunların da əksəriyyəti müəyyən ixtisaslar üzrə təhsilini başa vurduqdan sonra respublikamıza qayıdırlar. Ölkə iqtisadiyyatının bir çox sahələrinin inkişafı, infrastrukturların dəyişməsi, qeyri-neft sektoruna diqqətin arması kimi amillər bazarın peşə tələbinə yeni mahiyyət və məzmun verir. Buradan da qarşıdakı illərin düzgün proqnozlaşdırılması, bir neçə ildən sonra respublikamızın iqtisadiyyatı üçün daha vacib olacaq peşə və ixtisaslar haqqında məlumat və biliklərin olmasına əsaslı zərurət yaranır.

Son illər respublikamızda turizmin inkişafı, bu sahəyə diqqətin artırılması və işğaldan azad edilmiş ərazilərin bir çoxunun – Şuşa, Laçın, Kəlbəcər və digər ərazilərimizin geniş turizm potensialına malik olması bu sahədə bir sıra peşə və ixtisaslara, məsələn, *mehmanxana işi, turizm üzrə menecer, marketinq xidməti, sinxron tərcüməçi* və s. tələbatı artırmışdır. Xarici ölkələrlə siyasi, mədəni və iqtisadi əlaqələrin genişlənməsi *diplomat, beynəlxalq münasibətlər, hüquq, bank işi;* iqtisadiyyatın bu və digər sahələri üzrə *iqtisadçı* və inkişaf etməkdə olan bir sıra yeni sahələr üzrə bir sıra yeni peşə və ixtisaslara ehtiyacı genişləndirmişdir. Tikintinin sürətli inkişafı, adamların daha rahat, komfort şəraitdə yaşaması marağının güclənməsi *interner dizayneri, tikinti və dizayner xidməti;* xarici ölkələrlə ticarət əlaqələrinin genişlənməsi və ticarət dövriyyəsinin arması *satış üzrə menecer;* internet və kompyuter şəbəkəsinin genişlənməsi *proqramçı;* reklam şirkətlərinin fəal fəaliyyəti *reklam üzrə menecer*; kiçik və orta sahibkarlığın güclənməsi *mühəndis-texnoloq;* təhsilimizdə geniş islahatlar, Avropa təhsil məkanına inteqrasiyanın sürətləndirilməsi təhsil menecerləri ki-

mi peşə və ixtisaslara nəinki yaxın gələcəkdə, həmçinin hazırda mühüm tələbat özünü göstərir. Göründüyü kimi, hazırda əmək bazarının əsas tələbi diplomlu mütəxəssislərədir. Müəyyən xarici dil üzrə sertifikatın olması isə zəruridir. Lakin bir məsələni də yaddan çıxarmayın ki, hazırda işəgötürənlər daha çox təcrübəli, səriştəli və gənc işçilərə üstünlük verirlər. Bu, xüsusən banklara aiddir. Hərtərəfli əməliyyatların aparıldığı digər sahələr kimi, bütün banklar da işəgötürülənlərin təcrübəli və səriştəli olmasını tələb edirlər. Gənclərin təcrübəli, səriştəli olmaları üçün isə vaxt məhdudiyyəti olduğundan onu qazanmalarının əsas ağırlığı təhsil illərinə düşür. Buna görə də təhsil illərində nəinki nəzəri bilikləri öyrənmək, həm də əməli bacarıq və vərdişlər qazanmaq zərurəti vardır.

### *Gənclik bir də ələ düşməyən fürsətdir*

Hər şeyi zaman həll etdiyindən gənclik vaxtından, əlinizdə olan zamandan səmərəli və düzgün istifadə etməyə çalışsanız, vaxtı boş keçirməsəniz və çox şeyə qadir olarsınız. *"Gənclik əbədi deyildir, həyat yolunda bizə verilən bir roldur. Zaman keçdikcə insan dəyişir, rollar başqalaşır. Gənclik insana verilən böyük bir sərvətdir. Bu, düzgün şəkildə xərclənməlidir. Gənclik... inanmaqdır, yaşamağa dəyən bir fürsətdir."*[7] Əsas məsələ bu fürsəti əldən verməmək, onun qaynarlığından isinmək, gələcək üçün lazım olacaq bir çox məsələləri həll etməkdir. Zaman heç nəyi gözləmir. Görkəmli

[7] Əbdürrəhman Dönər. Yeniyetməlik dövrünün yol xəritəsi. Bakı: Xəzər nəşriyyatı, 2009, s. 22.

Azərbaycan şairi Hümüm Təbrizi yazırdı ki, gənclik ay işıqlı gecələr kimidir. Ağıllı adamlar bu gecələri yatmaz.

Dahi Nizami Gəncəvi isə belə buyurur:

*Vaxtı boş keçirmə, qələm al ələ,*
*Zəhmət çək, dünyada bilik kəsb elə.*

Doğru seçim ilk əvvəl gənclik dövrünün enerjisini məhz faydalı bir işə sərf etməyə yönəltməklə və öyrənmək üçün ən münasib vaxtın məhz bu dövr olduğunu dərk etməklə sıx bağlıdır. Onu da bilmək və qiymətləndirmək lazımdır ki, ömür insana heç də onu mənasız yerlərə xərcləmək üçün verilməmişdir. Ondan düzgün şəkildə istifadə etdikdə onun faydası da çox olur. Əslində öyrənmək üçün verilən vaxt çox da deyildir. Bir qismi uşaqlıq, bir qismi ahıllıq və qocalıq dövrünə düşən ömrün bu iki qütbü arasındakı vaxt, yəni gənclik dövrü öyrənmənin ən optimal dövrü, ən səmərəli vaxtıdır. Bu imkanı çox təəssüflər ki, çox vaxt düzgün qiymətləndirə bilmirik və bü gözəl dövr axar su kimi bir göz qıpımında ötüb keçir. Sonrakı peşimançılıq isə həmişə, hər yerdə olduğu kimi, burada da fayda vermir.

*"Səy göstərən adam səy göstərməyən istedadlı adamdan çox şeyə nail olur. Şöhrət ciddi əmək hesabına qazanılır. Asanlıqla başa gələn şey yüksək qiymətləndirilə bilməz. Hətta yüksək vəzifələrdə belə səy göstərmək məsləhətdir. Belə səy, bir qayda olara, istedaddan xəbər verir. Adi işdə ön sıraya qane olmayan adam yüksək işdə orta sıranı tutmağa can atırsa, öz alicənab təşəbbüsünə görə bağışlana bilər. Adi işdə fərqlənə bilən adam yüksək işdə orta yerlə kifayətlənirsə, onu bağışlamaq olmaz. Beləliklə, iradə və mərhəmət tələb olunur, onların birliyi isə səylə*

*möhkəmlənir"(Baltasar Qarsian).* Buna nail olmaq üçün cəhd etmək, hər gün nəsə yeni bir şey öyrənmək, əldə etmək və məqsədə doğru inadla hərkət etmək lazım gəlir.

Əlbəttə, bu çox yaxşıdır. Ancaq bütün bunlara gənclik illərindən can atmaq, ona nail olmaq lazımdır. Bu müddət boş keçdikdə sonralar nəyəsə nail olmaq olduqca çətin və gec olur.

Böyük peyğəmbərimiz Məhəmməd (s.ə.s.) buyurmuşdur: *"Uşaqlıqda öyrənilən bilik qaya üzərində yazılan, qocalıqda öyrənilən bilik isə su üstündə yazılan yazlya bənzər."*

## PEŞƏ SEÇİMİNİN MODELİ

***Əgər həyat şəraitimiz hər hansı bir peşəni seçməyə imkan verirsə, o zaman bizə daha çox ləyaqət qazandıran peşəni seçməliyik. Həqiqiliyinə tam inandığımız peşəni seçməliyik.***

***K.Marks***

Əgər belə bir standart model olsaydı, peşə seçən yeniyetmə və gənclərin işi bir qədər asan və bir qədər də çərçivəyə salınmış olardı ki, bu da seçimin azadlığına və sərbəstliyinə müəyyən xələl gətirərdi. Lakin burada elə məsələlər var ki, onları hökmən nnəzərə almaq, onlara əməl etmək lazımdır ki, seçilən peşə, ixtisas seçənin ürəyincə, cəmiyyətin tələbinə müvafiq və insanın həyat və tələbatını

təmin edəcək səviyyədə olsun. Bunun üçün aşağıdakı tələblərin gözlənilməsi məsləhətdir:

**I. Seçilən peşə nüfuzlu olmalıdır.** Bütün peşələr nüfuzludur – desək, heç də səhv etmərik. Peşəni nüfuzlu edən də, nüfuzunu aşağı salan da insandır, həmin peşənin sahibidir – desək, onda da heç səhv etmərik. Əlbəttə ki, burada söhbət insanlığa, xeyirxahlığa, insanı yaxşı əməllərə sövq edən peşələrdən gedir.

Görkəmli Tacik mütəfəkkiri Əbdürrəhman Caminin belə bir müdrik kəlamını xatırlamaq yerinə düşər: *"Adamı vəzifə böyüdüb şərəfli edə bilməz, bəlkə adamına görə vəzifə böyük və şərəfli hesab edilir."* Bu, həqiqətən də belədir. Götürək ən sadə, adi görünən çəkməçi peşəsini. Yəqin ki, bu adı siz də eşitmiş, bu şəxsi televiziya ekranlarında görmüsünüz: Cəkməçi Əli. Öz sənətini sevən, onun həqiqi mənada fanatı olan mahir usta Əli. Hətta ölməz şairimiz B.Vahabzadə onun sənətkarlığına heyran olaraq ona şeir də həsr etmişdir. Yaxud saat təmiri üstası – tanınmış saatsaz Hacı. Onu da yəqin ki, dəfələrlə televiziya ekranlarında görmüş, sənəti, sənətkarlığı haqqında verilişlərə baxmış, özünün söhbətlərini eşitmisiniz. Təmir edilə bilməyən bütün növ saatları təmir edən, onlara ikinci həyat verən və ən başlıcası peşəsini, sənətini sevən və bu sevgi ilə onun incəliklərinə yiyələnən əsl sənətkar. Öz peşəsini kamil bilməsi, sənətinə vurğunluğu, eyni zamanda şəx-siyyəti ilə sənətkarlığının bir-birini tamamlaması usta Hacının bir çox görkəmli şəxsiyyətlərlə dostluğuna da səbəb olmuşdur. Onu nəinki bizim respublikamızda, onun hüdudlarından kənarda da bir çox məşhurlar tanıyırlar.

Nümunə göstərdiyim bu sadə peşə adamları yalnız öz zəhmətsevərlikləri, seçdikləri peşənin, sənətin incəliklərinə yiyələnmələri, ona ürəklərinin istisini verə bilmələri sayəsində bu hörməti, bu nüfuzu qazanmışlar.

Belə nümunələrin sayını artırmaq da olardı. Amma bunlar da kifayətdir ki, peşə nüfuzundan danışanda peşənin özünün deyil, onun sahibinin ona nüfuz qazandıra bilməsini yaddan çıxarmayasınız.

**II. Əməkhaqqı münasib olmalıdır.** Seçəcəyiniz peşə və ixtisas sahəsində əməkhaqqının nə qədər olacağına da diqqət yetirilməlidir. Axı ailənizizin maddi tələbatlarının necə olacağı da bu seçimə təsirsiz qalmır. Ona görə də buna nəzər yetirmək lazım gələcəkdir. Düzdür, son illər buna əhəmiyyət verilməsi nəzərə çarpacaq dərəcədə özünü göstərir. Lakin yaddan çıxarmayın ki, öz işinin ustası, yüksək iştisas sahibləri olan şəxslərin əməkhaqqı məsələsində problemləri xeyli aşağıdır. Azad rəqabət, tələblərlə ayaqlaşmaq, yüksək əməkhaqqı qazanmağa əhə-miyyətli dərəcədə yol açır.

**III. Peşə maraqlı olmalı, sahibini özünə cəlb etməlidir.** Peşə, sənət, ixtisas maraqlı olmalı, yeknəsəq, cansıxıcı olmamalıdır. Peşənin maraqlı peşə olması əslində peşə seçənin özünün həmin peşəyə marağının səviyyəsi ilə bağlıdır. Əgər seçim üçün maraq güclüdürsə, dərin və davamlıdırsa fəaliyyət prosesi də maraqlı, zövq oxşayan olacaqdır. Böyük şairimiz M.Şəhriyar demişkən:

*Sevdiyin sənəti intixab etsən,*
*Yoruldum deməzsən nə qədər getsən.*

*Könül verdiyin iş ucaldar səni,*
*Könül vermədiyin qocaldar səni.*

**IV. Əmək şəraiti yaxşı, ürəkaçan olmalıdır.** Əmək şəraitinin ürəkaçan olmasına da fikir verilməlidir. Bunu da yaddan çıxrmayaq ki, bu şəraiti yaradan da biz özümüzük. İşimiz hətta gözəl bəzədilmiz kabinetlə bağlı olsa da, mənzərəli təbiət qoynunda olsa da, komfort şəraitdə olsa belə, bu şəraitə laqeyd yanaşsaq, səliqə-sahmana, təmizliyə və gözəlliyə biganə qalsaq, işimiz və fəaliyyətimiz heç də ürəkaçan olmayacaqdır. Hətta səsli-küylü əmək şəraitində belə lazımi işləri görsək, hamını buna cəlb etsək, burada da yüksək əmək şəraiti, zövqlü iş prosesinə nail ola bilərik.

**V. Valideynlərin arzu və marağı nəzərə alınmalıdır.** Yaddan çıxarmayın ki, seçiminizdə valideynlərin arzusunu və marağını da nəzərə almaq lazım gəlir. Əgər bu arzu və maraq sizin niyyət və arzularınızla, bacarıq və qabiliyyətiizlə üst-üstə düşürsə demək seçim əladır. Əksinə hallar varsa, yəni təkid, məcburetmə, yalnız öz arzu və maraqlarını reallaşdırmaq cəhdləri varsa, onda məsləhətləşmələrə, düzgün qərar qəbul etmək üçün reallıqlarla hesablaşmağa çalışmaq lazımdır. Çünki indi atılan səhv addımı sonradan düzəltmək olduqca çətin olacaqdır.

**VI. Seçim əmək bazarının tələblərinə uyğun olmalıdır.** Peşə, sənət seçimində əmək bazarının tələbatının nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Düzdür, bəzən peşə maraqları o qədər güclü olur ki, burada bazarın tələbləri nəzərə alınmır. Peşənin, ixtisasın cazibədarlığı bu

tələbləri nəzərə almağa imkan vermir. Bu, özlüyündə yaxşı hal olsa da, əmək bazarının tələbləri də bu zaman öz diktəsini edir.

Hazırda ölkəmizdə gedən iqtisadi inkişaf əmək bazarında bir çox peşə və ixtisaslara tələbatı artırır. Sənayenin, kənd təsərrüfatının və digər sahələrin durmadan artan inkişaf səviyyəsi, İKT-nin həyatımızın bir çox sahələrinə nüfuz etməsi, neft və qeyri-neft sektorunda yeni texnika və texnologiyaların tətbiqi, hərbi sənayenin inkişafı və digər bir sıra sahələrdə yeni peşə və ixtisaslara tələbatı artırır. Buna görə də əmək bazarının hazırkı və perspektiv tələbatlarına diqqət yetirmək, gələcəyi nəzərə almaq, işsizlik, başqa sahələrdə işləmək məcburiyyəti ilə üzləş-məmək üçün bu tələbatları nəzərə almaq lazımdır. Üstəlik, yaxşı mütəxəssisə həmişə, hər yerdə ehtiyac olduğunu, işlə təmin oluna biləcəyini də unutmaq olmaz. Əsas odur ki, seçiminiz düzgün olsun.

**VII. Seçiminiz gələcək karyera üçün təminatlı olmalıdır.** Yəqin ki, belə bir məşhur deyimi bilirsiniz: "General olmaq istəməyən əsgər yaxşı əsgər deyildir." Bəli, əgər siz, yəni böyük həyatın astanasında olan gənclər peşə seçmək haqqında düşünərkən onun gələcək perspektivləri, böyük uğurlar, yüksək hədəflər haqqında da düşünürsünüzsə bunu alqışlamaq lazımdır. Bu, uğura aparan yoldur. 1977-1981- ci illərdə ABŞ-ın 39-cu prezidenti olmuş Cimmi Karter hələ uşaq ikən doğulduğu Corciya ştatının Pleynz şəhərində küçədə gəzərkən adamlara deyirmiş: "Mənə yaxşı baxın, məni tanıyın, mən Amerikanın prezidenti olacağam!" Uşaq arzusudur, deyilmi? Amma oldu

da! Atalar əbəs yerə deməmişlər ki, niyyətin hara, mənzilin də ora.

***İnamına inadkarlıqla yanaş***

*"Müəllim şagirdlərə seçəcəkləri peşə ilə bağlı bir inşa yazdırmağı tapşırdı. Şagirdlərdən biri bütün gecəni yatmayıb at fermasına sahib olmaq arzusu ilə bağlı 7 səhifəlik bir inşa yazdı. Ora 200 hektarlıq bir ərazinin xəritəsini də çəkdi... 200 hektarlıq sahədə tikib yaşayacağı 100 kv.m.-lik evin planını da çəkdi. Ertəsi gün müəllimə verdiyi 7 səhifəlik bir yazı tam ürəyinin səsi idi... İki gün sonra inşa geri qaytarıldı. Orada qırmızı qələmlə qiymət yerinə iri bir "0" və "Dərsdən sonra yanıma gəl" tapşırığı vardı.*

*– Niyə "sıfır" aldım? – deyə soruşdu müəllimdən.*

*– Bu sən yaşda bir uşaq üçün real olmayan bir xəyaldır... Pulun yox, kasıb bir ailədənsən. At təsərrüfatı üçün çoxlu pul lazımdır. Bunları həyata keçirmək mümkün deyildir. Əgər öhtəsindən gələcəyin bir işi yazsan, yazına yenidən baxaram.*

*Uşaq evə qayıtdı və uzun-uzadı düşündü. Sonra onları atasına danışdı. Atası dedi:*

*– Oğlum, bu barədə qərarı özün verməlisən Bu, sənin gələcək həyatın üçün olduqca mühümdür.*

*Uşaq bir həftə düşündükdən sonra heç bir dəyişiklik etmədən yazını müəllimə apardı:*

*– Müəllim, siz verdiyiniz qiyməti dəyişməyin, mən də xəyallarımı...*

*Həmin şagird sonralar 200 hektarlıq ərazidə tikdiyi 1000 kv. metrlik evində yaşayır və böyük at ilxısına sahiblik edir. Vaxtilə yazdığı inşasını da evində çərçivədən asılı halda qoruyub saxlayır.*

*Əhvalatın ən maraqlı cəhəti də odur ki, həmin müəllim bir gün 30 şagirdi də götürüb həmin təsərrüfatın ərazisində düşərgə salır. Ayrılıq günü keçmiş şagirdinə: - Bax, - deyir, - mən sənin müəllimin olarkən uşaqların xəyallarını toplayırdım. O vaxt şagirdlərimdən xeyli xəyal qopardım. Allahdan sən xəyalından vaz keçməyərək qədər inadkar oldun."* [8]

Əhsən, belə inada!...

## ÇALIŞ SƏHV ETMƏ

***Yolu o adam daha çox azır ki, yol olmayan yerdə yol axtarır.***
***"Qabusnamə"dən***

Həytda elə bir adam tapmaq olmaz ki, o nədəsə səhv etməmiş olsun. Lakin elə məsələlər vardır ki, onda edilən səhv çox acı nəticələrə gətirib çıxarır və insanı bütün ömrü boyu narahat edən problemə çevrilir. Bu, ən çox seçim olan məsələlərlə bağlıdır. Buna görə də seçimlə bağlı olan məsələlərdə çox diqqətli olmaq, düzgün seçimə nail olmaq lazımdır. B.Qarsiani yazırdı ki, *seçmək, özü də ən yaxşısını seçmək qabiliyyətin ikiqat üstünlüyüdür. Seçimə qabiliyyəti Allahın adama verdiyi ən gözəl vergilərdən biridir.*

İnsan ömrü boyu bir neçə dəfə mühüm seçimlər qarşısında qalır: dost seçimi, peşə-sənət seçimi, həyat yoldaşı seçimi və s. Həyat əhəmiyyətli bu seçimlər içərisində

---

[8] Əbdürrəhman Dönər. Yeniyetməlik dövrünün yol xəritəsi. Xəzər nəşriyyatı, 2009, səh. 80.

**peşə seçimi** də olduqca mühüm əhəmiyyət kəsb edir. Çünki, insanın gələcək həyatında, inkişafında bir çox uğurlar (həmçinin uğursuzluqlar) məhz onunla bağlı ola bilir.

Həyatda öz yerini tapa bilməmək, özünü uğursuzluqda qınamaq, yaşayış tərzindən narazı qalmaq kimi bir sıra hallar çox vaxt peşə seçimində səhvə yol verməkdən başlayır. Buna görə də bu haqda ciddi düşünmək, gələcək həyat yolunun düzgün müəyyənləşdirilməsinə çalışmaq və buna nail olmaq lazımdır.

Bəs necə etmək ki, həyatın bu dönəmində səhvlər olmasın, yerimiz səhv düşməsin. Burada görkəmli şairimiz **Qabilin "Səhv düşəndə yerimiz"** şerini xatırlamamaq olmur:

*Duman dağı dolanar,*
*Qiyamət olar.*
*Duman yola sallanar,*
*Müsibət olar.*
*Müsibət oluruq biz,*
*Səhv düşəndə yerimiz.*

***

*Ümman gəmisi çayda*
*Oturar, üzməz!*
*Çay gəmisi dağ boyda*
*Dalğaya dözməz!*
*Dözümsüz oluruq biz,*
*Səhv düşəndə yerimiz.*

***

*Muğan həsrət yağışa,*
*Buludlar xəsis...*
*Yağış tökür Talışa,*
*Hey-hey gərəksiz...*
*Gərəksiz oluruq biz,*
*Səhv düşəndə yerimiz.*

***

*Küt bıçaq parıldayıb,*
*Xırçıltı salıb.*
*Qılınc qında pas atıb*
*Qında korşalıb...*
*Heyf... korşalırıq biz,*
*Səhv düşəndə yerimiz.*

***

*Ağ biləklər, gül əllər*
*Tarlada qabar.*
*Bir qeyrətsiz yekəpər*
*Qızılgül satar.*
*Qeyrətsiz oluruq biz,*
*Səhv düşəndə yerimiz.*

***

*Tarın pərdələrini*
*Düzənə qurban!*
*Yerdəyiş et birini,*
*Xaric vurarsan.*
*Xaric səslənirik biz,*
*Səhv düşəndə yerimiz.*

Bəli, gərəksiz olmamaq, korşalmamaq, xaric səslənməmək üçün yerimizi düzgün təyin etməli, düzgün seçim etməliyik. Bu isə heç də asan deyildir. Bunun üçün bir sıra məsələləri dəqiq nəzərə almaq lazımdır.

Gəlin elə maraqdan başlayaq. Yəqin ki, hələ uşaq vaxtlarında hansısa bir sənət sahibi olmaq maraqlarınız olub. Və yəqin ki, bunlar bir neçə dəfə dəyişilib də. Daha cəlbedici sahə gördükcə, biliyin, dünyagörüşün artdıqca maraq dairən də artıb, genişlənib, yeniləşib. Artıq indi həyat yolunu dəqiq müəyyənləşdirmək, konkret addım atmağın vaxtı çatmışdır...

***Maraq*** – insanın müəyyən obyektə və ya fəaliyyət sahəsinə müsbət emosional münasibətilə bağlı olan fəal idrakı istqamətlənməsidir. Maraq insanın hər hansı fəaliyyəti, məsələn, kitab oxumaq, musiqi, idman, peşə, təsviri sənət  və s.- lə bağlı fəaliyyətini həyata keçirməkdə böyük rol oynayır. O, insanın arzu olunan fəaliyyət sahəsinə aid biliklərini artırımasına, dünyagörüşünü genişləndirməyə, idrakı fəallığa stimullaşdırır. Maraq insanın öz istəyi, zövqü əsasında formalaşsa da onun yaranmasına bir çox amillər – məsələn, ailə, dostlar, yoldaşlar, sosial mühit, şəxsin özünün istedadı və s. təsir göstərir.

Lakin, unutmaq olmaz ki, maraqlar bu amillərin təsiri ilə dəyşə də bilir, buna görə də nə peşə seçimini, nə də başqa seçimləri təkcə maraqla, onun gücünə həll etmək mümkün deyildir. Bu prosesdə digər amillərin rolu daha böyükdür.

*Bacarıq və qabiliyyətləri* nəzərdən keçirək.

***Bacarıq*** – biliyin tətbiq olunmasıdır. Psixoloji ədəbiyyatlarda deyildiyi kimi, bacarıq işlənmiş biliklərdir. İnsan nə qədər çox biliklərə malik olsa da, onu tətbiq etməyi, ondan istifadə etməyi bacarmasa bu biliklər elə bilik olaraq qalacaqdır. Ona görə də insanların bacarıqlara malik olması, biliyini praktik şəkildə tətbiq etməsi əsas şərtlərdən biridir.

Lakin biliklərin bacarığa çevrilməsi heç də mexaniki bir proses deyildir. Bacarıqların formalaşması şəxsiyyətin hər hansı əşya və proseslər haqqında malik olduğu bilikləri səmərəli şəkildə tətbiq etməklə müəyyən əməliyyatları sistemlə yerinə yetirməsidir. Buna görə də onun malik olduğu biliklərinin müəyyən bir sahədə bacarıqlara çevrilməsi üçün şəxsiyyətin bir sıra vacib əməliyyatları yerinə yetirməyə hazır olması mühüm əhəmiyyət daşıyır.

Belə bir sadə məsələyə diqqət edək: Fərz edək ki, məktəbin həyətyanı sahəsində bir neçə ağacı calaq etmək tapşırılmışdır. Bunun üçün öncə bu ağaclar üçün calağın hansı növündən istifadənin faydalı olduğunu bilmək, sonra bu ağaca hansı ağaçı calamaqla daha məhsuldar nəticə ala bilmək biliyini yada salmaq, daha sonra isə çalağın hansı metodlarla, yollarla və hansı ardıcıllıqla aparılmasını müəyyənləşdirmək lazımdır. Bundan sonra calaq vurma əməliyyatları yerinə yetirilir ki, bu da bacarıqdır, yəni biliyin bacarıqlara çevrilməsi əməliyyatlarıdır.

***Qabiliyyət*** – insanın elə özünəməxsus fərdi psixoloji xüsusiyyətidir ki, bilik, bacarıq və vərdişlərə yiyələnmə prosesində müvəffəqiyyət məhz ondan asılı olaraq əl-

də edilir. Hər bir şəxsin öz qabiliyyətləri haqqında müəyyən biliklərə malik ol-ması, onun nəzərə alınması qədər vacibdir. Bu olduqca mühüm əhəmiyyət kəsb edir.

Psixoloji-pedaqoji ədəbiyyatlarda qabiliyyətlər aşağıdaki kimi təsnif edilir:

***1. Bədii-linqvistik qabiliyyətlər:*** yaxşı inkişaf etmiş nitq; zəngin lüğət ehtiyatı; ədəbiyyatın öyrənilməsinə və dillərin mənimsənilməsinə, insanın daxili aləminə maraq; başqasının dərdinə şərik olmaq bacarığı; müşahidəçilik və s.

***2. Riyazi qabiliyyətlər.*** Bu, təfəkkürün riyazi metodlarının mənimsənilməsidir. Riyaziyyata maraq; məntiqi düşünmə bacarıqları; riyazi materialları təhlil etmə və ümumiləşdirmə bacarığı; riyazi bilikləri tez mənimsəmə (müəllimin izahını tez başa düşmə, riyazi materialları tez və uzun müddət yadda saxlama).

***3. Texniki qabiliyyətlər.*** Bu, texnikanı mənimsəmək və texniki elmlərdən baş çıxarmaqdır: texnikaya və texniki yaradıcılığa maraq; maşınlarla və proqramla idarə edilən dəzgahlarda işləməyə meyl göstərmək; qrafik materialı (çertyoj, sxem, cədvəl və s.) yaxşı başa düşmək; məkan təsəvvürünün inkişafı; riyaziyyat, fizika, kimya fənlərini müvəffəqiyyətlə mənimsəmək; texniki ədəbiyyata maraq.

***4. Pedaqoji qabiliyyətlər.*** Bu, təlim-tərbiyə məqsədilə başqa adamlara təsir etmək qabiliyyətləridir: pedaqoji fəaliyyətə maraq; uşaqlara məhəbbət; uşaq kollektivini təşkil etmək bacarığı; kiçik yaşlı uşaqlarla işləmək meyli; uşaqlara rəhbərlik etmək; nitqin aydınlığı və inandırıcılığı; tələbkarlıq; vicdanlılıq.

***5. Təşkilatçılıq***. Bu və ya digər işi və adamları öz ətrafında təşkil edə bilmək qabiliyyəti: başqa adamlarla asanlıqla əlaqə yarada bilməyi bacarmaq; müxtəlif uşaq təşkilatlarında fəallıq göstərmək meyli; öz yaşıdlarının psixologiyasını dərindən bilmək; müxtəlif situasiyalarda tez istıqamət müəyyənləşdirə bilmək; adamların fərdi keyfiyyətlərinə görə işləri onların arasında bölüşdürə bilmək bacarığı; məsuliyyəti bütünlüklə öz üzərinə götürə bilməyə hazır olmaq.

***6. İncəsənət qabiliyyətləri:*** yüksək emosionallıq, yaradıcı təxəyyül, obrazlı təfəkkür; *gələcək musiqiçilər üçün:* musiqini düzgün qavrama qabiliyyəti; ritm hissiyatı, musiqi yaddaşı. *Gələcək rəssam üçün:* aydın görmə qavrayışı; obrazlı yaddaş, formanı, rəngi, məkanı, perspektivi hiss etmək. *Gələcək aktyorlar uçün:* qabiliyyətlər, təsirli mımika, ahəngdarlıq [9].

Harvard Universitetinin təhsil professoru H.Qardner XX əsrin 80-ci illərində insanlarda qabiliyyətlərin çoxşaxəli olduğunu göstərərək bunları aşağıdakı yeddi qrup üzrə sistemləşdirmişdir:

Verbal-linqvistlik qabiliyyət (Sözlü-fizioloji qabiliyyət).

Məntiqi-riyazi qabiliyyət.

Vizual-fəza qabiliyyəti (Müşahidə qabiliyyəti).

Bədən -kinestetik qabiliyyət (Fizioloji qabiliyyət).

Musiqi-ritmik qabiliyyət.

Şəxsiyyətlərarası qabiliyyət (Sosial qabiliyyət).

---

[9] Французова Л.Я. Человек и профессия. Горький: Волго-Вятское изд-во, 1989, s.94

Şəxsiyyətdaxili qabiliyyət (Praktik qabiliyyət)[10].

Sonralar H.Qardner təbiət, mənəvi və digər qabiliyyətlərin də olduğunu bildirmişdir. Bu qrupların hər birinə daxil olan ayrı-ayrı xüsusiyyətləri qeyd edən müəllif göstərir ki, heç bir qabiliyyət təcrid olunmuş formada mövcud deyildir. O, qarşılıqlı asılılıq şəklində fəaliyyət göstərir. Onun fikrincə, hər bir şəxs ruhlandırıldıqda, dəstək və düzgün təlimat aldıqda, bu qabiliyyətləri lazımi səviyyədə inkişaf etdirə bələr. Qardner sübut etməyə çalışır ki, hər bir şəxs bu yeddi qabiliyyətin təkrarolunmaz kombinasiyasına malikdir: bəzi insanlarda bütün qabıliyyətlər çox yüksək səviyyədə inkişaf etmiş olur. Çox az insanlarda qabiliyyətlərin hamısı aşağı səviyyədə olur. Əksər insanlar isə orta səviyyədə yerləşərək onların az sayda qabiliyyətləri yaxşı, çox qabıliyyətləri orta, bir-iki qabiliyyəti isə zəif inkişaf etmiş olur.

Qardner təbiətə dair irəli sürdüyü qabiliyyətləri də daxil etməklə onların xüsusiyyətlərini aşağıdakı kimi xarakterizə edir:

**1. Verbal-linqvistlik qabiliyyət (Sözlü-fizioloji qabiliyyət)**

• sözlərin sırasını və mənasını anlama;

• izah etmə, öyrənmə və öyrətmə;

• sözlə güldürmə;

• bir işin gedişində başqalarını inandırma (inandırıcı şəkildə yazma və ya danışma);

[10] Подопригора В. Профессия и здоровье //Педагогика, 1999, № 6, s. 120 –122.

• xatırlama və yada salma;

• dillə bağlı daha ətraflı təhlil aparma (dilin özü ilə bağlı araşdırmalar aparma).

**2. Məntiqi-riyazi qabiliyyət**

• konkret əşya və ya modelləri tanıma;

• ümumiləşdirici nəticə çıxarma;

• ümumidən xüsusiyə nəticə çıxara bilmə;

• əlaqələri və bağlantıları dərk etmə;

• qarışıq hesablama aparma;

• elmi düşünmə və araşdırma aparma.

**3. Vizual-fəza qabiliyyəti (Müşahidə (təsviri) qabiliyyəti).**

• təsviri təxəyyül;

• təsvirləri xəyalda canlandıra bilmə;

• boşluqda yolunu tapa bilmə;

• həndəsi təsvir–rəsm çəkə bilmə;

• fəzadakı cismlər arasındakı əlaqələri dərk edə bilmə;

• fərqli baxışlar içindən doğru olanı tapma;

• əşyalardan zehnində istifadə etmə.

**4. Bədən-kinestetik qabiliyyət (Fizioloji qabiliyyət)**

• bədənin hərəkət və istəklərinə nəzarət;

• öncədən proqramlanmış fiziki hərəkətlər;

• fərqində olmaq – hiss etmək və bunu bütün hüceyrələrə yaymaq;

• beyin və bədənin əlaqəsi;

• təqlid qabiliyyətləri;

• formalaşmış fizioloji funksiyalar.

**5. Musiqi-ritmik qabiliyyət**

• musiqi və ritmi bəyənmə, dəyərləndirmə;

• musiqidə şərti işarələri, notları dərk etmə;
• səsləri və titrəyişləri duyma;
• səs, ritm, musiqi, ton və titrəyişləri tanıya bilmə, eşitdiyini təkrar ifa edə bilmə;
• səs tonu və ritmlərin özünəməxsus xüsusiyyətlərini dəyərləndirə bilmə.

**6. Şəxsiyyətlərarası qabiliyyət (Sosial qabiliyyət)**

• təsiredici, sözlü və sözsüz rabitə;
• başqalarının ruhi-mənəvi hallarına, hisslərinə, xarakterlərinə, hisslərinə və motivlərinə qarşı həssaslıq;
• qrupla birlikdə çalışma;
• qarşıdakını yaxşı dinləyə və fikirlərini anlaya bilmə;
• özünü başqasının yerinə qoymağı bacarma;
• əməkdaşlıq və onu mühafizə etməyi bacarma.

**7. Şəxsiyyətdaxili qabiliyyət (Praktik qabiliyyət)**

• düşüncələri qiymətləndirə bilmə;
• diqqəti cəmləşdirə bilmə;
• düşünmə haqqında düşünə bilmə;
• fərqli duyğuları hiss etmə və onları ifadə edə bilmə;
• öz şəxsiyyətinin bütün xüsusiyyətini görə bilmə;
• daha konkret düşünmə və onlardan nəticə çıxarma.

**8. Təbiətə aid qabiliyyətlər**

• təbiətlə paylaşma;
• canlı aləmə qayğı, onlarla təsirli münasibətdə olma;
• təbiətin bitki örtüyünə qarşı həssaslıq;
• növləri tanıya və siniflərə ayıra bilmə;
• nəsə yetişdirmə və ya bəsləmə;
• təbiətlə özü arasındakı qarşılıqlı təsiri dərk etmə.

Qardnerin qeyd etdiyi kimi, qabiliyyətsiz insan yoxdur. Sadəcə olaraq bu qabiliyyətləri duymaq, görmək və üzə cıxarmağa çalışmaq lazımdır.

Professor Ə. Əlizadə yazır: *"Qabiliyyət və istedad şəxsi məsələ deyil, milli sərvətdir. Onu göz bəbəyi kimi qorumaq, xalqa qaytarmaq valideynin də, tərbiyəçinin də, müəllimin də ən şərəfli missiyasıdır."*[11]

**Motiv.** Motiv insanı fəaliyyətə təhrik edən, onu müəyyən bir işi görməyə sövq edən qüvvədir, stimuldur. Motivlər peşə seçimində də mühüm qüvvə kimi çıxış edir. Şagirdlərə – "Bu peşəni, ixtisası nə üçün seçmisən, və ya seçirsən?" – sualı ilə müraciət etdikdə bu motivlərin nələrdən ibarət olması üzə çıxır. Və burada peşə seçən şəxs özü də onu bu peşəni seçməyə təhrik edəh motivlərin xarakterik xüsusiyyətlərini ayırd etmək imkanı əldə edir, onun müsbət və ya zərərli motivlər olduğunu anlayır ki, bu da seçim ərəfəsində olduqca əhəmiyyətlidir. Əgər motivlər güclüdürsə, həm də müsbətdirsə, seçimi uğurlu hesab etmək olar. Yox, əgər motivlər mənfidirsə, necə deyərlər, zərərin yarısından qayıtmaq da xeyirlidir. Düşünməyə dəyər...

Əziz dostlar, aşağıda seçim motivinizin xarakterini müəyyənləşdirmək üçün sizə bir test nümunəsi təqdim edirik. Seçdiyiniz peşə və ixtisası nə üçün seçdiyinizi və sizin seçiminizə bunlardan hansı ölçülərin uyğun gəldiyini qiymətləndirin. Sonda hansı motivlərin sizin seçiminizi istiqamətləndirdiyini görəcəksiniz.

---

[11] Əlizadə Ə.Ə. İstedadlı uzaqlar. Psixopedaqoji məsələlər: esselər və etüdlər. Bakı: Ozan, 1998, s. 22.

| № | Təhrik edən motivlər | Qiymət | Motivasiya-nın növləri |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 1. | Müxtəlif insanlarla ünsiyyət-də olmağa imkan verir | | F |
| 2. | Valideynlərimin xoşuna gəlir | | – |
| 3. | Cəmiyyətdə fəal mövqe tut-maq imkanı yaradır | | S |
| 4. | Şəhərdə yaşamağa imkan ve-rir | | + |
| 5. | Qabiliyyət və bacarıqlarıma uyğun gəlir | | F |
| 6. | Xaricdə oxumaq və yaşamaq imkanı verir. | | – |
| 7. | Cəmiyyətin xeyrinə fəaliyyət göstərməyə imkan verir | | S |
| 8 | Əqli və fiziki inkişafı təmin edir | | F |
| 9. | Yüksək əməkhaqqı ilə təmin olunmağa imkan verir | | + |
| 10. | Bu sahədə işləməyə yüksək marağın olması | | F |
| 11. | Nüfuzlu peşədir | | – |
| 12. | Peşə ustalığını yüksəltmək imkanı vardır | | S |
| 13. | Yaxın qohumlarım məsləhət | | – |

| | | | |
|---|---|---|---|
| | görmüşlər | | |
| 14. | Bacarıqlarımı rəhbər vəzifələrdə reallaşdırmağa imkan verir | | C |
| 15. | Cəlbedici peşədir (ixtisasdır) | | F |
| 16. | Sevdiyim fənlərə yaxındır | | + |
| 17. | İşdə tezliklə yaxşı nəticələr əldə etməyə imkan verir | | S |
| 18. | Dostlarım seçmişlər | | – |
| 19. | İşdən kənarda ixtisas bacarıqlarından istifadəyə imkan verir | | + |
| 20. | Yüksək yaradıcılıq imkanlarını üzə çıxarmağa imkan verir | | F |
| 21. | Bu sahədə yüksək cavabdehlik vardır | | S |
| 22. | Avadanlıq və vəsaitlərdən qənaətlə istifadəyə imkan verir | | – |
| 23. | Valideynlərimin peşəsini davam etdirmək arzusu | | + |
| 24. | Vətənə və xalqa daha çox xeyir vermək imkanının olması | | S |
| 25. | Yaşayış yerinə yaxında işləməyə imkan verir | | + |

Cədvəllə tanışlıq zamanı qiymət sütununda motivləri 5 bal sistemi ilə qiymətləndirirsiniz .

5 – cox güclü təsir edir; 4 – güclü; 3 – orta; 2 – zəif; 1– heç bir təsiri yoxdur. Bundan sonra isə 4-cü sütundakı

hərflərə baxırsınız: "F"– fərdi əhəmiyyətli daxili motivlər; "S" – sosial əhəmiyyətli daxili motivlər; "+" – xarici müsbət motivlər; "–" –xarici mənfi motivlərdir.

Toplanan yüksək rəqəm üstünlük təşkil edən motivin növünü göstərir.

***Etdiyin səhvdən nəticə çıxarmağa çalış***

Ürəyin, qəlbin çağırışını eşitmək, buna ruh yüksəkliyi ilə cavab vermək lazımdır. Bax, əsas yol da bundan ibarətdir. Lakin və təəssüflər ki, çox vaxt "qulaqlarımız" ürəyimizin bu səsini eşidə bilmir, onun çağırışına cavab vermir. Bəlkə də özümüzü eşitməzliyə vururuq. Bu, əsl yanlışlıqlar, səhvlər də buradan başlayır. Buna görə də çalışıb səhvlərə yol verməməliyik. Həyat insana bir dəfə, yalnız bir dəfə verilir və səhvləri də bağışlamır. Lakin edilən səhvi başa düşmək, onun səhv olduğunu anlamaq da böyüklükdür. Bundan da böyüklük edilən səhvdən nəticə çıxara bilməkdir. Bu varsa sonrakı səhvlərdən qaçmaq mümkün olacaqdır. Buna görə də birinci növbədə çalışmaq lazımdır ki, seçimdə səhv olmasın.

## PEŞƏ ÖZÜNÜTƏHSİLİ

*Elmdir cümlə sənətin dəyəri,*
*Elmsiz sənətin nədir səməri?*
***A.Səhhət***

**"Özünütəhsil"** – insanın və ya şəxsiyyətin məqsədyönlü şəkildə şəxsi təhsillə məşğul olması, özünün bilik, bacarıq və vərdişlərini artırmaq, genişləndirmək və dərinləşdirmək məqsədilə öz üzərində çalışması, təhsilalma prosesində həm obyekt, həm də subyekt kimi çıxış etməsidir. Özünütəhsil təhsilalma prosesinin davamlı və etibarlı forması kimi insanın şəxsi həyatında mühüm rol oynayır. Məhz bu fəaliyyət növü müəyyən bir sahədə adamların bilik, bacarıq və vərdişlərinin inkişafına, qazanılmışların daha da təkmilləşməsinə, mükəmməll olmasına və genişlənməsinə yol açır. Böyük Azərbaycan mütəfəkkiri A.Bakıxanov "Nəsihətlər" adlı əsərində yazırdı: *"Elm və kamal təhsilinə hər şeydən çox çalış, çünki hər şey onların köməyilə əldə edilir."*[12]

Həyata hazırlıq üçün təhsil çox vacibdir və böyük həyatda layiqli yer tutmaq üçün ən yaxşı, ən etibarlı dayaq və vasitədir. Dünyanı dərk etməyin ən mükəmməl yollarından biri və başlıcası da yaxşı təhsil almaqdır. Hər bir insan daim olaraq öz bilik, bacarıq və vərdişlərini artırmağa çalışmalı, öyrənməyə sərf etdiyi vaxt üçün heyfsilənməməlidir. Əksinə, bu vaxtı boş keçirmədiyi, onu faydalı

---

[12] Bakıxanov A. Nəsihətlər. Bakı: Yazıçı, 1982, s.8.

bir fəaliyyətə sərf etdiyi və səmərəli keçirdiyi üçün dəyərləndirməlidir. Təhsil, həm də ən yüksək mənsəbə çatmaq üçün də ən yaxşı inventisyadır, gələcəyə istiqamətlənmiş kapitaldır. Dahi N.Gəncəvi yazmışdır:

*Çox iti zehinlər yatan oldular,*
*Axırda saxsı qab satan oldular.*
*Təlimə həvəskar çox korazehin,*
*İqlimlər qazisi olmadı ? - deyin.*

Özünütəhsil həyatın bütün çağlarında, təhsilin bütün mərhələlərində zəruridir. İstər orta məktəbdə, istərsə də ondan sonrakı dövrlərdə özünütəhsil bilik xəzinəsinə yiyələnməkdə vacib amillərdən biri kimi özünü göstərir. Bu cəhətdən özünütəhsilin aşaqıdakı bir-biri ilə sıx bağlı olan üç mərhələsini qeyd etmək olar:

*1. Orta məktəb illlərində şəxsi özünütəhsil.* Bu, orta təhsil pilləsində hər bir şagirdin öz bilik, bacarıq və vərdişlərini daha da dərinləşdirmək və seçəcəyi peşə, ixtisas növü sahəsində biliyini daha da artırmaq, dünyagörüşünü genişləndirmək məqsədini güdür. Orta təhsil illərində şəxsi özünütəhsil insanın gələcək inkişafına, şəxsi kariyerasına sahib olmağa, qarşıya qoyduğu məqsədin reallaşdırılmasına əsaslı zəmin yaratdığından buna xüsusi əhəmiyyət vermək, şəxsi tələbatlar zəminində ona diqqətlə yanaşmaq lazımdır.

*2. Peşə-ixtisas təhsili pilləsində şəxsi özünütəhsil.* Bu, orta təhsildən sonrakı dövrdə – ilk peşə ixtisas təhsili müəssisələrində, kolleclərdə, ali məktəblərdə şəxsin öz bilik, bacarıq və vərdişlərini daha da artırmaq üçün öz üzərundə işləməsidir. Əgər orta məktəb dövründə şəxsi özünü-

təhsil gələcək peşə və ixtisas növünü seçməklə daha çox əlaqələnirsə, artıq bu pillədə o, xüsusi məzmun daşıyır, seçilmiş sahə üzrə həyata keçirilir ki, bununla da peşə, ixtisas sahibi daha dərin və hərtərəfli hazırlıq keçmiş olur.

*3. Peşə-ixtisas fəaliyyəti zamanı şəxsi özünütəhsil.* Bunsuz yaxşı mütəxəssis kimi formalaşmaq mümkün deyildir. Elmi-texniki tərəqqi fasiləsiz inkişaf etdiyindən, informasiya texnologiyaları sürətlə yeniləşdiyindən və tərəqqi, sürət, yenilik, kəşf insanların həyat, məişət və fəaliyyət strukturlarında özünü qabarıq şəkildə göstərdiyindən hər bir mütəxəssis aldığı təhsillə, yiyələndiyi bacarıq və vərdişlərlə kifayətlənməməklə, öz üzərində müntəzəm işləməklə sahibi olduğu peşə və iztisasın sirlərinə yiyələnə bilərlər. Bu bir qədər sonranın, yəni siz müəyyən peşə sahəsinə yiyələndikdən sonranın işi olduğundan birinciyə – sizinlə bilavasitə baqlı olan mərhələyə qayıdaq.

Peşə özünütəhsili kompleks bir problemdir və hədəfə çatmağın həlledici amillərindən biridir. Burada ilk növbədə hədəfin düzgün seçilməsi və ona çatmaq üçün konkret fəaliyyət proqramının olması vacibdir. Bu proqram seçilmiş peşə üzrə şəxsi özünütəhsil planının hazırlanmasından başlanır ki, bu da aşağıdakı bir sıra kompleks əməliyyatların həyata keçirilməsini tələb edir:

1. Seçilmiş peşə sahəsi üzrə fənlər blokunu dərinləşdirilmiş proqramlarla öyrənmək.

2. Seçilmiş peşəyə aid əlavə ədəbiyyatlar müəyyənləşdirmək və onlarla tanışlıq.

3. Müəyyənləşdirilmiş peşə və ixtisas sahəsi üzrə mütəxəssislərdən məsləhətlər almaq.

4. Gələcək əmək sahəsi ilə tanış olmaq, oradakı əmək proseslərini müşahidə etmək.

5. Seçilmiş peşə və ixtisasın mütəxəssisə verdiyi tələblərlə tanış olmaq və özünütərbiyə ilə məşğul olmaq.

Görkəmli rus pedaqoqu K.D.Uşinski yazırdı: *"Hər hans biliyin əldə edilməsi üçün sərf edilən əmək onun verəcəyi fayda ilə ölçülüb biçilməlidir."* [13] Bu baxımdan peşə özünütəhsili məhz faydanı düşünərək, yəni seçilmiş, yaxud seçiləcək peşə və ixtisas üçün fayda verə biləcək biliklər almaq məqsədilə aparılmalıdır. Nəyi oxumaq və oxuduğundan nəyi isə öyrənmək daha önəmli olduğundan bir məsələni də yaddan çıxarmaq olmaz: *"Sənə böyük mənsəb, məqam gərəksə, çalış elmə, fəzilətə çatasan" (Ə.Cami).*

Elmə, biliyə yiyələnmək həmişə lazımdır və hər zaman gərəklidir. Alınan bilik həmişə öz bəhrəsini verir. Hələ heç kim öyrəndiyi elm, aldığı bilik haqqında deməmişdir ki "bunu mən nahaq öyrəndim". Böyük peyğəmbərimiz Məhəmməd (s.ə.s) buyurmuşdur: *"Elm öyrənin, çünki elm sahibini yaxşını pisdən seçməyə qadir edir. Behiştin yolunu hamarlayır. Çöldə dostumuz, tənhalıqda munusimizdir. Köməksizlikdə yoldaşımız, xoşbəxtliyə tərəf yol göstərənimiz, dostlar arasında zinətimiz və düşmənlər arasında silahımız hesab olunur."*[14]

Elmə yiyələnmək, bilik almaq insanı zənginləşdirir. Var, dövlət insanı zəngin göstərə bilər. Ancaq onun elmi, biliyi və xeyirxah əməli yoxdursa, bu var-dövlət başqala-

[13] Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri . Bakı: 1953, s. 296

[14] Məhəmməd peyğəmbər. Kəlamlar. Bakı: Gənclik, 1990, s. 43.

rında həsəd hissi doğurmaqdan başqa bir şey olmayacaqdır. Əsl zənginlik insanın elmində, insanlar arasında mövqeyində və xoş əməllərində özünü göstərir. Ənuşirəvan-Adil etdiyi nəsihətlərindən birində deyir ki, zənginlik istəsən, hər bir işini bəyənilmiş et!

Elm, bilik insanı müəyyən mənsəbə çatdırır. Onu müəyyən peşə və ixtisas sahibi etməklə yanaşı, hikmətli edir, onun qəlbini cilalandırır. Böyü şairimiz və mütəfəkkirimiz M.Füzulu "Rindü Zahid" əsərində yazırdı: *"Elm ruhani ləzzətlərin zəncirini hərəkətə gətirəndir və Allahı tanımaq sirlərinə vasitədir. Elm elə bir dəryadır ki, ondan həqiqəti tanımaq gövhəri hasil olar."*[15]

Seçiləcək peşə və ixtisas üzrə özünütəhsillə məşğul olmaq məqsədə çatmağın əsas vasitəsi olduğundan onun müntəzəmliyi daim diqqət məzrkəzində o **Seçimi dəyişməkdən qorxma**

Təcrübə və həyati faktlar göstərir ki, ilk seçim heç də həmişə müvəffəqiyyətli, uğurlu olmur. Bir çox dahi insanların, sənətkarların da həyat yolu göstərir ki, onların bəziləri həyatda, sənətdə və onu əsrlər boyu yaşadan peşədə özlərini tapana qədər bir çox sahələrdə çalışmış, fəaliyyət göstərmişlər. Nəhayət ki, sonradan istədikləri, daxilindən gələn istəyin çağırıçı ilə tapdıqları sənətə, peşəyə gəlib çıxmışlar. Belə faktlar az deyil. Leonardo da Vinçi məşhur rəssam olmaqla yanaşı, anatom kimi də tanınmışdır. O, 800-ə yaxın insanın bədən quruluşunun əlamətlərini və şəklini çəkmiş, anatomiya çalışmaları aparmışdır.

[15] Məhəmməd Füzuli. Seçilmiş əsərləri., 5-ci cild. Bakı: Elm, 1985, s. 23.

Görkəmli Alman yazıçısı İ.V.Höte ixtisasca aqronom olmuşdur. Artur Konan Doyl həkim olmuşdur, ancaq yazıçı kimi tanınmışdır. Azərbaycanın görkəmli sənətkarı, tarzən, xalq artisti *Hacı Məmmədov* ixtisasca həkim-cərrah olmuşdur. Lakin onu məşhurlaşdıran, onu sevdirən və özünü onda tapdığı sahə musiqi, tar ifaçılığı olmuşdur. Xalqın ruhunu oxşayan bir çox mahnıların müəllifi gözəl bəstəkar Ələkbər Tağıyev ixtisasca hüquqşqnqs olmuş və hüquq mühafizə orqanlarında çalışmışdır. Onun bir çox görkəmli müğənnilər tərəfindən sevilə-sevilə ifa olunan və dinləyicilər tərəfindən rəğbətlə qarşılanan mahnıları dillər əzbəri olmuş və onu gəzəl bir bəstəkar kimi tanıtmışdır. “Real Madrid”, “Çelsi”, “Mançestr Yunayted” kimi məşhur futbol komandalarının Baş məşqçsi *J.Maurino* tərcüməçi olmuş və ilk fəaliyyətinə də tərcüməçiliklə başlamışdır. Futbolçu da olmamışdır. Lakin daxilində olan istək, qabiliyyəti və inamı onu məşqçilik fəaliyyətinə gətirmiş və o, bu sahədə böyük istedad və bacarıq nümayiş etdirmiş və qələbələr qazanmışdır...

Seçim zamanı bəzən gözlənilən nəticələr əldə olunmur, yaxud gözləntilər uğurla nəticələnmir. Bəs onda nə etməli, həqiqətənmi bu səhv yolla, "bəlkə də yaxşı olacaq”- fikrilə irəliləməli? Məncə burada ataların - “ziyanın yarısından qayıtmaq da xeyirlidir”- fikrinə əsaslanmaq daha faydalı olar, nəinki bacarığa, qabiliyyətə və insanın daxili tələbatlarına uyğun olmayan peşə və sənətlə məşğul olmaq. Belə halda yenə də özünə, öz daxilinə nəzər salmaq, meyl və marağının üstünlük kəsb etdiyi sahəyə üz tutmaq lazımdır. Bundan nə qorxmaq, nə də çəkinmək la-

zım deyil. Özünü tapdığın, özünü orada gördüyün və ya görmək istəyinin səni ora çatdıracağına inan! Və buna da əmin ola bilərsiniz ki, əgər özünüzə güvənməklə, seçiminizin düzgün olduğuna inanmaqla, bacarıq və qabiliyyətlərinizi yenidən, düzgün qiymətləndirməklə və əzmlə çalışmaqla uğur qazana biləcəksiniz.

## PEŞƏ ÖZÜNÜTƏRBİYƏSİ

***Ağıllı tərbiyə, hünər, nəzakət,***
***Ağıla nur verər, ürəyə qüvvət.***
***N.Gəncəvi***

Peşə özünütəhsili peşə özünütərbiyəsi ilə sıx surətdə bağlıdır. Özünütərbiyə ilə məşğul olmadan aparılan özünütəhsil sadəcə olaraq hansısa biliklərə malik olmaq, lakin ondan istifadə etməməyə bənzəyir ki, bu biliklərin isə heç kimə, heç onun sahibinə də elə bir faydası olmaz. Buna görə də peşə özünütəhsili ilə məşğul olub, onu özünütərbiyə ilə qüvvətləndirməmək hər hansı peşə və ya ixtisas haqqında yalnız dərin biliklərə yiyələnməklə məhdudlaşmaq olardı. Bu isə seçilən peşə və ixtisas üzrə tələbat və maraqları reallaşdırmaq, hədəfə çatmaq motivlərini dərinləşdirmək üçün kifayətləndirici sayıla bilməz. Bu baxımdan peşə, sənət və müəyyən ixtisas haqqında məlumatlara yiyələnərkən, yəni özünütəhsillə yanaşı, peşə özünütərbiyəsinə də onunla paralel və əlaqəli şəkildə baxılmalıdır.

***Özünütərbiyə*** - özünü inkişafa, müsbət keyfiyyətlərin kamilləşməsi və mənfi keyfiyyətlərin aradan qaldırılmasına yönəldilən dərk olunmuş fəaliyyət olduğundan peşə seçmə prosesində də bu, olduqca əhəmiyyətlidir. Peşə özünütərbiyəsi hər bir şəxsin seçdiyi peşə və ixtisas sahəsinin tələblərinə özünü hazırlamaq, peşə borcunu, peşə etikasını, peşə məsuliyyətini dərk etmək və bununla yanaşı, cavabdehlik, diqqətlilik, ləyaqət hissi kimi keyfiyyətlərin tərbiyəsinə çalışmaqdır.

Peşə özünütərbiyəsi zamanı hər bir şəxs ilk növbədə seçdiyi peşə sahəsində özünün müsbət və mənfi keyfiyyətlərinin nələrdən ibarət olduğunu bilməli, müsbət keyfiyyətlərin daha da inkişaf etdirilməsinə çalışmalı və seçdiyi peşənin tələblərinə cavab verə bilməyən mənfi keyfiyyətlərin tədricən aradan qaldırılması istiqamətində sistemli iş aparmalıdır. Bunun üçün özünütərbiyənin *özünümüşahidə, özünütəhlil, özünütənqid, özünütəlqin, özünüməcburetmə, özünüqiymətləndirmə* və s. kimi mərhələlərindən istifadə etmək faydalıdır. Məhz bu zaman insan öz imkan və keyfiyyətlərini, nələrə malik olduğunu, qüvvətli və zəif cəhətlərini dərindən dərk edir və özündə müəyyən keyfiyyətləri tərbiyə etməyə çalışır.

Özünütərbiyə olmadan insan özündə olan müsbət və mənfi cəhətləri qiymətləndirə bilmədiyi kimi, peşə özünütərbiyəsi ilə də məşğul olmadan seçmək istədiyi peşə sahəsində özündə olan çatışmazlıqları görüb onları aradan qaldıra bilməz. Özünütərbiyə insanı kamilləşdirdiyi kimi, peşə özünütərbiyəsi də şəxsi seçmək istədiyi peşə sahəsində mənəvi cəhətdən kamilləşdirir, onda özünəinamı artı-

rır, seçmək istəriyi peşə, sənət və ixtisasa daha da yaxınlaşdırır.

Peşə özünütərbiyəsi seçilmiş və ya seçilmək ərəfəsində olan peşə və buna müvafiq əmək sahəsinin spesifik xüsusiyyətlərini daha da yaxından öyrənməyə, hətta özünü ona hazırlamağa geniş imkan yaradır. Məsələn, pedaqoji və aktyorluq peşələri üzrə olan sahələri seçənlər üçün nitq qabiliyyətini inkişaf etdirmək, söz ehtiyatına malik olmaq, insanlarla ünsiyyət bacarıqlarını artırmaq, hüquq mühafizə sahəsini seçənlər üçün çevikliyə, analitik təfəkkürə yiyələnmək, iqtisadçı olmaq istəyənlər üçün riyazi təfəkkürün inkişaf etdirilməsinə xüsusi diqqət yetirmək və s. bu baxımdan faydalıdır.

Özünütərbiyə vasitəsilə özündə görmək istədiyi keyfiyyətləri inkişaf etdirmək sahəsində bir sıra tarixi faktlar vardır ki, bu faktlar bu gün də gənclik üçün ən yaxşı nümunələrdir. Məsələn, Antik dövrün məşhur natiqi Demosfen, görkəmli rus sərkərdəsi Suvorov və onlarla belə insanlar heç də uşaq vaxtlarında yüksək qabiliyyətlərə malik olmamışlar. Onlar məhz səbrlə, inadkarlıqla, dözüm göstərməklə öz üzərlərində çalışaraq istədikləri zirvəyə yüksələ bilmişlər. Demosfenin fiziki cəhətdən müəyyən qüsurları olmuşdur. O, danışanda çiyinlərini çəkərmiş, nitqi də də qüsurlu imiş. Buna baxmayaraq o, natiqlik etmək, xalq qarşısında çıxış etmək istəyir. İlk cəhdində danışarkən çiyinlərini çəkməsi və dilindəki qüsurlar onun nitqinin gülüşlə qarşılanmasına səbəb olur. Lakin bu uğursuzluq onu fikrindən və inadından döndərə bilmir. Demosfen oturanda çiyinlərinin üstündən iti qılınc asarmış

ki, danışarkən çiyinlərini yuxarı çəkəndə qılınc onu yaralasın və bu nöqsanı aradan qaldıra bilsin. Ağzına kiçik dəniz daşları yığaraq dağlara qalxmış və belə vəziyyətdə danışaraq dilindəki qüsuru aradan qaldırmağa çalışmışdır. Dənizin uğultusu fonunda səsini qaldıraraq nitq söyləyərmiş... Və günlərlə, aylarla edilən bu məşqlər, onun öz üzərinda inadla, yorulmadan, usanmadan işləməsi öz bəhrəsini vermişdir. O, fiziki qüsurlarını aradan qaldırmış, nitqini gözəlləşdirmiş və dövrünün ən məşhur natiqi olmuşdur...

Bunu hər zaman yadda saxlamaq və təkrar-təkrar xatırlamaq lazımdır ki, həyatda heç nə, heç bir uğur asanlıqla əldə edilmir, bir insan əgər öz həyat yolunu düzgün seçə bilibsə, onu tapa və tuta bilibsə, bu sahədə səriştəliliyə və peşəkarlığa yiyələnibsə, deməli başqaları da bunu edə bilərlər, sən də edə bilərsən. Əsas məsələ buna can atmaq, bu yolda çalışmaqdır. Qədim Roma filosofu Mark Avrelinin bu haqda gənclərə etdiyi nəsihət çox ibrətamizdir. O, demişdir: *"Əgər sən nəyisə bacarmırsansa, fikirləşmə ki, bunu heç kəs bacarmır. Yox, əgər bunu kimsə bacarırsa, demək sən də bacararsan".*

Özünütərbiyə insandan məqsədə çatmaq üçün yorulmadan öz üzərində işləməyi tələb edir. Aydın məqsədə malik olmaq, hədəfə çatmaq üçün iradi güc göstərə bilmək, hərəkət və davranışını düzgün qymətləndirmək, nöqsanları aradan qaldırmaq üçün səylə çalışmaq, hər günün sonunda bu gün nə etdiyi haqqında özünə hesabat vermək, hədəfə doğru hər gün irəliləyə can atma və s. kimi fəaliyyət bu cəhətdən zəruri amillərdir. Əlbəttə, gündəlik görüləcək işlərin planlaşdırılması həm özünənəzarət

baxımından, həm də hərəkət və davranışda dəqiqlik baxımından olduqca faydalıdır.

Rus elmi pedaqogikasının banisi K.D.Uşinskinin gənclik illərində özü üçün tərtib etdiyi gündəlik proqram gənclərin özünütərbiyəsi üçün örnək ola biləcək proqram kimi olduqca maraqlıdır. K.D.Uşinskinin bu proqramı konkret on bənddən ibarətdir:

*1. Tam, heç olmasa zahiri sakitlik,*

*2. Söz və davranışda düzgünlük.*

*3. İşi düşünərək görmək.*

*4. Qətiyyət.*

*5. Ehtiyac olmadıqda özüm haqqında bir söz belə danışmamaq.*

*6. Düşüncəsiz vaxt keçirməmək, təsadüfi deyil, istədiyi işi icra etmək.*

*7. Pulu ehtirasa görə deyil, yalnız həyat üçün zəruri və xoş olan şeylərə xərcləmək.*

*8. Hər axşam öz davranışlarım barədə vicdanla hesabat vermək.*

*9. Olmuş, olan və olacaq iş ilə bir dəfə də lovğalanmamaq.*

*10. Bu jurnalı heç kəsə göstərməmək*[16].

Peşə özünütərbiyəsi üçün də hər bir gənc özü üçün belə bir proqram hazırlaya bilər. Bu proqramda seçmək istədiyi və ya seçimində qətiləşdirdiyi peşə və ixtisas üzrə görməli olacağı işləri planlaşdırmaq və həmin istiqamətdə hədəfə doğru irəliləmək üçün gündəlik olaraq nələri etmə-

---

[16] Ушинский К.Д. Соб. соч. М.Л., Изд-во АПН, 1952, т.11, s.27.

li olduğunu qeyd etməsi olduqca məhsuldar nəticələrə gətirib çıxarar. Başlıca məsələ nəzərdə tutulan işlərin kağız üzərində qalmaması, planlaşdırdırılan işlərin vaxtı-vaxtında, yerli-yerində həyat keçirilməsindən ibarətdir. Yadda saxlamaq lazımdır ki, seçdiyiniz peşə və ixtisas sahəsi ilə hər gün özünütəhsil və özünütərbiyə ilə məşqğul olmaq sizi həmin sahəyə yaxınlaşdıracaq və ona yiyələnmək imkanlarınızı daha da artıracaqdır. Peşə özünütəhsili ilə özünütərbiyə birləşərək sizi seçiminizə daha da yaxınlaşdırıacaq və sizdə iradə və xarakterin möhkəmlənməsinə də səbəb olacaqdır.

***Hədəfə doğru inamla irəlilə***

Seçim uğurlu olduqda insan öz daxilinə, özünə daha yaxın olur, özünü daha güvənli, daha güclü hiss edir. Lakin bəzən tez uğur qazanmaq istəyi insanı öz sevimli peşəsindən ayrılmağa məcbur edir. Bu isə heç də uğura, müvəffəqiyyətə yol açmır. Düzdür, müəyyən yüksək əməkhaqqı, tezliklə maddi vəziyyəti yaxşılaşdırmaq istəyi bəzən qalib gəlir. Lakin bunlar insanı öz daxilindəki potensialı, özünü tapdığı və ona uyğun olan peşə sahəsində istedad və qabiliyyətini aşkarlamağa, onlardan istifadə etməyə mane olur. Buna görə də uğura, müvəffəqiyyətə aparan yolu aydın görmək, özünün istəyinə müvafiq sahə ilə məşğul olmağa başlamaq nə qədər çətin olsa da özünü ona istiqamətləndirmək insanın sonrakı uğurları üçün çox vacibdir. Səbrli olmaq, təmkin göstərmək, çətinlikləri dəf etməyi bacarmaq, yarı yoldan qayıtmamaq insanı əsas məqsədə, dəqiq hədəfə apara biləcəyini özünə təlqin et-

mək buna nail olunmağın əsas atributları kimi yaddan çıxarılmamalıdır. Sizi böyük həyat gözləyir. Bu həyatın astanasında bir yox, beş yox, daha çox yolayrıcları, daha çox aşırımlar vardır. Bunlardan yaxşısını seçmək, inamla irəliləmək, dözümlü, dəyanətli olmaq sizdən, məhz sizin özünüzdən asılıdır. Yaxşı bilik əldə etmək, hədəfi düzgün müəyyənləşdirmək və bu istiqamətdə inamla irəliləmək! Bax budur sizi gələcəyə aparan yollar. Zirvəyə çatmaq üçün onun ətəklərində ilişib qalmaq, yaxud təpəciklərlə kifayətlənmək azdır. Rəyayətə görə Əmir Teymur bir döyüşdə uğursuzluğa düçür olur və bir daşın dalında oturub fikrə gedir. Ətrafa göz gəzdirir, elə bu zaman bir qarışqanın buğda dənini götürüb daş yuxarı qaldıraraq öz yuvasına aparmağa çalışdığını görür. Dən 69 dəfə aşağı düşür və qarşqa hər dəfə onu yenidən götürüb qaldırmağa çalışır, nəhayət 70-ci dəfə axıra qədər qaldırıb apara bilir. Bunu görən Teymur utanır ki, bir dəfə məğlub olmaqla geri çəkilib. O, həmin yerdən çıxıb, qoşununu toplayaraq yenidən döyüşə girir və qalib gəlir.

Bu ibrətamiz nümunə onu göstərir ki, kiçik bir uğursuzluqdan qorxub geri çəlilmək qarşıya qoyulan məqsədə çatmamaq, hədəfdən yayınmaq deməkdir. Bu isə insanı özünü inkişafdan geri qoymaq, ideala çatmamaqdır.

# VALİDEYN MƏSLƏHƏTİ

***Oğul, sözlərimə yaxşı qulaq as,***
***Ata nəsihəti faydasız olmaz.***
***N.Gəncəvi.***

Əziz dostlar! Hər bir ailənin-ata, ananın siz övladların həyatda xöşbəxt olmağınız və firavan yaşamağınız üçün nə qədər əzab-əziyyət çəkdikləri, fədakarlıqlar etdiklərini bilirsiniz. Sizin maddi ehtiyaclarınızın ödənilməsi üçün hər bir şeyə hazır olduqlarını, necə deyərlər, özlərindən kəsib sizə verdiklərini yəqin ki, hər biriniz aydın dərk edirsiniz. Bu, valideynlik borcunun bir tərəfi - maddi məsələlərlə bağlı, yaşayışla, həyatla bağlı hissəsidir. Valideynlərin sizə bunlardan da artıq, bunlardan üstün, qiyməti heç bir şeylə ölçülə bilməyən verdiyi elə şeylər var ki, məhz bunlar sizi bir insan, bir şəxsiyyət, bir vətəndaş kimi cəmiyyətə təqdim edir, sosial mühitə çıxarır. Bu, ata-anadan aldığın mənəvi qida, tərbiyə, sənin şəxsiyyət kimi kimliyini müəyyən edən mənəvi keyfiyyətlərindir. Sənin sadə uşaq gözlərinlə gördüyün, sadə uşaq qəlbinlə duyduğun və damla-damla, zərrə - zərrə qəlbinə hopmuş, səni püxtələşdirmiş bu keyfiyyətlərin əsası məhz ailə mühitindən qidalanmışdır. Maddi həyatımız üçün ata və anaya nə qədər borcluyuqsa, mənəvi həyatımız üçün də ilk müəllimlərimiz olan ata və anaya ondan qat-qat artıq borcluyuq.

Əbəs yerə deyildir ki, tərbiyədən, mənəviyyatdan danışanda ailənin və məktəbin adları birinci çəkilir. Bunların hər ikisi həyati biliklərin, mənəvi dəyərlərin aşılandığı məbəddir, ocaqdır. Bu məbədlərdən alınan hər bir şeyin, bu ocaqdan götürülən hər bir nemətin qədrini bilmək lazımdır...

Ailə yeniyetmə və gənclərin peşə, sənət, ixtisas seçimləriundə də böyük rol oynayır. Nəzərə alsaq ki, hər bir ailə, hər bir valideyn öz övladlarına xoş gələcək naminə müəyyən peşə və ixtisaslar seçməyi məsləhət görürlər, onlara müəyyən mənada haqq qazandırmaq olar. Lakin heç nəyin fərqinə varmadan, övladlarının arzu, maraq və qabiliyyətlərini hesaba almadan nəyi isə qəbul etdirmək istəyi çox zaman uğursuzluqla nəticələnir ki, burada valideynlərin təkidi öz acı nəticələrini göstərir: peşə könülsüz seçilir, maraqla peşə sahəsi uyğun gəlmir, qabiliyyətlə fəaliyyət sahəsi uyğunsuzluq təçkil edir, peşə və ya fəaliyyət sahəsinin dəyişdirilməsi zərurəti yaranır.

Təcrübə göstərir ki, Azərbaycan şəraitində başqa sahələrdə olduğu kimi, peşə seçimində də ailə nüfuzu, valideyn məsləhəti önəmli yer tutduğundan hər üç məktəblidən biri, bəzi hallarda isə iki nəfərdən biri məhz ailənin istəyi ilə peşə seçməli olurlar. Bu istək, bu təsir şagirdlərin arzu, niyyət və bacarıqlarına, malik olduqları qabiliyyətlərə müvafiq olduqda çox gözəl bəhrəsini verir...

Gəncliyin valideyn sözünə, valideyn məsləhətinə həmişə ehtiyacı vardır. Hətta yaşa dolduqdan sonra belə valideynlərdən məsləhət almaq istəyi insanları tərk etmir.

Xalq hikmətindən çıxmış, əsrlərin sınağından keçib gələn aşağıdakı mənzərəyə nəzər yetirək:

Övladlarının ataları haqqında düşüncələri:

**5–10 yaşında:** *Atam hər şeyi bilir və çox güclüdür;*

**10–15 yaşında:** *Atam çox şeyi bilir və həm də güclüdür;*

**15–20 yaşında:** *Mən də atam qədər bilirəm və onun qədər güclüyəm;*

**20–25 yaşında:** *Bu bir həqiqətdir ki, atam sən deyən elə də çox şeyi bilmir;*

**25–35 yaşında:** *Mən atamdan çox bilirəm, amma onun da fikrini bilsəm pis olmaz;*

**35–45 yaşında:** *Hər halda atam da bəzi şeyləri məndən yaxşı bilir;*

**45–55 yaşında:** *Atam hər şeyi bilir;*

**55–60 yaşında:** *Ah, kaş atam sağ olaydı, hər şeyi bildiyini özünə deyə biləydim.*

Bəli, əziz dostlar, belə bir etirafın çox gec edilməsi təbii olsa da, təəssüf hissi heç bir fayda verməsə də həqiqət belədir. Ancaq ata-ana kimi məsləhət yerini heç vaxt unutmayın. Unutmayın ki, səhvləriniz də az olsun.

Peşə seçimi ərəfəsində yeniyetmə və gənclərin valideynlərdən məsləhət almaları olduqca vacib məsələdir. Görün onlar sizin seçiminizə nə deyirlər, hansı münasibət bəsləyirlər. Onların məsləhəti ilə sizin seçiminiz nə dərəcədə bir–birinə müvafiqdir, uyğunsuzluq varsa nədədir? Kimin seçimi daha perspektivli və önəmlidir? İrəli sürülən variantlar sizin seçimişizdən hansı cəhətlərinə görə üstündür? Seçiminizdə israrlısınızmı və nəyə görə? və s. və i.a.

Sizin peşələrlə ilkin tanışlığınızın əsası ailədən başlayır. Siz ailə mühitində öz valideynlərinizin peşəsi, onların işinin xüsusiyyətləri haqqında tez-tez söhbətlərin şahidi olur və onların işinin məzmunundan xəbərdar olursunuz. Hətta bəzən uşaqlar bəzi sənətlərlə, sənətkarlıqla elə öz evlərindəcə tanış ola bilirlər.  Həyati faktlar göstərir ki, ailədə valideynlərin peşəsi, sənəti ilə yaxından tanışlıq uşaq şəxsiyyətinə elə güclü təsir göstərir ki, bunlar peşə seçimində əsas amilə çevirilir. Müəyyən peşə, sənət və ixtisaslar sahəsində yaranan ailə ənənələri də məhz bu amillə səciyyələnir. Bu gün respublikamızda minlərlə, on minlərlə sənətkar, peşə və ixtisas sahibi vardır ki, onlar öz peşə və ixtisaslarını məhz ailə ənənələrinin, ailə mühitinin təsiri ilə seçmişlər. Uşaqların ailədə tez-tez ata və anasının, yaxın adamlarının öz peşələri, işlərinin xüsusiyyətləri haqqında söhbət-lərinin şahidi olması onların gələcək həyat yollarının müəyyənləşməsinə öz təsirini göstərir. Bununla yanaşı, övladlarının peşə, ixtisas seçimində valideynlər bu gün də öz həlledici rollarında qalırlar. Bu da müəyyən dərəcədə xalqımızın milli xüsusiyyətlərindən irəli gəlir. Övladına mükəmməl təhsil vermək, onu layiqli bir sənət, peşə sahibi etmək Şərqin, o cümlədən Azərbaycan xalqının ən qədim və ən gözəl adət–ənənələrindən biri kimi qalmaqdadır. Hər bir valideynin bunu öz valideynlik borcu kumi dərk etməsi bu gün də ata–anaları düşündürür, narahat edir və bu işlə məşğul olmağa vadar edir.Valideynləriniz sizin nəinki bu gününüz, eyni zamanda gələcəyiniz, gələcək həyatınız üçün narahat olur, öz valideynlik börcunu yerinə yetirməyə çalışırlar. Onların sizin peşə se-

çiminizdə təsiri və rolunun mühüm olması da bu borcdan, bu məsuliyyətdən irəli gəlir. Buna görə də valideynlə məsləhətləşmək, qərarınızın düzgün olması üçün onların fikrindən faydalanmaq həmişə və hər zaman vacibdir. Necə ki, atalar deyib: "Məsləhətli don gen olar."

Lakin bu da istisna deyildir ki, valideynlər bəzən övladlarının seçiminə müsbət yanaşmırlar. Çox vaxt bu seçimdə onların səhv etdiklərini deyir, bəzən də səhv edəcəklərindən ehtiyat edirlər. Əksər hallarda isə valideynlər övladlarını necə görmək istəyirlərsə, bu istəklərini də həyata keçirmək üçün onların seçimini özləri yerinə yetirməyə çalışırlar. Bu baxımdan da valideynlər seçim zamanı övladlarının istəklərinə baxmayaraq özlərinin qərarını həyata keçirməyə çalışırlar. Nəticədə də səhvlərə yol verilir ki, bunu da sonradan düzəltmək çox çətin olur. Bu baxımdan seçiminizdə onları inandırmağa çalışın.

Müəllimlərlə də məsləhətləşin. Onlar sizin bacarıq və qabiliyyətləriniz haqqında daha çox məlumata malikdirlər.

***Maneələri dəf et***

Maneələr də az olmur. Bəzi hallarda bunlar peşə seçmək astanasında olan, yol ayrıcında dayanıb götür-qoy edən, fikirləşən, şübhələr içində çaşıb qalan gəncə öz qəlbinin səsinə qulaq asıb, seçim etməsinə əngəllər yaradır. Valideynlərinin övladını haralarda isə görmək arzusu, yoldaşlarının təsiri, cəmiyyətin tələb və tələbatı və s. kimi amillər seçim etmək istəyən gəncin özünü daxilən görməyə, qəlbinin dərinliklərində onu hansısa bir peşə və ixtisasa səsləyən gücü hiss etməyə, sonralar daha da dərinləşə,

inkişaf edə biləcək qabiliyyət toxumlarının cücərməsinə və inkişafına maneçiliklər yaradır. Belə təsirlər seçimdə gələcək uğursuzluqların əsasını qoymuş olur. Başqalarının arzusu və istəkləri əsasında formalaşan maraq və meyl keçici xarakter daşıyır, peşə dəyişmə, ikinci ixtisas almaq məcburiyyəti, işsizlik, özünü qınama, özündən narazılıq, ən başlıcası isə sevmədiyi bir sahədə fəaliyyət göstərmək kimi hallara səbəb olur ki, bu da peşəkarlıq və səriştəliliyə aparan yolların tamamilə qapanmasına gətririb çıxarır. Bunlar isə işdə təşəbbüskarlıq göstərməmək, yeniliyə can atmamaq, işə əməkhaqqı xatirinə getmək məcburiyyəti yaratmış olur. Nəticədə peşəkarlıq və səriştəliliyə nə maraq olur, nə də təşəbbüs göstərilir. İşə həvəs göstərilmir, işdən zövq alınmır, "iş, iş xatirinə" yerinə yetirilir. Belə halların olmaması üçün, arzusunda olunan peşə və ixtisas yolunda olan maneələrə qarşı getmək, onların aradan qaldırılmasına çalışmaq və hədəfə doğru inamla irəliləmək lazım gəlir.

İstər özündən asılı olan, istərsə də asılı olmayan çoxlu maneələrin aradan qaldırılması peşə və ixtisas seçimində mühüm şərtlərdəndir. Burada həm özünühazırlığın intensivləşdirilməsi, həm də kənar maneələrə qarşı inamlı olmaq, özünü onda görmək istədiyi əmək sahəsinin tələblərinə hazır ola bilmək istiqamətində atılan hər bir addım faydalıdır. Qarşıya çıxan problemlər müəyyən ümidsizlik yarada bilər. Bu da təbiidir. Lakin qətiyyət göstərmək, məsləkə inamlı olmaq qarşısında çox vaxt bu maneələr əriyib gedə bilir. Zəhmətsiz müvəffəqiyyət, mübarizəsiz qələbə yoxdur.

Unutmayaq ki, hər hansı bir hədəfə çatmaq, ideal olan bir məsləkin reallaşmasına nail olmaq o zaman həqiqi mənada mümkün olur ki, onun uğrunda hər gün və inamlı mübarizə aparılsın.

## MÜƏLLİMLƏRLƏ MƏSLƏHƏTLƏŞİN

***Müəllimin sözü ona görə xoşa gələn, könülə yatan və ürək oxşayandır ki, o, azdırıcı yox, yol göstərici, çaşdırıcı yox, öyrədicidir.***

***Şəms Təbrizi***

Peşə, sənət və ixtisas seşmək ərəfəsində müəllimlərin məsləhəti olduqca vaciddir. Bəzən nə gəncin özü, nə də onun valideynləri bacarıq və qabiliyyətləri düzgün müəyyənləşdirə bilmirlər və bu sahədə çətinliklərlə üzləşirlər. Bəzən də səhvlərə yol verirlər. Uşağın nəyə qabil olduqlarını və ya hansı sahədə bacarıqlarının zəif olduğunu düzgün qiymətləndirə bilmir və bunun nəticəsində də verilən qərarlarda səhvlər özünü göstərir. Belə səhvləri gəncin özünün də, valideynlərin də qərarlarında tez-tez müşahidə etmək mümkündür. Bunu təbii də hesab etmək olar. Çünki, qabiliyyət və bacarıqların müəyyənləşdirilməsi bir o qədər də asan məsələ deyildir. Burada məktəb psixoloqunun və fənn müəllimlərinin söylədikləri fikirlərə, gəldikləri qənaətlərə daha çox ehtiyac vardır. Çünki onların fikirlərinin əsasında elmi biliklər, ixtisaslı araşdırmalar, təsdiq olunmuş fikirlər dayanır. Elə buna görə də şagirdlə-

rin və onların valideynlərinin seçim ərəfəsində məktəb psixoloqları, fənn müəllimləri, sinif rəhbərləri ilə məsləhətləşmələri, onlardan məsləhət almaları olduqca önəmli yer tutur. Bu danılmaz faktdır ki, hər hansı bir elm, peşə, ixtisas sahəsinə yeniyetmə və gənclərin bacarıq və qabiliyyətlərinin səviyyəsi haqqında müəllimlər, bu istiqamətdə işlər aparan məktəb psixoloqları başqalarından daha çox məlumatla malik olurlar. Buna görə də onların məsləhətlərindən faydalanmaq zəruridir.

Təcrübə göstərir ki, həyatın astanasında dayanan, yol ayrıcında qalan gənclərin yaşlı nəslin sözünə, məsləhətinə böyük ehtiyacları vardır. Bu baxımdan aşağıdakı hallarda müəllimlərdən məsləhət almağı faydalı hesab edirik:

› bacarıq və qabiliyyəti düzgün nüəyyənləşdirə bilmədikdə;

› hansı peşəni seçmək?– sualı qarşısında tərəddüd etdikdə;

› özünün seçimi ilə valideynlərin seçimi uyğun gəlmədikdə;

› seçmək istədiyi peşə və əmək sahəsi haqqında daha çox məlumat əldə etmək istədikdə;

› qarşıya çıxan ziddiyyətli fikirlərə münasibət bildirməkdə çətinlik çəkdikdə və s.

Hər bir fənn müəllimi dərs dediyi şagirdlərin qüvvətli və zəif cəhətlərini, maraq səviyyəsini, fənlərə olan münasibətini daha yaxşı bilir. Onlar şagirdlərin peşə maraqları, maraqlarla bacarıqlarının uyğunluq səviyyəsini gündəlik müşahidə etdiklərindən bu sahədə də geniş məlumata malik olurlar. Buna görə də gələcək planlarınız, peşə seçimi-

niz haqqında müəllimlərdən məsləhət almaqdan çəkinməyin. Çünki müəllimlər seçimə təsadüfi deyil, elmi yanaşmanı daha yaxşı bilirlər. Bəzən sizin peşə və ixtisasın xarici parlaqlığına, yaxşı səslənməsinə və ya bu sahənin daha nüfuzlu olmasına baxaraq etdiyiniz seçim nə xarakterinizlə, nə bacarığınızla, nə də imkanlarınızla uyğun olmur. Burada müəllim sözü, müəllim məsləhəti lazım gəlir. Onlar bu işdə sizin ən yaxın məsləhətçiləriniz ola bilər. Yadda saxlayın ki, müəllimlərin verdiyi məsləhətlər sizin peşə planlarınızın daha da mükəmməl olması üçün lazımdır. Lakin bir məsələni də unutmayın ki, seçim sizindir, son sözü də siz deməlisiniz. Burada müəllim məsləhətçi, yol göstərən və bələdçidir. Atalar demişkən: "Böyüklə də məsləhətləş, kiçiklə də məsləhətləş, lakin öz ağlını unutma".

Məktəb psixoloqlarının peşəyönümü sahəsində imkanları daha böyükdür. Onların malik olduqları metodikalar, istifadə etdikləri müəyyən diaqnostik metod və vasitələr sizin seçiminizin düzgünlüyü haqqında daha elmi, daha məzmunlu məlumatlar vermək imkanındadır. Buna görə də onların məsləhətlərinə də laqeyd qalmayın. Psixoloqların sizinlə apardıqları psixodiaqnostik işlərin nəticələri ilə maraqlanın. Calışın onların da məsləhətlərindən faydalanın.

Sinif rəhbərləri sizin ən yaxın məsləhətçinizdir. O sizinlə bir neçə ildir ünsiyyətdədir. Sizin dərsdənkənar vaxtlarda nəyə malik olduğunuzu, qabiliyyət və bacarıqlarınızın nələrdən ibarət olduğunu onlar daha yaxşı bilirlər. Buna görə də onun da fikrini bilmək olduqca zəruridir.

Peşə planınızla onu tanış edin, gələcək planlarınızı onunla bölüşün və məsləhətini dinləyin...

Belə. Peşə planınız hazırdırsa, valideynlərin, müəllimlərin, sinif rəhbərləri və məktəb psixoloqunun da məsləhətlərini bilirsinizsə seçim etmək olar! Ancaq bundan əvvəl bacarıq və qabiliyyətlərinizi götür-qoy edin. Bunun üçün öz daxilinizə nəzər yetirin və bəzi testlərdən istifadə etməiə çalışın.

***Hədəfə çatdıqda belə, dayanma***

Heç kəs hazır bacarıqlarla doğulmur. Bu bacarıq əksər hallarda təhsildən sonra, iş prosesində formalaşmağa başlayır. Ali təhsil diplomu insana bacarıqdan çox hüquqi status verir: müəllim olmaq, həkim olmaq, mühəndis olmaq, hüquq müdafiəçisi olmaq və s. Alınmış ilkin bacarıqların daha da genişləndirilməsi, dərinləşdirilməsi, böyük müvəffəyiyyətlər əldə edilməsi bundan sonrakı dövrə qalır. Bacarığın formalaşması insanın özünün ixtiyarında qalır. Çətinlikləri dəf etmək, əldə olunmuşlarla kifayətlənməmək, daim axtarışda olmaq, görmək-götürmək, öyrənmək-tətbiq etmək, tənqiddən, sünü maneələrdən qorxmamaq, "döyülə-döyülə möhkəmlənmək", uğursuzluqlardan qorxmamaq, uğursuzluğun səbəblərini araşdıra bilmək, təhlil bacarığına malik olmaq, hədəfə çatmadan xırda uğurlarla kifayətlənmək, hədəfə çatdıqda belə dayanmamaq. Bax, bütün bunlar qazanıla biləcək bacarıqların, seçilmişlərdən olmağın əsasını təşkil edən başlıca amillərdir. Bu, bir növ dialektik idrak nəzəriyyəsini, idraka, həqiqətə yiyələnməyin dialektikasını xatırladır: canlı seyrdən

mücərrəd təfəkkürə, oradan da praktikaya. Uşaqlıq, yeniyetməlik və ilk gənclik dövrü (şagird) - bunlar məhz həmin öyrənmə dövrünü, müşahidə dövrünü təşkil edirsə, gənclik (tələbəlik) dövrü həmin mücərrəd təfəkkürün formalaşdığı dövr kimi xarakterizə edilə bilər. Tələbəlik dövründə qismən olan praktika və diplomdan sonrakı dövr - bacarıqların formalaşdığı, onların vərdişlərə çevrildiyi və insanın gələcək inkişafı üçün öz üzərində işləməyə çalışdığı dövrdür. Bunlar həyatın elə bir dövrüdür ki, insanın sonrakı bütün nailiyyəti, əldə etdiyi uğurlar məhz bunlardan asılıdır. Üzgüçülüyü suda öyrənmək və yaxşı ügüçü olmaq üçün daha çox məşq etmək lazım olduğu kimi, öz işinin əsl ustası olmaq üçün də həmin sahə ilə daha çox məşğul olmaq, orada məhsuldar fəaliyyət göstərmək gərəkdir.

Bu üç tövsiyəni də yaddan çıxarmayaq:

***a) özünü sevdiyin işə sərf et***

Bax, onda uğur qazanacağına əmin ola bilərsən. Hərəkət intensivləşdikcə, yeni nəsə öyrəndikcə yaradıcı fəaliyyətə həvəs, maraq daha da artır, güclənir. Bu da öz növbəsində daha uğurlu nəticələr əldə etməyə istək, təhrik yaradır. Özünü sevdiyin işə həsr etmək daim irəliyə baxmağa və hərəkət etməyə çox böyük stimullar yaradır. Belə işlər həm də insan üçün ilham mənbəyinə çevrilir. Çalışdıqca daha böyük uğurlar əldə edilir, onlar sanki özü gəlib qarşıya çıxır. Yetər ki, sevdiyin işə elə sevgi ilə də yanaşasan. Fərq etməz bu iş nədir, təki faydalı iş olsun, özünə, ailənə, ayrı-ayrı insanlara və bütövlükdə cəmiyyətə fayda

gətirə bilən iş olsun. O səni, sən də onu ucaldacağına əmin ola bilərsən.

**b)** ***risq etməkdən qorxma***

Yol ayrıcında çaşıb qalmaq, bəzən sevdiyin sahəyə üz tutmaqda tərəddüd etmək, seçimi konkretləşdirməkdə qəti qərara gələ bilməmək və şansı əldən vermək sizin bəlkə də ən yüksək müvəffəqiyyətinizə səbəb ola biləcək bacarıq və istedadınızın yox olmasına və həmişəlik itirilməsinə səbəb ola bilər. Onu bərpa etmək isə daha çox zəhmət çəkmək, uzun yol qət etmək, gedilmiş yolu geri qayıdaraq yenidən yola çıxmağa bənzər bir hal ola bilər və ya bu heç mümkün olmaya da bilər. Avstriya yazıçısı F.Kafka belə bir əhvalatı təsvir edir: Taybatay açılmış darvazanın qabağında bir adam dayanmışdır, lakin o, içəri girməyə ürək eləmir. Ona elə gəlir ki, səssiz-səmirsiz və tərpənməz dayanmış keşikçilərin qoruduğu qapıdan içəri girmək qadağandır. Bir müddət keçir və nəhayət qapılar örtülür. Bir qədər sonra qapılar aralanır və keşikçi ona deyir: "Bu darvaza yalnız sənin üçün açılmışdı. Biz buradan yalnız səni içəri buraxmalıydıq". Bu onu göstərir ki, tərəddüdlər, qəti addım ata bilməmək çox halda yaranmış şansdan, verilmiş fürsətdən istifadə edə bilməməyə gətitib çıxarır ki, bunun da əvəzini vermək çox çətin olur. Vaxtında və düzgün atılmış addım çox gözəldir.

**c)** ***daim öyrənməyə adət elə***

Öyrənmək həmişə faydalıdır. Kitablardan, müəllimlərdən, valideynlərdən, yoldaşlardan. Bir sözlə yaxşı

olan nə varsa, onların daşıyıcıları kimlərdisə onlardan öyrənmək lazımdır, yorulmadan, vaxtı boş keçirmədən. Onların biliklərindən, bildiklərindən, təcrübəsindən və dediklərindən özünüzə lazım olanları seçib götürməyə çalışmaq lazımdır. Kimlərəsə, müəllimlərə, valideynlərə oxşamağa çalışmaq yaxşıdır. Lakin, ötüb keçməyi də yaddan çıxarmamaq lazımdır. Bu olmasa sadəcə təkrarçılıqdan başqa, kimlərinsə kölgəsində qalmaqdan başqa elə bir qazanc olmayacaqdır. İrəliləmək, bir vaxtlar ideal hesab edilən cazibədən çıxaraq müstəqilliyə nail olmaq, öz yolunu müəyyənləşdirib inamla addımlamaq lazımdır.

Görkəmli Azərbaycan şairi Əvhədi Marağayi yazırdı:

*Ancaq öyrənməklə sən ucalarsan,*
*Biliklə yüksəlir dünyada insan.*

## HƏKİM VƏ MƏKTƏB PSİXOLOQUNUN DA MƏSLƏHƏTİNDƏN FAYDALANIN

***Sağlamlıq təkcə xəstəlik və inkişaf defektlərinin olmaması yox, həm də tam fiziki, mənəvi və sosial rifah durumudur.***

*Ümumdünya Səhiyyə Təşkilatının Konstitusiyasından*

Heç də hamı istənilən peşə və ixtisası seçmək və o sahədə fəal fəaliyyət göstərməyə eyni dərəcədə yararlı ola bilməz. Buna onların nə sağlamlıq durumu nə də psixi xüsusiyyətləri imkan verməz. Çünki elə bir peşə, sənət və ixtisas sahəsi yoxdur ki, seçim etmək istəyən şəxsin psixi və sağlamlıq vəziyyətinin nəzərə alınmasına ehtiyac olmasın. Hər bir əmək sahəsinin bunlarla bağlı tələblərinin nəzərə alınmaması sonradan düzəldilməsi çətin olan bir sıra səhvlərin, xoşagəlməz halların və çətinliklərin meydana gəlməsinə səbəb oluduğundan seçim edərkən bunları hökmən nəzərə almaq lazım gəlir. Bu cəhətdən müəyyən sahələr üzrə ixtisaslaşmış həkimlərdən və məktəb psixoloqundan müəyyən məsləhətlərin alınması olduqca əhəmiyyətlidir. Burada həm fiziki və fizioloji, həm də əqli-psixoloji sağlamlığın nəzərə alınması xüsusi önəm daşıyır.

Yaddan çıxarmayaq ki, elə peşə və ixtisas sahələri vardır ki, burada insanın fiziki sağlamlığı, eləələri də vardır ki, orada psixi sağlamlığı dominant xarakter daşıyır və bunlar mütləq qaydada nəzərə alınmalıdır. Məsələn, hərbçi, təyyarəçi (pilot), yaxud dənizçi, alpnist peşələrinin se-

çilməsi üçün fiziki sağlamlığın nəzərə alınması, onun qarşıdakı çətinliklərə nə dərəcədə hazır ola biləcəyinə diqqət yetirilməsi çox önəmlidir. Əl barmaqlarında hissiyyatın zəif olmasının həkimlik peşəsi, görmə və eşitmə orqanlarında müəyyən qüsurlar olan şəxslərin sürücülük peşəsi, yaxud əsəbi, hövsələsiz, səbrsiz, dözümsüz, nitqində müəyyən qüsuru olan insanların tərbiyəçi, müəllim, yaddaş zəifliyi olan, soyuqqanlı olmağı və diqqəti paylamağı bacarmayan hüquq mühafizə orqanları işçisi kimi peşə və ixtisas sahələrini seçməsi məsləhət deyildir. Hərəkətlərində çeviklik olmayan, süst davranışlı, meolnxolik temperamentli şəxslərin polis işçisi, yaxud müəyyən situasiyalarda tez qərar qəbul etmək tələb edən digər sahələr üzrə olan peşə və ixtisasları seçmələri gələcəkdə hansı xoşagəlməz hallara səbəb olunacağı gənclərə izah edilməlidir. Seçim zamanı bunların fərqinə varılmaması təbii ki, seçilən peşə və ixtisasın təkcə icrasında deyil, həmçinin gələcəkdə şəxsin kariyera imkanlarının da genişlənməsinə öz mənfi təsirini göstərəcəyi onlara dərk etdirilməlidir.

Bütün bunlara görə hər bir gəncin, xüsusən onların valideynlərinin seçim zamanı məktəb psixoloqundan uşaqların təkcə peşə maraqları haqqında deyil, onların bu fəaliyyət sahəsinə psixi çəhətdən nə dərəcədə hazır olmaları haqqında da məlumat və məsləhətlər alması vacibdir. Övladlarının seçmək istədikləri əmək sahəsi ilə sağlamlıq vəziyyətlərinin hansı səviyyədə uyğunluğuna dair həkimlərdən məsləhət alması, onların bu haqda fikirlərinin öyrənilməsi də həmçinin.

## BACARIQLARIN QİYMƏTLƏNDİRİLMƏSİ

***Əsl bilik–bildiyin şeyi bildiyini, bilmədiyin şeyi isə bilmədiyini bilməkdir.***
***Konfutsi***

Əsas məsələlərdən biri özünün bacarıq və qabiliyyətlərinin səviyyəsini müəyyən etmək və onları düzgün qiymətləndirməkdir. Lakin bu heç də asan məsələ deyildir. Bəzən nəinki peşə, ixtisas seçmək ərəfəsində olan yeniyetmə və gənc, hətta onların valideyn və müəllimləri belə uşaqların bacarıq və qbiliyyətlərini müəyyənləşdirməkdə çətinlik çəkirlər. Bəzən də sonradan düzəldilməsi çətin olan səhvlərə yol verirlər. Buna görə də hər kəsin bacarıq və qabiliyyətlərinin düzgün qiymətləndirilməsi peşə seçiminin əsas mərhələlərindən biri kimi dəyərləndirilməlidir. Azərbaycanın və bütün Şərqin böyük əxlaq nəzəriyyəçisi Nəsirəddin Tusi ilə bağlı belə bir ibrətamiz rəvayətə diqqət yetirək:

*İsti bir yay günündə N.Tusi bir neçə atlı ilə Marağaya gedirmiş. Yolda bərk susayırlar.Uzaqdan yaşıl bir vadi görünür. Orada hökmən su olduğunu düşünərək atları ora sürürlər. Çox keçmədən böyük bir qarpız bostanına rast gəlirlər. Onları çox nuranı olan qoca bostançı qarşılayr. N.Tusi bostançıya sərinləmək istədiklərini bildirir və onlara qarpız verməsini xahiş edir. Qoca bostançı onları hörmətlə qarşılayır və atlardan düşüb dincəlmələrini, xahiş edir. Özü isə bostandan bir neçə qarpız seçib*

*gətirir və hörmətli qonaqların ağsaqqalı və böyüyü olan Tusinin qarşısına qoyaraq deyir:*

*– Hörmətli qonaq, bu sarı qarpızdır, bir o qədər də şirin deyildir, ancaq susuzluğu tez yatırır. Bu birisi tünd qırmızı qarpızdır və çox şirindir. Bu isə çəhrayı qarpızdır. Bu birisi də qırmızı qarpızdır...*

*N.Tusi qocaya diqqətlə baxır və qarpızları bir-bir kəsir. Qoca necə demişdirsə qarpızlar elə də çıxır.*

*Tusi qocanı bostana gətirir və bir neçə qarpız göstərərək onların necə qarpız olduqlarını bostançıdan soruşur. Bostançı onların rənginin və dadının necə olduğunu söylədikcə Tusi onları bir-bir kəsir və bostançının dediklərinin hamısının doğru çıxdığını görür. Tusi bundan sonra üzünü bostançıya tutaraq deyir:*

*– Qoca, başın yaxşı başdır, heyf ki, qarpıza işləmişdir...*

*N.Tusi bir müddətdən sonra öz sevimli peşəsindən ayrılmaq istəməyən həmin qocanı böyük bir xahişlə Marağa rəsədxanasına gətirdir. Onun məsləhəti ilə ayrı-ayrı kəndlərdən, şəhərlərdən qabiliyyətli uşaqları seçərək Marağa rəsədxanasına toplayır və onların təlim-tərbiyəsi ilə məşğul olur. Bunların içərisindən sonralar bir çox dünya şöhrətli alimlər çıxır.*

Müasir dövrdə bacarıq və qabiliyyətlərin müəyyənləşdirilməsi üçün xeyli metodlar və vasitələr mövcuddur. Bunların ən etibarlılarından biri sınaqlarda özünü doğrultmuş testlərdən istifadə etməkdir. Təqdim olunan test nümunələrini bu baxımdan səmərəli hesab edirik (Əlavə 2).

Qeyd edək ki, müxtəlif psixoloji ədəbiyyatlarda və peşəyönümü sahəsində aparılan tədqiqatlarda eyni metodika üzrə hazırlanmış, lakin sualların xarakteri və sayı müx-

təlif olan digər "Maraqlar xəritəsi" də vardır. Maraqların istiqamətini bunların hər biri ilə müəyyənləşdirmək mümkün olduğundan bu tipli digər testlərdən də istifadə etmək olar. Bununla da özünüzün peşə maraqlarınız, onların dərinliyi, davamlılığı, marağınızla bacarıq və qabiliyyətlərinizin uyğunluq səviyyəsi, peşə motivlərinizin xarakteri kimi məsələlərə aydınlıq gətirə bilərsiniz. Nəzərdən qaçırmayın ki, çox şey sizdən, sizin səy və bacarığınızdan, çalışqanlığınızdan və seçim eməkdə yanılmamağınızdan asılıdır. Seçiminiz düzgün, yolunuz açıq olsun!

***İstedad erkən görünməyə də bilir***

Dünyada çox məşhurlar olub ki, (indi də var) onların istedad və talantları çox erkən özünü göstərib. V.A.Motsart, A.S.Puşkin, M.Y.Lermontov, S.Vurğun, M. Müşfiq, C.Cabbarlı, Ü.Hacıbəyov və s. Bunlar hələ ilk gənclik illərində özlərinin istedadları ilə cəmiyyətdə tanınıblar.

Görkəmli Azərbaycan sərkərdəsi, Səfəvilər dövlətinin banisi Şah İsmayıl Xətainin oğlu Sam Mirzə "Töhfeyi-Sami" adlı təzkirəsində böyük Azərbaycan şairi Həbibinin uşaq yaşlarında Ağqoyunlu hökmdarı Uzun Həsənin oğlu Sultan Yaquba rast gəlməsini belə təsvir edir: "Sultan Yaqub bir gün ova çıxdığı zaman çöldə quzu otaran bir uşaq görür. Öz mülazimlərindən birini göndərib quzuların kimə məxsus olduğunu öyrənmək istəyir. Mülazimlə həmin uşaq arasında belə bir dialoq olur:

*– Bu quzular kimindir?*

*– Qoyunların.*

*– Kəndinizin böyükləri kimlərdir?*

*– Öküzlər hamıdan böyükdür.*

*– Onu demirəm. Kəndə gələnləri kim qarşılayır?*

*– Köpəklər.*

*Mülazim bərk qəzəblənib deyir:*

*– Ay nə çapaydım səni!*

*– Atını çap ki, yoldaşlarına çatasan".*

Bu uşaq gələcəyin böyük şairi Həbibi idi.

Tarixdən o da məlumdur ki, bir çox elm və sənət adamları da olub ki, uşaqlıqda və gənclikdə onların bacarıq və qabiliyyətləri ya özünü qabarıq şəkildə göstərməyib, ya da bunları görən, duyan, onlara diqqət yetirən şəxslər olmayıb. Ancaq zaman keçdikcə bu istedad və talant "qaynayaraq" üzə çıxmış və sahibini məşhurlaşdırmışdır. Bu da çox vaxt onunla əlaqədar olur ki, bəzi insanların daxili imkanları, potensial gücü tez gözə dəymir, özünü tez, erkən göstərə bilmir. Buna görə də onu oyatmaq, hərəkətə gətirmək lazım gəlir. Şagird, yaxud tələbəlik illərində bir o qədər də nəzərə çarpmayan bəzi şəxslərin sonradan yüksək nailliyyətlər əldə etməsi faktları buna parlaq misaldır. Faktlar göstərir ki, bir çöx şəxslərin müəyyən məqsəd, amal yolunu tutub, ona can atması və böyük uğurlar əldə etməsi məhz bu daxili potensialın üzə çıxması və ya kiminsə, nəyinsə təsiri ilə üzə çıxarılması, hərəkətə gəlməsi müəyyən çətinliklərin, maneələrin aradan qaldırılmasına səbəb olmuşdur.

Məşhur riyatçısı və fizik  Anri Puankare danışmağa 9 yaşından başlamışdır. Uşaqlıqda ağır xəstələnmiş və sonradan sağalmışdır. Məktəbdə çox nadir hallarda əlinə qələm almışdır. Dərsə tək hazırlaşmağı sevib, bədii ədəbiy-

yat və latın dili ilə maraqlanmışdır. O, universitetdə oxuduğu illərdə çətin riyazi məsələləri həll etməyi özü üçün yüngül gimnastika hesab edirdi. Mühazirələri və məsələlərin həllini küçədə, pilləkənlərdə, bulvarda gəzərkən beynində hazırlayırdı. Məsələləri ayaq üstə və qaralamalarda çox tez həll edirdi.

Özünün tədqiqatlarının nəticəsi olaraq məşhur psixoloq Viktor Gertselin fikrincə Albert Eynşteyn 11 yaşında olarkən zehni inkişafdan geri qalırmış, məşhur fransız yazıçısı Emil Zolya isə inşa yazıdan həmişə pis qiymət alırmış.

Bütün bunlar onu göstərir ki, istedadın üzə çıxması üçün müəyyən şərait, vaxt, müəyyən təsir və əlverişli mühitin olması vacib amillərdəndir. Ona görə də hər bir uşaq, yeniyetmə və gənci bacarıqsızlıqda, qabiliyyətsizlikdə qınamaq yolverilməzdir. Uşaqların çox vaxt adi müşahidəçinin görə bilmədiyi daxili imkanlarını görmək və inkişafa təkan, dəstək vermək heç də nəticəsiz qala bilməz. Bunu etmək lazımdır.

## VALİDEYNLƏR ÜÇÜN MƏSLƏHƏTLƏR

### *Uşaqları dərindən öyrənin*

Bəzi istedad və qabiliyyətlər hələ uşaqlıqdan özünü qabarıq şəkildə göstərə

bilir, hiss olunur ki, onda hansısa sahəyə, peşə və ixtisasa böyük istək və bacarıq var. Onda işlər əsasən bir qədər asan gedir. Uşağı həmin sahəyə yönəltmək, onun bacarıq və qabiliyyətlərini inkişaf etdirmək üçün müəyyən

şərait yaratmaq, inkişafı dəstəkləmək lazım gəlir ki, adətən bu işlər yaxşı, gözlənilən sonluqla nəticələnə bilir. İstəklə bacarıq bir-birini tamamlaya bilir. Lakin əksər hallarda uşaqların maraq və arzularının, bacarıq və qabiliyyətlərinin hansı sahəyə daha çox olduğunu görmək, duymaq çətin olur. Belə şəraitdə müəllimlər, tərbiyəçilər, valideynlər uşaqlarla planlı, məqsədyönlü və elmi şəkildə əsaslandırılmış metodika ilə daha çox işləməli və onların real səviyyəsini və potensial imkanlarını üzə çıxarmağa çalışmalıdırlar.

Uşaqları öyrənmək istər valideynlər olsun, istərsə də müəllimlər, tərbiyəçilər, çox vacibdir. Bu zaman onların maraq və motivlərini, bacarıq və qabiliyyətlərinin səviyyəsini, zəif və qüvvətli cəhətlərini aydın görmək olur ki, bu da onlarla təhsil və tərbiyə işlərinin, həmçinin peşəyönümü işlərinin aparılmasını xeyli asanlaşdıra bilir. Nə və necə hərəkət etmək lazım olduğunu asan dərk etməyə səbəb olur. Görkəmli rus pedaqoqu K.D.Uşinski bu məqsədlə yazırdı: *"...biz pedaqoqlara, insanın fiziki və ruhi təbiətini mümkün qədər diqqətlə öyrənməyi, tərbiyə etdikləri uşaqları və onları əhatə edən şəraiti öyrənməyi, özləri üçün tərbiyənin məqsədini aydın təsəvvür etməyi və əldə etdiyi biliklərdən bu məqsədə nail olmaq üçün getməyi məsləhət görürük."*[17]

Lakin yaddan çıxarmayaq ki, uşaqları öyrənmək işin yalnız başlanğıcıdır, əsas məsələ öyrənmə materiallarından düzgün nəticə çıxarnaq və istifadə etməklə onların

[17] Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərnəşr, 1953, səh. 105.

potensial imkanlarını inkişaf etdirməkdir. Öyrənmək ona görə lazımdır ki, alınan məlumat və materiallardan istifadə edilərək tərbiyəvi işlər aparılsın. A.S.Makarenko bunu nəzərdə tutaraq yazırdı: *"Tərbiyəçi tərbiyə etdiyi uşağa öyrənilməsi lazım gələn obyekt kimi deyil, tərbiyə edilməsi lazım gələn obyekt kimi baxmalıdır"* [18].

**Uşağı düzgün qiymətləndirin**

Hələ lap kiçik yaşlardan uşaqların fəaliyyətinə, nə ilə maraqlanmasına, daha çox nə ilə məşğul olmalarına diqqət yetirirlməlidir. Bəzən yox, çox vaxt fikir vermədiyimiz, fərqinə varmadığımız, "hələ uşaqdır", "hələ tezdir" - fikrilə diqqət yetirmədiyimiz bu amillərin uşaqların gələcək həyat yollarının başlanğıcı ola biləcəyini unuduruq. Bəlkə də bunlar onların daxilində olan potensialın bir sadə təzahürü, ilkin göstəricisidir ki, biz bunlara diqqət yetirmirik. Unutmamalıyıq ki, bunlar uşaqların daxilindən gələn meyllər, qüvvələrdir ki, özünü ilk başlanğıcda bu təzahürlərdə göstərir. Buna görə də uşaqlara diiqqətlə yanaşmaq, onların bu fəaliyyətinə bir psixoloq kimi yanaşmaq, onu təhlil etmək olduqca vaqcib amillərdən biri olduğu unudulmamalıdır.

***Seçimi özünüzün yox, övladınızın etməsinə kömək edin***

Bir sıra hallarda valideynlərin seçimi heç də övladlarının maraq və meyllərini ifadə etmir. Əvəzində maddiyya-

---

[18] Ушинский К.Д. Соб. соч. М.Л., Изд-во АПН, 1952, т.11, s.27.

ta söykənən seçimlərə daha çox üstünlük verilir. Övladlarına gələcəkdə daha çox gəlir əldə edə biləcək bir peşəyə və ya ixtisasa yiyələnməsinə daha çox təsir göstərirlər. Bu isə bir tərəfdən seçilən peşənin maraq və bacarığa uyğun olmamasına, digər tərəfdən də gələcəkdə görüləcək işlərin yalnız maddiyyat xatirinə, inkişaf etmək, kariyera qazanmaq, yaradıcılıq göstərmək, öz peşəkarlığını, ustalığını dərinləşdirmək üçün çalışmaqdan və öz işinin əsl ustası olmaq imkanlarından məhrum olmağa gətirib çıxarır. Belə şəxslər boş vaxtlarını bir çox hallarda başqa bir işə, daha çox zövq ala biləcəyi bir sahəyə sərf edir. Hobbi deyilən bir sahə ilə öz maraqlarını təmin etməyə məcbur olur. Bunların yaranmaması üçün peşə və ixtisas seçimində ürəyin səsinə qulaq asmaq, düzgün qərar qəbul etmək daha çox faydalı olur, nəinki başqalarının təkidi və məsləhəti ilə seçim etmək.

### *Məsləhət verin, məcbur etməyin*

Siz bilirsinizmi gənclikdə özünüzə arzuladığınız, lakin edə bilmədiyiniz, yaxud seçmək istəyib seçə bilmədiyiniz peşə və ixtisasda övladınızı görmək kimi xoş niyyətiniz və arzunuzla çox vaxt onların öz istəklərinin qarşısını almış olursunuz. Ona xeyirxahlıq arzularınız övladınızın tamamilə yanlış bir istiqamətdə getməsinə gətirib çıxarır ki, bu da çox halda yüksək nailiyyətlər əldə etməyə səbəb ola bilmir. Buna görə də övladınıza gələcək həyat yolunu seçməkdə xeyirxahlıq etmək istəyirsinizsə ona məsləhətlər verin, məcbur etməyin, çalıçın seçimində sərbəst düşüncə ilə hərəkət etsin. Yanlış yolda olarsa əlbəttə sizin məsləhə-

tiniz, düzgün yol göstərməyiniz vacibdir, bu inkaredilməzdir. Lakin seçimə hörmətlə yanaşmaq və gənclərin arzu və maraqlarını nəzərə almaq yaddan çıxmamamlıdır.

***Uşaqları olduğu kimi qəbul edin***

Biz bunu edə bilirikmi? Təəssüf ki, yox. Uşaqları olduğu kimi yox, təsəvvür etdiyimiz kimi, görmək istədiyimiz kimi qəbul etməyə çalışırıq. Apardığımız tərbiyəvi işlər də buna köklənir. Lakin unuduruq ki, bu uşaqların özlərinəməxsus, doğularkən özləri ilə gətirdikləri və həyatda özlərinin qazandıqları bir çox xüsusiyyətlər, əlamətlər vardır ki, bunlar onun tərbiyəsinə, inkişaf və formalaşmasına bizlərdən heç də az təsir etmir. Buna görə də görkəmli psixoloqların "uşaqları olduğu kimi qəbul edin" tövsiyələrini eşitməməzliyə, yaxud görməməzliyə vurmaq olmaz. Çalışıb onları düzgün dərk etmək və tərbiyəvi prosesi də onlara uyğun şəkildə qurmaq daha faydalı olar, nəinki standart metodlardan istifadə etmək. Əlbəttə bunlar şəxsiyyətə edilən təsiri (tərbiyəni) heç də inkar etmək deyildir. Tərbiyə vermədən fərdi şəxsiyyətə çevirmək mümkünsüzdür. Tərbiyə vacibdir və ona uşaq hələ ana bətnində olarkən başlamaq lazımdır. Görkəmli Ukrayna pedaqoqu V.A.Suxomlinski bu münasibətlə yazırdı: *"Yeniyetmələrin əxlaqi siması insanın uşaqlıq illərində necə tərbiyə olunmasından, anadan olandan 10-11 yaşına kimi onun qəlbinə nə qoyulmasından asılıdır. ...yeniyetmə obrazlı deyilsə, bir çiçəkdir, onun gözəliyi bitkiyə qulluq edilməsindən asılıdır. Çiçəyin gözəlliyi üçün o, açılmağa başlamazdan əvvəl qayğı göstərmək lazımdır."* Bəli, qayğı göstərilməlidir, özü də hərtərəfli qayğı.

Lakin unutmayaq ki, çiçəklər də insanlar kimi cürbəcürdür. Onların hər birinə bu fərdiliyə məxsusluğunu nəzərə almaqla qulluq etmək lazımdır. Çox təəssüflər ki, bu qulluğun ya həddən artıq çox olması, yaxud nisbətən az olması, ya fərdiliyin nəzərə alınmaması, bütün uşaqlara standart tərbiyə metodları ilə, yaxud yanlış yollarla yanaşılması sayəsində təkcə peşə, sənət, ixtisas seçimi sahəsində deyil, həyatın digər sahələrində də gözlənilənn nəticələri əldə etmək olmur. Buna görə də tərbiyənin hər şeyə deyil, çox şeyə qadir olması tövsiyəsi unudulmamalıdır.

## MÜƏLLİMLƏR ÜÇÜN MƏSLƏHƏTLƏR

***Şagirdlərə dəstək olun, kömək edin***

Şagirdlərə dəstək olmaq hər sahədə vacibdir. Oxumaqda da, müəyyən bir sahədə köməyə ehtiyac olduqda da, həyat yolunu müəyyənləşdirməkdə də. Bu, xüsusən qasbiliyyətli, istedadlı uşaqlar üçün daha çox vacibdir. Belə bir deyim vardır: "İstedadlılara kömək edin, istedadsızlar özlərinə yol tapacaqlar." Təəssüflər ki, bir çox istedadlı, qabiliyyətli uşaqlar onlara lazım olan qayğı, kömək və dəstək görmədiklərindən lazımi səviyyəyə gedib çata bilmirlər. Yollarına çıxan müəyyən maneələr, çətinliklər həyatın hansısa mərhələsində onların irəliləməsinə, öz qabiliyyət və bacarıqlarını reallaşdıra bilməmələrinə səbəb olduğundan elə oralarda da "itib-batırlar". Burada müəllimlərin dəstək və köməyi müəyyən maneələri dəf etməkdə böyük dayaq və stimul mənbəyi olur.

Görkəmli tərbiyə nəzəriyyəçisi, pedaqoq A.S.Makarenko bu münasibətlə yazırdı: *"Gənclərin həyat yolu seçməsi o qədər də asan deyildir. Onların bəzən öz qüvvələrinə inanmaması, bəzən isə əksinə olaraq, daha güclü yoldaşlarını təhlükə doğura biləcəkbir şəkildə təqlid etməsi, burada çox vaxt böyük maneə təşkil edir. Tərbiyə edilən uşaqlar bu mürəkkəb məsələdən adətən çətinliklə baş çıxarırlar: bunun bir səbəbi də odur ki, biz məzunlarımıza əsaslı kömək etməyi hələ öyrətməmişik. Tərbiyə edilən uşağın özünə yol seçib tapmasında ona kömək etmək çox məsul bir işdir, yalnız ona görə yox ki, bu iş uşağın gələcək həyatı üçün əhəmiyyətlidir, həmçinin bir də ona görə ki, bu iş tərbiyə ocağında uşağın fəaliyyət və həyat tərzinə çox təsir edir."* [19]

### *Şagirdləri müşahidə edin, nəticələri qeydə alın*

Şagirdləriniz haqqında ən dəqiq informasiyanı sizin verə biləcəyinizi yəqin ki, bilirsiniz. Şagirdlərinizin qüvvətli və zəif cəhətlərini sizdən yaxşı heç kim bilə bilməz. Eyni zamanda onların maraq və mellərini də daha yaxşı qiymətləndirə bilərsiniz. Onların peşə, sənət, ixtisas maraqlarını da müəyyənləşdirməkdə sizin biliyiniz, təcrübəniz daha çoxdur. Siz onların peşə motivlərini, maraq və meyllərini istiqamətləndirməklə onlara öz güclərinə, bilik və bacarıqlarına uyğun həyat yolu seçməkdə istiqamət verməkdə daha səriştəli, daha biliklisiniz. Buna görə də sizin məsləhətləriniz, tövsiyələriniz şagirdlər üçün vacibdir.

---

[19] Makarenko A.S. Seçilmiş pedaqoji əsərləri, II cild, Bakı: Maarif, 1988, səh. 93-94.

Sizin müşahidələriniz və bundan gəldiyiniz nəticələr onların daha çox hansı sahəyə uyğun olmalarını müəyyənləşdirməkdə ən etibarlı mənbələrdən biridir. Şagirdlərinizi bundan məhrum etməyin. Qabiliyyətliləri, istedadlıları seçin, onların inkişafına kömək edin. Bu, həm də sizin peşə borcunuz, vətəndaşlıq vəzifənizdir. Uşaqların səhvlərini onlara başa salın. Düzgün seçimin onlar üçün əhəmiyyətini, həyatlarında necə böyük rol oynayacağını onlara bildirin. Əsl müəllim kimi onların məsləhətçisi, yol göstərəni olun. Çalışın məsləhətlərinizlə onların həyat yolunu işıqlandıra biləsiniz, bu yolda büdrəmələrinin qarşısını alasınız. Bunda həm də ustad müəllim, həyat müəllimi kimi yaxşı xatırlanacaqsınız.

***Müsbət cəhətlərə istinad edin***

Hər bir uşaq fərddir və özünəməxsus fərdi xüsusiyyətlərə malikdir. Bunların bir qismini o sizdən asılı olmayaraq, valideynlərindən və ulularından miras kimi özü ilə dünyaya gələndə gətirib. Bir qismini isə sizdən, onlara öyrətdiklərinizdən, ətrafdakı insanlardan, bir qismini isə yaşadığı kiçik mühitdən, ailə, uşaq bağçası, oynadığı həyət, getdiyi məktəb, oxuduğu kitab, baxdığı filmlər və s.- dən alıb. Bunlar onun xarakterinin formalaşmasında olduqca böyük rol oynayıb. Buna görə də bu xarakterə biganə qalmaq, onu istədiyiniz kimi "qəlibə salmaq" çox çətin olur və çox hallarda mümkün olmur. Bunlar - "Uşağı olduğu kimi qəbul edin!" nəticəsinə uyğun hərəkət etməyi zəruri edir. Belə olanda onun müsbət cəhətlərini görmək daha asan olur və bu cəhətlərə istinad etməklə çox böyük mü-

vəffəqiyyətlər qazanılacağına əmin olun. Uşaq özü də hiss etdikdə müəllim ona etibar edir, ona güvənir bu zaman o, özündə daxili bir güc hiss edir, onda yaxşıya doğru hərəkət etmək motivləri olduğu görünür. Tərbiyənin klassik prinsiplərindən biri olan bu yanaşmanın faydalı olduğunu unutmayın. Şagirdin xarakterindəki müəyyən qüsurların aradan qaldırılmasında bu metodun faydası olduqca çoxdur. Onda görəcəksiniz ki, mənfi dediyimiz keyfiyyətlər yavaş-yavaş əriyir, bəzən də tamamilə yox olur.

***Şagirdlərinizi motivasiya etməyə çalışın***

Müəllimin öz şagirdlərinə onlara inandığını, onların gələcəyinə böyük ümid bəslədini bildirməsi, şagirdlərinin potensial gücünü (bunlar yüksək olmasa belə) yüksək qiymətləndirməsi onların qəlbində elə qığılcımlar oyada bilir ki, bu zaman  söz qüdrətli tərbiyə vasitəsi kimi öz nəticəsni göstərir. Buna görə də peşə, ixtisas seçimi ərəfəsində şagirdlərin seçimi ilə maraqlanmaq, onları düzgün qiymətləndirmək və ağıllı məsləhətlər vermək olduqca vacibdir. Şagirdlərin maraq və istəklərinin davamlı və dərin olduğunu, arzu ilə bacarıq və qabiliyyətlərin bir-birinə uyğun gəldiyini yəqinləşdirdikdən sonra  onlara nə etmək, nəyi oxumaq, nələrə daha çox fikir vermək və s. haqqında məsləhətlər vermək, onlarda seçimlərində düzgün olduğuna inam yaratmaq və dəstək vermək onların gücünü və istəyini daha da artırır və daha inamlı olmağa səbəb olur.

Şagirdlərinizin motivlərini öyrənməyə çalışın, onların özünəməxsus cizgilərini, hansı arzu və məqsədli yaşantılarını öyrənin. Bu, onlarla aparacağınız işləri asanlaş-

dıracaqdır. Bunu da nəzərə alın ki, şagirdlərin (uşaqların) özləri əksər hallarda özlərinin hansı bacarıqlara malik olduqlarından, potensial qabiliyyətlərindən xəbərsiz olurlar, onları dərindən bilmirlər. Bunu ən yaxşı Siz bilirsiniz və buna görə də onların malik olduqları bu bacarıq və qabiliyyətləri onlara və onların valideynlərinə də bildirməyı özünüzə borc bilin.

Şagirdlərin sizin köməyinizə, məsləhətinizə və dəstəyinizə ehtiyacları olduğunu və bu ehtiyacı cavablandırmağınıza xeyli ehtiyacları olduğunu unutmayın. Onu da unutmayın ki, yaxşı müəllimlərə həmişə ehtiyac olub və olacaqdır. Makedoniyalı İsgəndərin həyatında Aristotelin, Mövlanə Cəlaləddin Ruminin həyatında Şəms Təbrizinin, Şah İsmayıl Xətainin həyatında Hüseyn Lələnin, Əmir Teymurun həyatında Məhəmməd Sultanın mühüm rolu olduğu kimi, hər bir görkəmli şəxsin həyatında hansısa bir müəllimin böyük rolu olduğunu unutmayaq. Müasir həyatımızda da belə nümunələr az deyildir.

### *Gələcəyin dahilərini məktəblərdə axtarın*

Bu gün adlarını qürurla çəkdiyimiz və fəxr etdiyimiz Bəhmənyar, Yusif Məmmədəliyev, Heydər Hüseynov, Zahid Xəlilov, Ziya Bünyadov, Azad Mirzəcanzadə və adlarını çəkmədiyimiz, lakin özlərinin şöhrəti ilə Azərbaycan elminin inkişafında böyük xidmətləri olan onlarla görkəmli alimlərimiz məhz Azərbaycan məktəblərində təhsil almış və formalaşmışlar. Bəs gələcəyin belə şəxsiyyətlərini biz harada axtarmalı, harada yetişdirməliyik. Əlbəttə orta məktəblərdə! Akademik Nesmeyanov deyirdi

ki, gələcəyin Mendeleyevlərini məktəblərdə axtarın, məktəb partası arxasından tapın. Tamamilə doğru fikirdir. Biz gələcəyin yuxarıda adlarını çəkdiyimiz bu şəxslərin davamçılarını bu gün məktəblərdə axtarmalı, parta arxasından seçməli və onların inkişafına xüsusi qayğı ilə yanaşmalıyıq. Bunu ilk növbədə Siz, məhz Siz müəllimlər etməlisiniz. Axı hamıdan çox Siz onları tanıyırsınız. Belə istedadları görmək, seçmək onlara qayği göstərmək və dəstək olmaq hamının, hər bir vətəndaşın, ilk növbədə müəllimlərin borcudur. Görkəmli alim, filosof, şair və loğman İbn Sinanın sonralar böyük filosof olacaq XI əsrdə yaşamış Azərbaycanın dahi filosofu Bəhmənyar Əbülhəsən ibn Mərzbanı necə kəşf etdiyini xatırlamaq yəqin ki, yerinə düşər:

*Bir gün İbn Sina dəmirçixananın qabağından keçirmiş. Çardağın altında dəmirçinin şagirdi odluğu körüklədikcə usta soyuyub qaralmış dəmiri kürəyə qoyur, onu çəkiclə döycələyirdi. Elə bu zaman bir uşaq yüyürə-yüyürə gəlib özünü çardağın altına salır, tövşüyə-tövşüyə dəmirçiyə deyir:*

*– Usta, anam deyir ki, ocağımız sönüb, köz versin.*

*Usta döşlüyü ilə üzünün tərini silib uşağın əlinə baxdı:*

*– Get, bir qab gətir. Ovcunda aparacaqsan?*

*Uşaq ayaqlarını yerə döydü:*

*– Aparacağam, sən od verməkdə ol.*

*Usta uşağın üzünə baxıb başını buladı:*

*– Sənin əlin dəmirdir?*

*– Yox, sən közünü ver, neyləyirsən necə aparacağam?*

*Usta baxdı ki, bu tərs uşağı sözlə başa sala bilmir, maşa ilə kürədən qıpqırmızı bir köz götürdü, yönünü bəri çevirəndə*

*gördü uşaq yerdən ovcuna torpaq yığıb da ona sarı uzadıb. Usta mat qaldı.*

*İbn Sinanı da heyrət götürdü, uşağın ağlına heyran qaldı. Adını soruşdu. Uşaq:*

*– Bəhmənyardır, - dedi.*

*İbn Sina həmin gündən Bəhmənyarın valideynləri ilə danışıb təlim-tərbiyəsini öz üzərinə götürdü və onu bir alim kimi yetişdirməyə başladı.*

Hər bir dahi şəxsiyyətin həyatında belə müəllimlərin böyük rolu olduğunu unutmayaq.

Görkəmli şairimiz Səməd Vurğun yazırdı:

*Böyük təbiətlər yaranar az-az,*
*Hər yerdə, hər zaman inçi tapılmaz.*

Bəzən də özlərinin qeyri adiliyi ilə, "standartlara" uyğun gəlməməkləri ilə fərqlənən bu inciləri tapmaq, onları inkişaf etdirmək xalqımızın, millətimizin, elmimizin inkişafı üçün çox vacibdir. Millət ilk növbədə özünün elmi, mədəniyyəti ilə tanınar.

## SÖZ ARDI...

Belə. Gəlib çatdıq sona. Amma buna "son" da demək olmaz. Çünki, həyat davam etdiyi kimi, arzular, imkanlar, perspektivlər də davamlı və sonsuzdur. Ancaq bir həqiqət vardır ki, Siz bu kitabı oxuyub, başa çatdırdınız. Yəqin ki, Sizi maraqlandıran, razı qaldığınız məqamlar da çox olub, razılaşmadğınız da. Əlbəttə, bunlar da təbiidir və qəbuledilləndir. Bəlkə də hamısını deyə bilməmişik. Lakin, peşə, sənət və ixtisas seçimi qarşısında olanlar, onların valideynləri, müəllimlər və digər şəxslər buradan nəyisə götürə bildilərsə, kimlərinsə seçimində, məsləhətində azca da olsa yəqinlik yarada bildiksə, onların seçiminə kömək edə bildiksə buna yalnız sevinmək olar.

Ulularımız həmişə peşəyə, sənətə, onlara yiyələnməyə böyük önəm vermiş, sənəti, peşəsi olmayan adamları qınamış və sənəti, peşəni müqəddəs saymışlar. İnsanlara öz peşə və sənətlərində mükəmməl olmağı tövsiyə etmiş və hər hansı bir peşə, sənət sahibi olmağı məsləhət bilmişlər. Bunlar bu gün də belədir.

Peşə, sənət, ixtisas seçimi həyatın mühüm seçimlərindəndir. Burada təsadüfiliyə, səthi yanaşmaya yol vermək, özünün arzu, ideal və imkanlarına deyil, "axına"düşüb getməklə uğur qazanmaq olmaz. Uğurun başlıca amillərindən biri özünün potensial imkanlarını, bacarıq və qabiliyyətlərini düzgün qiymətləndirə bilmək və arzunu reallaşdırmaqda israrlı olmaq, daim irəliyə doğru hərəkət et-

mək, özünəgüvəni artırmaq və "Mən buna nail olacağam" – deyib, çalışmaqdır.

Bir daha ətrafa diqqətlə nəzər salmaq, prosesə daha geniş prizmadan yanaşmaq, əlinizdə olan gənclik fürsətindən səmərəli istifadə etmək, oxumaq və öyrənmək üçün vaxtın çox olması, inkişaf etmək üçün yolların çoxluğu və digər imkanlardan səmərəli şəkildə yararlanmaq əlverişli seçim üçün  çox vacibdir.

Peşə, sənət və ixtisas sahibi olmaq həyatın tələbidir. Bu həm də insanın vətəndaşlıq borcu və vəzifəsidir. Hər bir adam hansısa bir peşə, sənət sahibi olmaqla həm özünün, öz ailəsinin maddi və mənəvi tələbatını ödəmiş olur, həm də cəmiyyətimizin fəal üzvü, "vətən daşı" kimi onun həyatında və inkişafında fəal surətdə iştirak etmiş olur. Peşə, sənət həm də mədəniyyətdir, insanı dəyərləndirə bilən, onun fəaliyyətini dəyər edən amildir. Eyni zamanda insanın bacarıq və qabiliyyətini üzə çıxara bilən, onun inkişafına səbəb olan fəaliyyətdir sahəsidir.

Yəqin ki, bu kitabı oxuduqca həm özünüzə, həm seçmək istədiyiniz həyat yoluna yenidən nəzər yetirmiş, seçdiyiniz yolun sizi haraya aparacağına bir daha açıq gözlə baxa bilmişsiniz. Hansı sahənin sizə uyğunluğunu, harada daha çox uğur əldə edəcəyinizi və daha inamlı addımlar ata biləcəyinizi dəqiqləşdirmisiniz. Çalışın hər şey könlünüzcə olsun.

Böyük Şəhriyarın bu beytini də yaddan çıxarmayın:

*Könül verdiyin iş ucaldar səni,*
*Könül vermədiyin qocaldar səni.*

## MƏSLƏHƏT GÖRÜLƏN ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 1997.

2. Ağayev Ə. Həyatın astanasında. Bakı: Maarif, 1983.

3. Axundov S. Mənəvi tərbiyə və peşə oriyentasiyası. Bakı: Gənclik, 1980.

4. Bayramov Ə. Gənclik və ozünütərbiyə haqqında söhbətlər. Bakı: Gənclik, 1969.

5.Əbdürrəhman Dönər. Yeniyetməlik dövrünün yol xəritəsi. Bakı: Xəzər nəşriyyatı, 2009.

6. Qaralov Z., Hüseynov Ə. Bütün peşələr yaxşıdır, istədiyini seçə bilərsən. Bakı: Maarif, 1979.

7. İlyasov M. Peşəyönümünün əsasları. Dərs vəsaiti. Bakı: Mütərcim, 2011.

8.İlyasov M. Şagirdlərin peşə seçməyə hazırlanması, Bakı: "Elm" nəşriyyatı, 2009.

9. İlyasov M. Peşə, ixtisas seçimi. Bakı: ADPU, 2015.

10. Quliyeva K. R. Yuxarı sinif şagirdlərinin müəllimlik peşəsinə istiqamətləndirilməsi. Bakı: Nurlan, 2003.

11. Təhsil Haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2009.

12. Uşaq Hüquqları Konvensiyası. Bakı: Təhsil, 1998.

13. Robert Qrin. Ustalıq (İngilis dilindən tərcümə). Bakı: Qanun nəşriyyatı, 2022.

14. Баррет Д., Вилямс Д. Проверь свои способности. Перевод с английского языка. Ростов н/Д: Феникс, 2006.

15. Климов Е.А. Путь к профессию. Л.: Лениздат, 1974.

16. Тутубалина Н.В. Твоя будущая профессия: сборник тестов по профессиональной ориентации. Ростов н /Д «Феникс», 2006.

17. Психологические тесты. Москва: «Лист»,1996.

18. Селевко Г.К.,Соловьева О.Ю. Найди свой путь: учебное пособие для предпрофильного обучения. - 2-е изд., М: ООО «ИМЦ Арсенал образования», 2008.

## ƏLAVƏLƏR

***Əlavə 1.***

Sizə şəxsiyyətin sosial tipinin təyini üçün aşağıdakı 70 sualdan ibarət test (Keyrisi testi)[20] təqdim edilir. Burada iki cavab verilmişdir. Cavablar blankında Siz razılaşdığınız variantı qeyd edin. Əgər tərəddüd edirsinizsə, seçim etməyə çalışın. Lakin cavablar üzərində çox düşünməyin.

**1) Kompaniyada Siz:**

a) naməlum insanlar da daxil olmaqla hamı ilə ünsiyyətə girirsiniz;

b) ancaq tanışlarla ünsiyyət qurursunuz.

**2) Siz daha çox:**

a) nəzəriyyəçi yox, realistsiniz;

b) realist yox, nəzəriyyəçisiniz.

**3) Sizcə, nə daha pisdir:**

a) «göylərdə» gəzmək;

b) sınaqdan çıxaracağınız yollara və üsullara arxalanmaq.

**4) Siz daha çox:**

a) qanunların, prinsiplərin;

b) emosiyaların, hisslərin təsirinə həssassınız.

**5) Siz daha çox meyllisiniz:**

a) inandırmağa;

b) hisslərə toxunmağa.

---

[20] Юнг К.Г. Психологические типы /Пер. с нем. Софии Лорис: перераб. и доп. В.Зеленским. М.: «Университетская книга АСТ, 1998, s. 406 – 495.

**6) Siz üstünlük verirsiniz:**
a) hər şeyi vaxtında yerinə yetirməyə;
b) müəyyən müddətlə özünüzü məhdudlaşdırmamağa.
**7) Siz seçim etməyə meyllisiniz:**
a) çox ehtiyatla;
b) impulsiv, qəfildən.
**8) Kompaniyada Siz:**
a) yorğunluq bilməyib gecəyədək çalışırsınız;
b) tez yorulub gedirsiniz.
**9) Sizi daha çox cəlb edir:**
a) sağlam düşünənlər;
b) zəngin fantaziyası olanlar.
**10) Sizə maraqlıdır:**
a) gerçəklikdə baş verənlər;
b) baş verə biləcək hadisələr.
**11) Insanların hərəkətlərinə qiymət verərkən Siz nəzərə alırsınız:**
a) qanunun tələblərini;
b) qanunun tələblərindən çox situasiyanı.
**12) Başqalarına müraciət edərkən Siz meyllisiniz:**
a) etiketə əməl etməyə;
b) öz şəxsi, fərdi keyfiyyətlərini büruzə verməyə.
**13) Siz:**
a) hər işi vaxtında yerinə yetirən, dəqiqsiniz;
b) ləngsiniz.
**14) Sizi narahat edir:**
a) işi sona çatdırmamaq zərurəti;
b) işi mütləq sona çatdırmaq zərurəti.
**15) Tanışlar arasında Siz, adətən:**

a) burada baş verənlər haqqında hər şeyi bilirsiniz;
b) yeniliklərdən çox gec xəbər tutursunuz.
**16) Gündəlik işləri:**
a) hamılıqla qəbul edilmiş üsulla yerinə yetirməyi;
b) öz orijinal üsulunuzla yerinə yetirməyi xoşlayırsınız.
**17) Sizin necə dostlardan xoşunuz gəlir:**
a) öz fikirlərini birbaşa söyləyən;
b)fikrini dolayı yolla, çoxmənalı çatdıran.
**18) Sizi daha çox cəlb edir:**
a) düşüncə tərzi;
b) insan münasibətlərinin harmoniyası.
**19) Siz özünüzü daha inamlı hiss edirsiniz:**
a) məntiqi əqli nəticələrdə;
b) situasiyaların praktiki qiymətləndirməsində.
**20) Siz o hallara üstünlük verirsiniz ki:**
a) iş yerinə yetirilib, hər şey qaydasındadır;
b) heç nə həll olunmayıb.
**21) Sizcə, Siz:**
a) ciddisiniz;
b) qayğısız insansınız.
**22) Telefon danışıqlarında:**
a) demək lazım olduğunu əvvəlcə düşünmürsünüz;
b) demək lazım olduğu fikirdə «məşq» edirsiniz.
**23) Sizcə, faktlar:**
a) öz-özlüyündə vacibdir;
b) ümumi qanunauyğunluqlardan təzahür edir.
**24) Xəyalpərəstlər:**
a) Sizi əsəbiləşdirir;
b) Sizin xoşunuza gəlir.

**25) Siz:**
a) soyuqqanlı;
b) tez özündən çıxan insansınız.
**26) Sizcə, hansı daha pisdir:**
a) ədalətsiz olmaq;
b) qəddar olmaq.
**27) Adətən Siz hərəkət edirsiniz:**
a) bütün imkanlarınızı qiymətləndirib;
b) təsadüfə arxalanıb.
**28) Sizin üçün xoşdur:**
a) nəyi isə almaq;
b) nəyi isə almaq imkanının olması.
**29) Kompaniyada Siz:**
a) söhbətə birinci başlayırsınız;
b) gözləyirsiniz ki, başqası başlasın.
**30) Adi düşüncə tərzi:**
a) nadir hallarda səhv edir;
b) tez-tez səhvlərə yol verir.
**31) Uşaqlar çox vaxt:**
a) praktik olmurlar;
b) onların fantaziyası, təxəyyülü az olur.
**32) Qərarları qəbul edərkən Siz rəhbər tutursunuz:**
a) qəbul edilmiş normaları;
b) hisslərinizi.
**33) Siz:**
a) sərt;
b) yumşaq insansınız.
**34) Sizcə, ən çox təəssürat bağışlayır;**
a) təşkilatçılıq bacarığı;

b) nailiyyətlərlə kifayətlənmək bacarığı.

**35) Siz daha çox qiymətləndirirsiniz:**

a) konkretliyi;

b) çoxvariantlığı.

**36) Insanlarla yeni və qeyri-standart münasibətlər:**

a) Sizi həvəsləndirir;

b) Sizi yorur.

**37) Siz çox vaxt:**

a) praktiki düşüncəli;

b) orijinal, qeyri-adi insan kimi hərəkət edirsiniz.

**38) Siz daha çox meyllisiniz:**

a) insanlarla münasibətdən faydalanmağa;

b) başqalarının hisslərini və düşüncələrini anlamağa.

**39) Sizə daha çox zövq verir:**

a) mübahisəli məsələnin hərtərəfli müzakirəsi;

b) mübahisəli məsələ ilə bağlı razılığın əldə edilməsi.

**40) Siz daha çox:**

a) ağılı;

b) ürəyinizi rəhbər tutursımuz.

**41) Siz daha asanhqla yerinə yetirirsiniz:**

a) əvvəlcə razılaşdırılmış işi;

b) təsadüfən tapılmış işi.

**42) Siz arxalanırsız:**

a) qayda-qanuna;

b) təsadüfə, gözlənilməzliyə.

**43) Siz üstünlük verirsiniz:**

a) az müddətdə çoxlu dostlarınızın olmasma;

b) bir neçə köhnə dostlara.

**44) Siz daha çox rəhbər tutursunuz:**

a) faktları;

b) prinsipləri, ümumi müddəaları.

**45) Sizi daha çox maraqlandırır:**

a) məhsulun istehsalı və satışı;

b) layihələşdirmə və tədqiqatlar.

**46) Siz kompliment kimi qəbul edirsiniz**:

a) «Siz çox məntiqli insansınız»;

b) «Siz incə, həssas insansınız».

**47) Siz daha çox qiymət verirsiniz:**

a) heç bir halda öz durumunu dəyişməməyə;

b) bir şeylə həvəslə məşğul olmağa.

**48) Siz söyləməyə üstünlük verirsiniz:**

a) bitmiş, dəqiq fikirləri;

b) qeyri-dəqiq, ilkin fikirləri.

**49) Siz özünüzü daha yaxşı hiss edirsiniz:**

a) qərarı qəbul etdikdən sonra;

a) qərarı qəbul edənə kimi.

**50) Tanış olmayan adamla ünsiyyətdə Siz:**

a) uzun söhbətlərə asanlıqla başlayırsınız;

b) söhbətdə ümumi mövzuları heç də həmişə tapmırsınız.

**51) Siz daha çox inanırsınız:**

a) öz təcrübənizə;

b) öz hisslərinizə.

**52) Siz özünüzü:**

a) yaradıcıdan çox praktiki insan;

b) praktikidən çox yaradıcı insan kimi hiss edirsiniz.

**53) Kim daha yaxşıdır:**

a) ağıllı, sağlam düşünən insan;

b) çox həssas insan.

**54) Siz meyllisiniz:**

a) qərəzsizliyə;

b) insanların halına yanmağa.

**55) Sizcə nə yaxşıdır:**

a) hər şeyin hazır olduğuna, qaydaya salmdığına əmin olmaq;

b) hadisələri öz axarı ilə getməyə buraxmaq.

**56) Insanlar arasında münasibətlər qurulmalıdır:**

a) əvvəlcədən razılaşma əsasında;

b) situasiyadan asılı olaraq.

**57) Telefon zəng çalanda:**

a) birinci yanaşmağa çalışırsınız;

b) başqasının yanaşmasını gözləyirsiniz.

**58) Ən çox qiymətləndirirsiniz:**

a) reallıq hissinin olmasını;

b) zəngin təxəyyülü.

**59) Daha çox əhəmiyyət verirsiniz:**

a) nə deyilibsə;

b) necə deyilibsə.

**60) Ən böyük yanlış:**

a) həddindən artıq emosionallıq, özündən çıxma;

b) obyektivlik, qərəzsizlik.

**61) Siz özünüzü:**

a) ayıq və praktik;

b) qayğıkeş hesab edirsiniz.

**62) Hansı situasiyalar Sizi daha çox cəlb edir:**

a) nizamlanmış;

b) nizamlanmamış.

**63) Siz:**
a) şıltaq yox, pedantsız;
b) pedant yox, şıltaqsız.
**64) Siz üstünlük verirsiniz:**
a) ürəyi açıq olmağa;
a) gizli, qapalı olmağa.
**65) Ədəbi əsərlərdə Siz:**
a) konkretliyi, hərfiliyi;
b) obrazlılığı qiymətləndirirsiniz.
**66) Sizin üçün daha çətindir:**
a) başqaları ilə dil tapmaq;
b) öz mənafeyi üçün başqalarından istifadə etmək.
**67) Özünüzə nə arzulardınız:**
a) düşüncə aydınlığı;
b) başqaıarının halına yanmaq bacarığı.
**68) Nə daha pisdir:**
a) heç nəyə fikir verməmək;
b) hər şeyə fikir vermək.
**69) Siz üstünlük verirsiniz:**
a) planlaşdırılmış hadisələrə;
b) planlaşdırılmamış hadisələrə.
**70) Siz hərəkət edirsiniz:**
a) impulsiv yox, düşünülmüş qaydada;
b) düşünülmüş qaydada yox, impulsiv.

Hər sual üçün iki variantda cavab nəzərdə tutulur. Bunlar **«Hə»** və ya **«Yox»** cavablarıdır. İş blank variantında yerinə yetirilməlidir və əldə olan nəticələr metodik göstərişlər əsasında təhlil edilməlidir. Nəzərə alın ki, bu 16 psixoloji portret tiplərindən hər birində insanın davranışı-

nın hazırda arzuolunan və gələcəkdə gözlənilən ətraflı təsviri vardır.

Testləri cavablandırdıqdan sonra aşağıdakı «Qeydiyyat vərəqləri»ni nəzərdən keçirin .

## Qeydiyyat vərəqi

<table>
<tr><td colspan="2">1</td><td colspan="2">2</td><td colspan="2">3</td><td colspan="2">4</td><td colspan="2">5</td><td colspan="2">6</td><td colspan="2">7</td></tr>
<tr><td colspan="2">1. ab</td><td colspan="2">2. ab</td><td colspan="2">3. ab</td><td colspan="2">4. ab</td><td colspan="2">5. ab</td><td colspan="2">6. ab</td><td colspan="2">7. ab</td></tr>
<tr><td colspan="2">8. ab</td><td colspan="2">9. ab</td><td colspan="2">10. ab</td><td colspan="2">11. ab</td><td colspan="2">12. ab</td><td colspan="2">13. ab</td><td colspan="2">14. ab</td></tr>
<tr><td colspan="2">15. ab</td><td colspan="2">16. ab</td><td colspan="2">17. ab</td><td colspan="2">18. ab</td><td colspan="2">19. ab</td><td colspan="2">20. ab</td><td colspan="2">21. ab</td></tr>
<tr><td colspan="2">22. ab</td><td colspan="2">23. ab</td><td colspan="2">24. ab</td><td colspan="2">25. ab</td><td colspan="2">26. ab</td><td colspan="2">27. ab</td><td colspan="2">28. ab</td></tr>
<tr><td colspan="2">29. ab</td><td colspan="2">30. ab</td><td colspan="2">31. ab</td><td colspan="2">32. ab</td><td colspan="2">33. ab</td><td colspan="2">34. ab</td><td colspan="2">35. ab</td></tr>
<tr><td colspan="2">36. ab</td><td colspan="2">37. ab</td><td colspan="2">38. ab</td><td colspan="2">39. ab</td><td colspan="2">40. ab</td><td colspan="2">41. ab</td><td colspan="2">42. ab</td></tr>
<tr><td colspan="2">43. ab</td><td colspan="2">44. ab</td><td colspan="2">45. ab</td><td colspan="2">46. ab</td><td colspan="2">47. ab</td><td colspan="2">48. ab</td><td colspan="2">49. ab</td></tr>
<tr><td colspan="2">50. ab</td><td colspan="2">51. ab</td><td colspan="2">52. ab</td><td colspan="2">53. ab</td><td colspan="2">54. ab</td><td colspan="2">55. ab</td><td colspan="2">56. ab</td></tr>
<tr><td colspan="2">57. ab</td><td colspan="2">58. ab</td><td colspan="2">59. ab</td><td colspan="2">60. ab</td><td colspan="2">61. ab</td><td colspan="2">62. ab</td><td colspan="2">63. ab</td></tr>
<tr><td colspan="2">64. ab</td><td colspan="2">65. ab</td><td colspan="2">66. ab</td><td colspan="2">67. ab</td><td colspan="2">68. ab</td><td colspan="2">69. ab</td><td colspan="2">70. ab</td></tr>
<tr><td colspan="2"></td><td colspan="2"></td><td colspan="2"></td><td colspan="2"></td><td colspan="2"></td><td colspan="2"></td><td colspan="2"></td></tr>
<tr><td>$\sum a_1$</td><td>$\sum b_1$</td><td>$\sum a_2$</td><td>$\sum b_2$</td><td>$\sum a_3$</td><td>$\sum b_3$</td><td>$\sum a_4$</td><td>$\sum b_4$</td><td>$\sum a_5$</td><td>$\sum b_5$</td><td>$\sum a_6$</td><td>$\sum b_6$</td><td>$\sum a_7$</td><td>$\sum b_7$</td></tr>
<tr><td rowspan="3"></td><td rowspan="3"></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td colspan="2">$\sum a_2+\sum a_3$</td><td colspan="2">$\sum b_2+\sum b_3$</td><td colspan="2">$\sum a_4+\sum a_5$</td><td colspan="2">$\sum b_4+\sum b_5$</td><td colspan="2">$\sum a_6+\sum a_7$</td><td colspan="2">$\sum b_6+\sum b_7$</td></tr>
<tr><td colspan="2"></td><td colspan="2"></td><td colspan="2"></td><td colspan="2"></td><td colspan="2"></td><td colspan="2"></td></tr>
<tr><td colspan="2"></td><td colspan="4"></td><td colspan="4"></td><td colspan="4"></td></tr>
</table>

Qeydiyyat vərəqində aşağıdakı əməliyyatların yerinə yetirilməsi lazımdır:

I sütunda «a» hərflərinin cəmini tapın. Alınmış rəqəmi «$\sum a_1$» variantı altında göstərin. Həmin sütunda «b» hərflərinin cəmini tapın və «$\sum b_1$» variantı altında yazın. Beləcə 2 – 7– yə qədər bütün sütunlarda a və b cavablarının cəmini göstərin.

2–7 sütunlarında alınmış rəqəmlərlə (cəmlərlə) aşağıdakı kimi işləməli: $\sum a_2$ və $\sum a_3$- lə, $\sum a_4$ və $\sum a_5$-lə, $\sum a_6$ -nı $\sum a_7$- lə, $\sum b_2$-ni $\sum b_3$-lə, $\sum b_4$-ü $\sum b_5$-lə, $\sum b_6$-nı $\sum b_7$ ilə toplayın və alınmış rəqəmləri bu cəmlər altında müvafiq sütuna yazın.

Sonra dörd rəqəm cütləri üzrə alınmış rəqəmləri təhlil etməli (bu cütlər cədvəlin axırıncı sətirində bölgülərlə qeyd olunub). Alınmış cəmlərin hər cütündən ən böyüyünü seçin. Cədvəlin sonuncu sətirinə seçilmiş ən böyük cəmə uyğun gələn 4 hərfi aşağıdakı işarələr üzrə yazın: [$a_1$=E; $b_1$=I]; [$a_2$+ $a_3$=S; $b_2$ + $b_3$ =N]; [$a_4$+ $a_5$=T; $b_4$ + $b_5$ =A]; [$a_6$ + $a_7$ =J; $b_6$ + $b_7$ =P].

[E – ekstravert, I – introvert], [S – sensorik, N – intuitiv], [T – rasional, F – həssas], [J – statik, P – dinamik].

Beləliklə, siz 4 şərti hərfi işarələrdən ibarət kompozisiya əldə etdiniz. Bu kompozisiya insanın şəxsi keyfiyyətlərinin xüsusiyyətlərini xəbər verir.

**Nəticələrin təhlili**

Bundan sonra aşağıdakı cədvələ baxın. Cədvəl üzrə sizdə bu şərti işarələrin 16 kompozisiyasının hansının alındığını tapın

**Şəxsiyyətin sosial tipinin tipik xassələri**

| Kompozisiya və onun adı | Şəxsi keyfiyyətlər | Peşə baxımdan mühüm keyfiyyətiər |
|---|---|---|
| **ESTJ** «Inzibati» | Borc hissi, rasionallıq, ardıcıllıq, mənsədyönlülük, praktikılik | Işin planlılığı, etibarlılıq, tabeçılik və rəhbər rollarını yerinə yetirmək bacarığı |
| **ISTJ** «Himayədar» | Qonaqpərvərlik, sakit təbiətlilik, dəqiqlik, məntiqilik, rasionallıq, inadkarlıq | Etibarlılıq, yaxşı hafizə, tələbkarlıq, öhdəliyini yerinə yetirən |
| **ESTP** «Oyunçu» | Itiağıllı və enerjili olmaq, fəallıq, nikbinlik, riskli iradə, hər şeylə maraqlanmaq | Işgüzarlıq (qarşılıqlı münasıbətlərdən faydalana bilmək bacarığı), müstəqillik |
| **JSTP** «Hər şeyin ustası» | Enerjililik, optimizm, müstəqillik, düşüncəlilik, risklilik | Müstəqil işə can atma, hər alətlə işləməyi bacaran, müxtəlifliyə meylli, karyerist olmayan |
| **ENTI** «Feldmarşal» | Məntiqilik, ardıcıllıq, enerjılik, özünə inam | Qanunauyğunluqları axtarmağa meyllilik, texnologiyaların müxtəlif modellərinin axtarılmasına meyllilik, işqabiliyyətlilik |
| **ENTP** | Təşəbbüskarlıq, | Geniş maraq dairəsi, qə- |

| | | |
|---|---|---|
| «Ixtiraçı» | intuitivlik | rarların qeyri-standartlılığı, fəaliyyətin praktiki yönəlişliyi |
| **INTS** «Alim» | Sakit təbiətlilik, özünə inam, təmkinlilik, məntiqilik, təhlil qabiliyyəti, intuitivlik, erudısiyalılıq | Yaradıcı meylli, sərbəstlik, məqsədyönlülük, prinsipiallıq |
| **INTP** «Memar» | Induktivlik, özünüdərkə meyl, təbiətin dərkinə meyl, geniş erudisiya, nisbi yekəxanalıq | Yeni ideyaların mənbəyi, əqlin sintetik tərzi |
| **ENFI** «Pedaqoq» | Yaxşı hafizə, diqqət, əhval–ruhiyyə adamı, nikbin, yaradıcı yönüm | Təşkilatçılıq qabiliyyətləri, lıderlik, məsuliyyət, uşaqları yaxşı başa düşmək |
| **JNFI** «Yazıçı» | Özünüdərkə, özünüinkişafa yönəlişlik, zəngin təxəyyül, sözə həssaslıq, məhəbbətə tələbatlı, intuitiv | Analitik ağıl |
| **ENFP** «Jurnalist»- | Entuziazm, nikbin, geniş erudisiya, həssaslıq | Yaradıcılığa meyl, baxışlarının özünəməx–susluğu |
| **JNFP** | Həyatın mənasını | Təbiətdə, insan həya– |

| | | |
|---|---|---|
| «Filosof» | axtarmağa meyllilik, mənəviyyatlılıq | tında həyatın mənasını tapmağa meyllilik |
| **ESFJ** «Kommersant» | Sağlam düşüncə, həyatı sevmək, nikbinlik | Praktiklik, hər situasiya-dan faydalanmağı bacarmaq, kommersıya qabiliyyətləri |
| **JSFP** «Rəssam» | Çılğınlıq, müstəqillik, öz zəif cəhətlərinə tabe olmaq, əhval-ruhiyyənin davamsızlılığı | Həssaslıq, şöhrətpərəst |
| **JSFI** «Konservator» | Sakittəbiətlilik, təmkinlilik, təsərrüfatçılıq, dəqiqlik, özünə inam, borc hissi | Işdə tələbkarlıq, təşki–latçılıq, planlılıq, dəqiq məqsədlərə üstünlük vermək, məsuliyyətlilik, praktiklik |
| **ESFP** «Qonaqpərvər sahib» | Nikbinlik, özünə inam, səxavətlilik, ürəyi açıqlıq, mehriban, həyati prinsiplərin dəqiqliyi | Praktikilik, insan naturasını yaxşı bilmək |

Siz buradan özünüzün şəxsi keyfiyyətlərinizin nələrdən ibarət olduğunu və peşə baxımından hansı mühüm keyfiyyətlərə malik olduğunuzu aydın görə biləcəksiniz. Bu da seçiminizin uğurlu olub – olmaması haqqında bir daha ətraflı məlumat almağınız deməkdir.

## Əlavə 2

## Test 1. Şəxsiyyətin yönümnün diaqnostikası

(Smekal – Kuçer metodıkası)[21]. Bu tədqiqatın təyini insanın: 1) şəxsi (özünə); 2) işgüzar (məsələyə) və 3) kollektivçilik (qarşılıqlı təsirlərə) yönümün müəyyən edilməsidir.

Bu metodika insanların işi və ya iştirakı ilə bağlı ehtimal edilən situasiyalarda sınaqdan keçirilənin sözlü reaksiyalarına əsaslanır. Sınaqdan keçırılənin cavabları onun hansı rəğbətləndirmə növlərinə üstünlük verməsindən asılıdır. Sınaq əslində sınaqdan keçirilənin əsas həyat mövqeyini öyrənməyə imkan verir. Bunun üçün aşağıdakı sualları cavablandırmaq zəruridir:

**1. Həyatda Sizi ən çox razı salan:**

A. İşimə verilən qiymət.

B. İşi yaxşı yerinə yetirdiyimi dərk etmək.

C. Dostlar arasında olduğumu dərk etmək.

**2. Mən futbol oynasaydım, olmaq istərdim:**

A. Məşqçi.

B. Tanınmış oyunçu.

C. Komandanın kapitanı.

**3. Ən yaxşı müəllimlər:**

A. Fərdi yanaşmaya malik olanlardır.

B. Öz fənnini sevən və ona maraq oyadanlardır.

---

[21] Реан А.А., Бордовская Н.В., Разум С.И. Психология и педагогика. СПб.: Питер, 2005, s. 409 - 414.

C. Kollektivdə heç kimin qorxmadığı atmosferi yaradanlardır.

**4. Şagirdlərin gözündə ən pis müəllimlər:**

A. Bəzi insanlardan xoşlarının gəlmədiyini gizlətməyənlərdir.

B. Hamıya yarış ruhunu formalaşdıralanlardır.

C. «Tədris etdikləri fənn onları sanki maraqlandırmır» təəssüratını yaradanlardır.

**5. Mən şadam:**

A. Dostlarım başqalarına kömək etdikdə.

B. Dostlarım həmişə sədaqətli və etibarlı olduqda.

C. Dostlarım geniş maraq dairəsinə malik olduqda.

**6. Ən yaxşı dostlar:**

A. Qarşılıqlı münasibətlərimizin yarandığı insanlardır.

B. Məndən çox bacaranlardır.

C. Etibar etdiyimiz insanlardır.

**7. Mən məşhur olmaq istərdim:**

A. Həyatda uğur əldə etmiş insan kimi.

B. Güclü məhəbbətlə sevən insan kimi.

C. Mehribanlığı ilə fərqlənən insan kimi.

**8. Seçmək iqtidarında olsaydım, olmaq istərdim:**

A. Elmi işçi.

B. Şöbə müdiri.

C. Təcrübəli təyyarəçi.

**9. Uşaqlıqda mənim xoşum gəlirdi:**

A. Dostlarımla oynamaqdan.

B. İşimdə uğur qazanmaqdan.

C. Məni tərifləməkdən.

**10. Mənim ən xoşlamadığım:**

A. Üzərimə qoyulan məsələnin həlli yolunda maneə ilə rastlaşmağım.

B. Kollektivdə yoldaşlıq münasibətinin pozulması.

C. Rəhbərin məni tənqid etməsi.

**11. Məktəbin əsas rolu:**

A. Şagirdləri ixtisas üzrə işləməyə hazırlamaqdır.

B. Fərdin qabiliyyət və müstəqilliyini inkişaf etdirməkdir.

C. Şagirdlərdə birgəyaşayış üçün lazımi olan keyfiyyətləri tərbiyə etməkdir.

**12. Mənim xoşuma gəlməyən kollektivlər:**

A. Qeyri – demokratik sistemi olan.

B. Ümumi kütlədə insanın öz fərdiliyinin itirdiyi.

C. Öz təşəbbüsünü göstərmək imkanını verməyən.

**13. Mənim vaxtım çox olsaydı, onu həsr edərdim:**

A. Dostlarımla ünsiyyətə.

B. Sevdiyim işə və özünütəhsilə.

C. Qayğısız istirahətə.

**14. Mənə elə gəlir ki, mən maksimum nailiyyətlərə qadir oluram:**

A. Səmimi insanlarla işlədikdə.

B. Işdən razı qaldıqda.

C. Səylərim kifayət qədər mükafatlandırıldıqda.

**15. Mənə xoşdur:**

A. Dostlarımla vaxt keçirməyim.

B. Ətraflakıların məni yüksək qiymətləndirməsi.

C. Yerinə yetirdiyim işdən razı qalmağım.

**16. Mənim haqqımda qəzetlərdə yazsaydılar, istərdim ki:**

A. Mənim yerinə yetirdiyim işi qeyd etsinlər.

B. Yerinə yetirdiyim işə görə məni tərifləsinlər.

C. Mənim şuraya və ya komitəyə seçilməyim haqqında məlumat versinlər.

**17. Mən daha yaxşı oxuyardım, əgər müəllim:**

A. Mənə fərdi yanaşma tətbiq etsəydi.

B. Daha maraqlı işə məni təhrik etsəydi.

C. Araşdırılan məsələlər üzrə diskussiya yaratsaydı.

**18. Ən pis şey:**

A. Şəxsi ləyaqətin alçaldılmasıdır.

B. Mühüm məsələnin həllində uğursuzluqdur.

C. Dostları itirməkdir.

**19. Mənim ən yüksək qiymətləndirdiyim:**

A. Şəxsi uğur.

B. Ümumi iş.

C. Praktiki nəticələrdir.

**20. Çox az sayda insanlar:**

A. Yerinə yetirdiyi işə həqiqətən sevinir.

B. Kollektivdə məmnuniyyətlə çalışır.

C. Işi sözün əsl mənasında yaxşı yerinə yetirirlər.

**21. Mənim xoşuma gəlmir:**

A. Mübahisələr.

B. Yeni olan hər bir şeydən imtina etmə.

C. Özlərini digərlərindən yüksəkdə qoyan insanlar.

**22. Mən istərdim:**

A. Ətrafdakılar məni özünə dost hesab etsinlər.

B. Ümumi işdə başqalarına kömək etmək.

C. Başqalarında fərəh hissi doğurmaq.

**23. Rəhbərliyi mən sevirəm:**

A. Tələbkar olduqda.

B. Nüfuzu olduqda.

C. Ona çıxış asan olduqda.

**24. İşdə mən istərdim ki:**

A. Qərarlar kollektiv şəkildə qəbul olunsun.

B. Problemin üzərində müstəqil çalışmaq mümkün olsun.

C. Müdir mənim üstünlüklərimi təsdiq etsin.

**25.Mən oxumaq istərdim:**

A. İnsanlarla birgəyaşayış incəsənəti haqqında kitab.

B. Tanınmış insanın həyatı haqqında kitab.

C. «Özün et» tipli kitab.

**26. Məndə musiqi qabiliyyətləri olsaydı:**

A. Dirijor olmaq istərdim.

B. Solist olmaq istərdim.

C. Bəstəkar olmaq istərdim.

**27. Boş vaxtımda məmnuniyyətlə:**

A. Detektivə baxardım.

B. Dostlarımla ünsiyyət saxlayardım.

C. Maraq göstərdiyim şeylərlə məşğul olardım.

**28. Maliyyə uğuru bərabər olmaq şərtilə mən:**

A. Maraqlı müsabiqə fikirləşərdim.

B. Müsabiqədə qalib gələrdim.

C. Müsabiqəni təşkil edib ona rəhbərlik edərdim.

**29. Mənim üçün çox vacibdir:**

A. Nə etmək istədiyimi bilmək.

B. Məqsədə necə çatmalı olduğunu bilmək.

C. Başqalarını öz məqsədinə nail olmağa cəlb etmək.

**30. İnsan özünü elə aparmalıdır ki:**

A. Başqaları ondan razı qalsınlar.

B. İlk növbədə öz vəzifəsini yerinə yetirsin.

C. Onu işinə görə tənqid etmək lazım gəlməsin.

Aşağıdakı göstərişlərə əməl edilməlidir:

Anketin "hə" bəndinə Siz A, B, C ilə işarələnən 3 cavab verə bilərsiniz. Hər bənddə verilən cavablardan Sizin fikrinizi daha yaxşı ifadə edən və ya həqiqətə daha yaxın (uyğun) olan cavabı seçin. Cavabınızın hərfini sizə aşağıda təqdim edilən «Cavablar vərəqəsi»ndə «Daha çox» sətrində sualın nömrəsi ilə üzbəüz yerdə yazın. Sonra elə həmin suala verilən cavablardan ən əlverişsiz variantı seçin. «Müvafiq hərfi sualın qarşısında, lakin «Daha az» sütununda yazın. Hər bir sual üçün yalnız iki hərfdən istifadə edin, qalan cavabı isə heç yerdə yazmayın. Suallar ətrafında çox fikirləşməyin. Adətən birinci seçim ən dəqiq seçim olur. Vaxtaşırı cavabları düzgün, lazımi sətirlərə yazıb-yazmadığınızı, hərfləri yerində qoyub-qoymadığınızı yoxlayın. Əgər səhv aşkar etmişsinizsə, onda onu düzəldin, lakin onu elə edin ki, o aydın görünsün.

## Cavablar vərəqi (Forma 1 )

| №№ | Daha çox | Daha az | №№ | Daha çox | Daha az | №№ | Daha çox | Daha az | №№ | Daha çox | Daha az |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | | | 9 | | | 16 | | | 24 | | |
| 2 | | | 10 | | | 17 | | | 25 | | |
| 3 | | | 11 | | | 18 | | | 26 | | |
| 4 | | | 12 | | | 19 | | | 27 | | |
| 5 | | | 13 | | | 20 | | | 28 | | |
| 6 | | | 14 | | | 21 | | | 29 | | |
| 7 | | | 15 | | | 22 | | | 30 | | |
| 8 | | | | | | 23 | | | | | |

«Cavablar vərəqi» ilə tanışlıqdan sonra öz fikirlərinizi sərbəst ifadə edin və verilən tapşırıqlar üzərində işləyin.

Sorğu vərəqələrindəki tapşırıqları yerinə yetirdikdən sonra aşağıdakı açar üzrə nəticələri təhlil edin.

Sorğu anketi açarı

| Yönümlülük | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| ÖY (özünə yönümlük) | | | QT (qarşılıqlı təsirlərə) | | | MY(məsələyə yönqmlük) | | |
| 1 | | | 2 | | | 3 | | |
| 1A | 11B | 21 C | 1 C | 11 C | 21 A | 1 B | 11 A | 21 B |
| 2B | 12B | 22 C | 2 C | 12 A | 22 A | 2 A | 12 C | 22 B |
| 3A | 13C | 23 B | 3 C | 13 A | 23 C | 3 B | 13 B | 23 A |
| 4A | 14C | 24 C | 4 B | 14 A | 24 A | 4 C | 14 B | 24 B |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 5B | 15A | 25 B | 5 A | 15 C | 25 A | 5 C | 15 B | 25 C |
| 6C | 16B | 26 B | 6 A | 16 C | 26 A | 6 B | 16 A | 26 C |
| 7A | 17A | 27 A | 7 C | 17 C | 27 B | 7 B | 17 B | 27 C |
| 8C | 18A | 28 B | 8 B | 18 C | 28 C | 8 A | 18 B | 28 A |
| 9C | 19A | 29 A | 9 A | 19 B | 29 C | 9 B | 19 C | 29 B |
| 10C | 20C | 30 C | 10 B | 20 B | 30 A | 10 A | 20 A | 30 B |

Açarda göstərilən hərf «Daha çox» rubrikasına daxil edilərsə, onda sınaqdan keçirilən yönəlişliyin bu növü üzrə «+» (müsbət) işarə qoyulur. Əgər o «Daha az» indeksi altında yerləşirsə, onda ona «–» (mənfi) işarəsi qoyulur. Sonra «+» və «–»-lərin miqdarı hesablanır və hansı açarın istifadə olunmasından asılı olaraq aşağıdakı cədvəlin müvafiq ÖY, QT və MY sütunlarında yazılır.

Yekun cədvəli

| | ÖY | QT | MY |
|---|---|---|---|
| Müsbətlərin sayı «+» | | | |
| Mənfilərin sayı «–» | | | |
| Cəmi | | | |
| + 30 | | | |

«–» - lərin də sayı belə hesabanır. Müsbətlərin sayı ilə mənfilərin sayı cəmlənir (işarələri nəzərə alaraq). Alınmış nəticəni yekun cədvəlində «Cəm» sətrinə yazırlar. Nəhayət, alınmış rəqəmə 30 əlavə edilir (Yenə də işarələr nəzərə alınmaqla).

Nümunəyə diqqət yetirək. Əgər müsbətlərin sayı «özünəyönəlişlik»də 8, «qarşılıqlı təsir»də 10, «məsələyə

yönümdə»də 12, mənfılərin sayı «özünəyönüm»də 11, «qarşılıqlı təsir»də 11, «məsələyə yönümdə»də 8 – dirsə, onda yekun cədvəlini aşağıdakı kimi hesablamaq lazım gəlir (Cədvəl 3.2.3). Bu göstərici yönümün ifadəlik səviyyəsini səciyyələndirir. Yönəlişliyin bu üç növü üzrə bütün bunların ümumi cəmi 90-na bərabər olmalıdır.

Yekun cədvəli (Nümunə)

| | ÖY | QT | MY |
|---|---|---|---|
| Müsbətlərin sayı «+» | + 8 | + 10 | + 12 |
| Mənfilərin sayı «–» | – 11 | –11 | – 8 |
| Cəmi | –3 | – 1 | + 4 |
| + 30 | + 27 | + 29 | + 34 |

Bəs bu sütunlar nəyi bildirir?

**Birinci sütun** şəxsi (özünə) yönəlişlik **(ÖY)** adlanır. Şəxsi (özünə) yönəlişlik (ÖY) öz rifah motivlərinin, şəxsi birinciliyə can atmağın üstünlük təşkil etməsi ilə bağlıdır. Belə şəxs daha çox öz hissləri ilə maraqlanır və ətrafdakı insanların tələbatlarına reaksiya vermir. Işi o, ilk növbədə öz iddialarını təmin etmək imkanı kimi qiymətləndirir.

**İkinci sütun** kollektiv yönəlişlik və ya qarşılıqlı təsirlər **(QT)** adlanır. Kollektiv yönəlişlik və ya qarşılıqlı təsirlər (QT) yönəlişində insanın hərəkətləri ünsiyyətdə olan tələbatı şərtləndirir. Belə insan birgə fəaliyyətə çox böyük maraq göstərir.

**Üçüncü sütun** İşgüzar yönəlişlik (məsələyə yönəlişlik – **MY**) adlanır. İşgüzar yönəlişlik (məsələyə yönəlişlik –

MY) fəaliyyətin özünün doğurduğu motivlərin üstünlük təşkil etməsini əks etdirir. Adətən belə insan kollektivlə əməkdaşlıq etməyə can atır və qrupun məhsuldarlığının artmasına nail olur. Odur ki, o, qoyulmuş məsələnin həlli üçün faydalı hesab etdiyi nöqteyi – nəzəri sübut etməyə çalışır.

Yuxarıdakı nümunədən görünür ki, respondentin ən çox topladığı bal (34) «Məsələyə yönəlişlik» motivlərinin üstünlük təşkil etdiyi qrupa müvafiqdir. Bu da onu deməyə əsas verir ki, bu şəxs kollektiv işə daha çox üstünlük verir və qarşıya qoyulan problemin həlli üçün özünün baxışlarını üstün tutur. Bu isə həmin şagirdin peşə təmayülü haqqında məlumatlar əldə etməyə geniş imkan verir.

Qeyd etmək lazımdır ki, sadalanan yönümlülüyin hər üç növü sərbəst şəkildə deyil, bir – biri ilə uzlaşaraq mövcud olur. Odur ki, diaqnostika nəticəsində şəxsiyyətin yeganə deyil, üstünlük təşkil edən yönümündən danışmaq daha düzgün hesab edilməlidir.

**Test 2. "Maraqlar xəritəsi"**[22]. Bu test tapşırığı sizin başlıca, aparıcı marağınızı müəyyənləşdirməyə imkan verəcəkdir. Sizə bir xeyli suallar təqdim olunur. Sualların hamısını cavablandırmağa çalışın.

Əgər soruşulan məsələ ayrı ayrılıqda sizin lap çox xoşunuza gəlirsə onda cavablar vərəqində həmin sualın nömrəsi qarşısında iki müsbət (++), sizə əgər elə–belə xoş gəlirsə bir müsbət (+), əgər bilmirsinizsə və ya tərəddüd

[22] Селевко Г.К. Найди свой путь. М.: 2008, s. 64 -72.

edirsinizsə – sıfır (0), xoş gəlmirsə bir mənfi (–), heç xoş gəlmirsə – iki mənfi (– –) işarəsi qoyursunuz.

1. Bitki və heyvanların həyatı ilə tanışlıq.
2. Coğrafiya dərsi, coğrafiya dərsliyini oxumaq.
3. Geoloji ekspedisiyalara aid elmi – kütləvi və bədii ədəbiyyatlar oxumaq.
4. İnsan anatomiyası və fiziologiyası dərsləri və dərsliyi.
5. Evdarlıq dərsləri və ya evdarlıq üzrə ev tapşırıqları.
6. Görkəmli fiziklərin həyat və fəaliyyəti, fiziki kəşflər haqqında elmi – kütləvi kitablar oxumaq.
7. Görkəmli kimyaçıların həyat və fəaliyyəti və kimya sahəsində kəşflər haqqında elmi – kütləvi kitablar oxumaq.
8. Texniki jurnallar oxumaq.
9. Elektronika və radiotexnika sahəsində elmi–kütləvi məqalələr oxumaq.
10. Müxtəlif metallarla və onların xassələri ilə tanışlıq.
11. Müxtəlif ağac növləri və onlardan praktik istifadə ilə tanışlıq.
12. İnşaat sahəsində müvəffəqiyyətlərlə tanışlıq.
13. Müxtəlif növ avtomomil sürücüləri haqqında kitablar oxumaq və filmlərə baxmaq.
14. Kosmonavtlar və pilotlar haqqında kitablar oxumaq, filmlərə baxmaq.
15. Hərbi texnika ilə tanışlıq.
16. Tarixi şəxsiyyətlər və tarixi hadisələr haqqında kitablar oxumaq.
17. Azərbaycan və xarici ölkə klassiklərinin əsərlərini oxumaq.

18. Qəzet və jurnal məqalələrini, oçerkləri oxumaq və müzakirə etmək.

19. Məktəbdə və sinifdə cərəyan edən gündəlik iş və hadisələri müzakirə etmək.

20. Məktəb həyatı (müəllimlər, sinif rəhbərləri və s.) haqqında olan kitabları oxumaq.

21. İctimai asayişi qoruyanlar haqqında kitablar oxumaq, filmlərə və televiziya verilişlərinə baxmaq.

22. Yaşadığınız və oxuduğunuz yerdə otağın və əşyaların qaydada olmasına xidmət etmək.

23. "Əyləncəli riyaziyyat" tipində olan əsərlər oxumaq.

24. İqtisadi coğrafiya öyrənmək.

25. Xarici dil öyrənmək.

26. Görkəmli rəssamların həyatı və təsviri incəsənətin inkişaf tarixi ilə tanışlıq.

27. Görkəmli ekran və kino ustalarının həyatı ilə tanışlıq və aktyorlarla görüşmək, onların fotoşəkillərinin kolleksiyasını toplamaq.

28. Görkəmli musiqi xadimlərinin həyatı ilə və musiqi incəsənətinin nəzəri məsələləri ilə tanışlıq.

29. Görkəmli idmançılar haqqında, idman jurnallarını, qəzetlərini oxumaq.

30. Biologiyanı, botanika və zoologiyanı oxumaq.

31.Müxtəlif ölkələrin coğrafi kəşfləri.

32. Görkəmli geoloqların həyatı və fəaliyyəti haqqında oxumaq.

33. Tibb sahəsində həkimlər və insanların xəstəliklərlə necə mübarizə aparmaları haqqında oxumaq.

34. Yüngül sənaye müəssisələrinin işi ilə maraqlanmaq.

35. . "Əyləncəli fizika" tipində olan əsərlər oxumaq.

36. Təbiətdə kimyəvi hadisələri müşahidə etmək, kimyəvi reaksiyaların aparılmasını müşahidə etmək və kimya üzrə təcrübə toplamaq.

37. Müasir yeni texniki naliyyətlərlə tanış olmaq (televiziyaya baxmaq, qəzet və jurnallar oxumaq).

38. Radiotexniki dərnəkdə iştirak etmək və elektrikin işini müşahidə etmək.

39. Metal emalı üçün olan müxtəlif ölçü alətləri ilə tanışlıq və onlarla işləmək.

40. Ağacdan hazırlanmış məhsulları müşahidə etmək və yeni növ mebellərə baxmaq.

41. İnşaatçılarla görüşmək, onların işini müşahidə etmək.

42. Nəqliyyat daşınmaları və avtoservis haqqında kütləvi kitablar oxumaq.

43. Dənizçilər haqqında kitablar oxumaq, filmlərə baxmaq.

44. Hərbi mövzuda kitablar oxumaq, filmlərə baxmaq, müharibələr tarixilə  və böyük vuruşlarla tanış olmaq.

45. Ölkəmizdə və xaricdə baş verən siyasi hadisələri müzakirə etmək.

46. Ədəbi–tənqidi məqalələr oxumaq.

47. Radioya qulaq asmaq, televiziya verilişlərinə və tele yeniliklərə baxmaq.

48. Şəhərdə, respublikada və xaricdə baş verən hadisələri öyrənmək.

49. Tədris tapşırıqlarını yerinə yetirməkdə yoldaşlarına kömək etmək.

50. Yoldaşlarının və tanışlarının və ya ədəbi qəhrəmanların hərəkətlərini vicdanla, düzgün mühakimə etmək.

51. Gəzinti zamanı hamının ərzaqla, su ilə təmin edilməsində iştirak etmək.

52. Riyazi kəşflər və görkəmli riyaziyyatçıların həyat və fəaliyyəti haqqında elmi–kütləvi ədəbiyyatlar oxumaq.

53. Yaşadığınız regionun, şəhərin və ya kəndin iqtisadiyyatı və təsərrüfatı ilə maraqlanmaq.

54. Xarici dildə bədii ədəbiyyat oxumaq.

55. Qəzetinin redaksiya heyətinin üzvü olmaq və qəzetin bədii tərtibatında iştirak etmək.

56. Dram teatra, gənc tamaşaçılar teatrına, kukla teatrına getmək.

57. Xalq musiqisi, opera və ya simfonik musiqiyə qulaq asmaq.

58. İdman yarışlarına getmək, idman televiziya verilişlərinə baxmaq.

59. Biologiya dərnəyində iştirak etmək.

60. Coğrafiya dərnəyində məşğul olmaq.

61. Geoloji minereallar toplamaq, torpağın geoloji obyektlərinin təsvirinini tərtib etmək.

62. İnsan orqanizminin funksiyalarını, baş verə biləcək xəstəliklərin səbəblərini və onların müalicə yollarını öyrənmək.

63. Evdə yemək hazırlamaq və kulinariya dərnəyinə getmək.

64. Fizika üzrə təcrübə aparmaq.

65. Reaktivlərdən istifadə etmək, qarışıqlar hazırlamaq.

66. Müxtəlif mexanizmlərdən (məsələn, ütü, saat və s.) baş çıxarmaq və onları təmir etmək.

67. Dəqiq ölçü cihazlarından istifadə edə bilmək; müxtəlif hesabatlar hazırlamaq.

68. Metaldan müxtəlif əşyalar və detallar hazırlamaq.

69. Ağacdan müxtəlif əşyalar və detallar hazırlamaq və ya ağacdan incəsənət əsərləri yaratmaq.

70. İnşaat eskizləri cızmaq və ya müxtəlif tikinti çertyojları yaratmaq.

71. Gənc avtomobilçilər dərnəyinə getmək.

72. Avioklubda, aviasiya dərnəyində və ya paraşütçülər bölməsində iştirak etmək.

73. Güllə atıcılığı bölməsində və ya dərnəyində məşğul olmaq.

74. Müxtəlif xalqların və dövlətlərin təşəkkül və inkişaf tarixini öyrənmək.

75. Ədəbiyyat üzrə sinif və məktəb tapşırıqları yazmaq.

76. Başqa adamların həyatını, davranışını və hərəkətlərini müşahidə etmək.

77. İctimai işləri yerinə yetirmək, onları təşkil etmək, hər hansı bir işdə yoldaşları birləşdirmək.

78. Kiçik uşaqlarla vaxt keçirmək, onlara kitab oxumaq, nə isə danışmaq, bu və ya digər işlərdə onlara kömək etmək.

79. Uşaqlar və həmyaşıdlar arasında intizam yaratmaq.

80. Satıcıların, ofisantların və aşbazların işini müşahidə etmək.

81. Riyaziyyat dərnəyində məşğul olmaq.

82. Sənaye müəssisələrində planlaşdırma və hesabat lar üzrə yenilikləri öyrənmək, istehsalatın inkişafı məsələlərini öyrənmək.

83. Xarici dil lüğətləri ilə işləmək, az bildiyi danışıq dillərini tanıya bilmək.

84. Muzeylərə və incəsənət sərgilərinə getmək.

85. Tamaşaçılar qarşısında səhnədə çıxış etmək.

86. Musiqi alətlərində çalmaq.

87. İdman oyunları oynamaq.

88. Bitkilərin və heyvanların inkişafını müşahidə etmək, müşahidə nəticələrini qeyd etmək.

89. Müstəqil surətdə coğrafi xəritə, plan çəkmək, müxtəlif coğrafi materiallar toplamaq.

90. Geoloji muzey üçün eksponatlar, mineralların kolleksiyasını toplamaq.

91. Həkimin, tibb bacısının və əczaçının işi ilə tanış olmaq.

92. Tikişçilik dərnəyinə getmək, özü və ailə üzvlərü üçün nə isə tikmək.

93. Fizika dərnəyində və ya fizika üzrə fakültativ məşğələlərdə iştirak etmək.

94. Kimya dərnəyində və ya kimya üzrə fakültativ məşğələlərdə iştirak etmək.

95. Hər hansı bir texniki dərnəkdə məşğul olmaq.

96. Elektrik cihazlarının quruluçu ilə tanışlıq, onları yığmaq və işlərinə nəzarət etmək.

97. Məktəb emalatxanasında əmək təlimi dərsləri

98. "Bacarıqlı əllər" dərnəyində iştirak etmək.

99. İnşaat meydançalarında olmaq, inşaat işlərini müşahidə etmək.

100. Nəqliyyat vasitələrinin və piyadaların yol hərəkəti qaydalarına necə riayət etdiklərini müşahidə etmək.

101.Yaxtaçıların, axvalanqistlərin və xilasedicilərin bölmələrində iştirak etmək.

102. Hərbi oyunlarda iştirak etmək.

103. Şəhərin abidələri ilə tanış olmaq, tarixi muzeylərə getmək.

104. Ədəbiyyat dərnəyində məşğul olmaq, ədəbiyyat və ya xarici dil üzrə fakültativ məşğələdə iştirak etmək.

105. Şəxsi gündəlik yazmaq.

106. Sinifdə beynəlxalq vəziyyətə dair məlumatla çıxış etmək.

107. Kiçik uşaqlara himayəlik etmək, uşaq evlərinə getmək.

108. İnsanların gizlətmək istədikləri hərəkət və davranışlarının səbəblərini aydınlaşdırmaq.

109. Maqazində alıcılara onlara lazım olan şeyləri almaqda kömək etmək.

110. Riyaziyyat üzrə çətin tapşırıqları həll etmək.

111. Özünün pul gəlir və çıxarının dəqiq hesabatını aparmaq.

112. Xarici dil dərnəyində məşğul olmaq və ya bu sahədə fakültativ məşğələlərə getmək.

113. İncəsənət dərnəyində məşğul olmaq.

114. Bədii özfəaliyyət baxışlarında iştirak etmək.

115. Xorda və ya musiqi dərnəyində iştirak etmək.

116. Hər hansı bir idman bölməsində iştirak etmək.

117. Biologiya olimpiadalarında iştirak etmək və ya bitki və canlıların sərgisini təşkil etmək.

118. Coğrafi ekspedisiyalarda iştirak etmək.

119. Geoloji ekspedisiyalarda iştirak etmək.

120. Xəstələri müşahidə və onlara qulluq etmək, onlara kö-mək göstərmək, vəziyyətlərini yüngülləşdirmək.

121. Kulinariya və konditer işlərinin sərgisində iştirak etmək və belə sərgilərə getmək.

122. Fizika olimpiadalarında iştirak etmək.

123. Kimya üzrə çətin tapşırıqları həll etmək, kimya olimpiadalarında iştirak etmək.

124. Texniki çertyojları başa düşmək və çertyojlar tərtib etmək.

125. Mürəkkəb radiosxemlərdən baş çıxarmaq.

126. Sənaye müəssisələrinə ekskursiyalara getmək, dəzgahların növləri ilə tanış olmaq, onların işini və təmirini müşahidə etmək.

127. Ağacdan öz əllərimlə nə isə düzəltmək.

128. İnşaat işlərində güccatan işləri qəbul etmək.

129. Avtomobillərin və digər nəqliyyat vasitələrinin təmirində və onlara xidmətdə güc çatan işləri qəbul etmək.

130. Təyyarədə uçmaq, itisürətli təyyarələri idarə etmək.

131. Müəyyən olunmuş ciddi rejimdə yaşamaq, gündəlik məsələləri ciddi yerinə yetirmək.

132. Tarix dərnəyində iştirak etmək, tarixi mövzularda materiallar toplamaq, çıxışlar etmək.

133. Ədəbi mənbələr üzərində işləmək, oxunmuş materiallar üzrə gündəlik yazmaq.

134. Disputlarda və oxucu konfranslarında iştirak etmək.

135. Sinif iclası və məktəb yığıncağı hazırlamaq və keçirmək.

136. Çətin tərbiyə olunanlar üzərində hamilik etmək, uşaq və gənclərin tərbiyəsinin bu və ya digər məsələsini onlarla müzakirə etmək.

137. Polislərin işlərində onlara kömək etmək, polisin gənc dostları dərnəyinə üzv olmaq.

138. Müxtəlif insanlarla müntəzəm ünsiyyət saxlamaq.

139. Riyaziyyat olimpiadalarında iştirak etmək.

140. Malların qiyməti ilə maraqlanmaq, qiymətləndirmə, əməkhaqqı və əməyin təşkili məsələlərini dərk etməyə çalışmaq.

141. Dostlarla xarici dildə danışmaq.

142. Təsviri incəsənətlə məşğul olmaq.

143. Teatr dərnəyinə getmək.

144. Teatr baxış müsabiqələrində iştirak etmək.

145. İdman yarışlarında iştirak etmək.

146. Bağda və ya bostanda bitkilər yetişdirmək, heyvanlara təlim öyrətmək, onlara qulluq etmək.

147. Yeri topoqrafik şəklini çəkmək.

148. Uzunmüddətli çətin yürüşlərdə iştirak etmək, bu müddətdə verilmiş proqram üzrə çətin tapşırıqları yerinə yetirmək.

149. Aptekdə, polikilinikada və ya xəstəxanada işləmək.

150. Yeyinti və ya yüngül sənaye müəssisələrində işləmək.

151. Fizika üzrə çətin tapşırıqları yerinə yetirmək.

152. Kimya istehsalatında işləmək.

153. Texniki yaradıcılıq sərgilərində iştirak etmək.

154. Elektroenergetika və ya radioelektronika sahəsində işləmək.

155. Dəzgahlarda işləmək, müxtəlif detallar və məhsullar hazırlamaq.

156. Çertyojlar üzrə model işlər və ya kəsmə dəzgahlarında işləri yerinə yetirmək.

157. İnşaat briqadasında işləmək.

158. Sərnişinləri və ya yükləri daşımaq, küçə hərəkəti qaydalarına nəzarət etmək.

159. Tufanlı havada açıq dənizdə və ya böyük çayda işləmək.

160. Komandir və ya hərbi mühəndis olmaq.

161. Doğma vətənin tarixi yerləri üzrə yürüşlərdə olmaq.

162. Hekayələr yazmaq, şerlər və nəğmələr qoşmaq.

163. Dövrü mətbuatda və ya divar qəzetlərində məqalələr və oçerklər yazmaq.

164. Əmək desantı zamanı briqadaya rəhbərlik etmək.

165. Uşaqlarla oyunlar və bayramlar təşkil etmək.

166. Hüquq müəssisələrində (prokurorluqda, məhkəmədə, hüquq məsləhətxanalarında, notariusda, vəkil və s.) işləmək

167. İnsanlara müxtəlif böyük və kiçik xidmətlər göstərmək.

168. Müntəzəm riyazi biliklər tələb edən işləri yerinə yetirmək.

169. İqtisadiyyatda planlaşdırma, maliyyələşdirmə və s. sahələrdə işləmək.

170. Xarici dil üzrə müsabiqələrdə və olimpiadalarda iştirak etmək.

171. Tətbiqi incəsənət sərgilərində iştirak etmək.

172. Səhnədə oynamaq və ya kinoya çəkilmək.

173. Musiqiçi, musiqi rejissoru və ya musiqi müəllimi olmaq.

174. İdman müəllimi və ya məşqiçi işləmək.

# Fərdi cavablar vərəqi

| № | Fəaliyyət sahəsinə maraqlar | Sualların № – si | | | | | | Sayı | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | – |
| 1 | Biologiya, kənd təsərrüfatı | | | | | | | | |
| 2 | Coğrafiya | | | | | | | | |
| 3 | Geologiya, faydalı qazıntıların çıxarılması | | | | | | | | |
| 4 | Səhiyyə, tibb | | | | | | | | |
| 5 | Yüngül və yeyinti sənayesi | | | | | | | | |
| 6 | Fizika | | | | | | | | |
| 7 | Kimya | | | | | | | | |
| 8 | Texnika | | | | | | | | |
| 9 | Rabitə, elektro – radio texnika | | | | | | | | |
| 10 | Metal emalı | | | | | | | | |
| 11 | Ağac emalı | | | | | | | | |
| 12 | İnşaat | | | | | | | | |
| 13 | Nəqliyyat | | | | | | | | |
| 14 | Aviasiya və dəniz işi | | | | | | | | |
| 15 | Hərbi ixtisaslar | | | | | | | | |
| 16 | Tarix, cəmiyyət | | | | | | | | |
| 17 | Ədəbiyyat, filologiya | | | | | | | | |
| 18 | Jurnalistika | | | | | | | | |
| 19 | İctimai fəaliyyət, ə-etmə, sosial xidmət | | | | | | | | |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 20 | Pedaqogika, təhsil | | | | | | | | |
| 21 | Hüquq, hüquqşünaslıq | | | | | | | | |
| 22 | Xidmət dairəsi, təchizat, iaşə | | | | | | | | |
| 23 | Riyaziyyat, informatika | | | | | | | | |
| 24 | İqtisadiyyat, menecment | | | | | | | | |
| 25 | Xarici dil | | | | | | | | |
| 26 | Təsviri incəsənət | | | | | | | | |
| 27 | Ekran incəsənəti | | | | | | | | |
| 28 | Musiqi | | | | | | | | |
| 29 | Bədən tərbiyəsi, idman | | | | | | | | |

Cavablar vərəqində hər bir sətir bu və ya digər fəaliyyət sahəsinə uyğun gəlir. Aşağıdakı cədvəldə maraqların ifadə dərəcələri öz əksini tapır.

**Maraqların ifadə dərəcələri qiyməti**

| Toplanan müsbət və mənfilərin sayı | Maraqların ifadə olunma dərəcələri |
|---|---|
| + 8 – dən +12 – yədək | həmin sahəyə aydın ifadə olunan maraq |
| + 5 – dən + 7 – yədək | ifadə edilmiş maraq |
| +1 – dən + 4 – ədək | zəif ifadə olunan maraq |
| – 5 – dən – 1 – ədək | marağın inkar edilməsi |
| – 12– dən – 6 – yadək | inkarın yüksək səviyyəsi |

Cədvəldən göründüyü kimi, iki müsbətin sayı 8 və daha çox olduğu halda marağın aydın ifadə olunması özünü göstərir. Məsələn, iki müsbətlə işarə etdiyiniz cavablarınız 4, 33, 62, 91, 120 və 149 rəqəmlərini ifadə edirsə, deməli sizin marağınız səhiyyə, tibb sahəsinədir. Lakin, ola bilər ki, 6 deyil, daha çox sualı iki müsbətlə işarə edəsiniz. Bu cavablarınız əvvəlkilərlə müəyyən qədər uyğun gəlirsə onda sadəcə olaraq seçimi dəqiqləşdirmək lazım gələcəkdir. Məsələn, həm də 1, 30, 59, 88, 117 və 146 rəqəmlərini işarə etmisinizsə tərəddüd etmədən bunların birini seçmək olar. Yox, əgər iki müsbətlə işarələnmiş cavablar bir və ya iki şaquli sütunda verilən suallarla üst-üstə düşmürsə, yəni ayrı-ayrı sütundakı rəqəmləri ifadə edirsə, deməli peşə marağınız hələ dəqiq deyildir. Seçim etmək üçün özünüzün biliyinizi, bacarığınızı, qabiliyyətinizi bir daha götür-qoy etməli, marağınızı dəqiqləşdirməyə və dərinləşdirməyə çalışmalısınız. Belə də ola bilər ki, siz iki müsbətlə iki müxtəlif sütunlarda verilən sualları cavablandırasınız. Bu onu göstərir ki, sizdə daha bir peşə, ixtisas sahəsinə güclü maraq vardır. Həmin sahə ilə də maraqlanmaq faydalı olar.

# MÜNDƏRİCAT

Gənclərin həyat hazırlığına layiqli töhfə
(*professor İramin İsayev*)............................................................3
Oxuculara............................................................................11
Yolun düzgün seçilməsi onu getmək qədər
məsuliyyətlidir.......................................................................16
Peşə özünütəyini.....................................................................20
Özünü dərk et .........................................................................23
Özünü sına.............................................................................41
Peşələr aləmi..........................................................................48
Peşə və ixtisas tələbləri ...........................................................62
Əmək bazarının tələbi..............................................................89
Peşə seçiminin modeli.............................................................94
Çalış səhv etmə .....................................................................100
Peşə özünütəhsili...................................................................114
Peşə özünütərbiyəsi...............................................................120
Valideyn məsləhəti.................................................................127
Müəllimlərlə məsləhətləşin....................................................133
Həkim və məktəb psixoloqunun da məsləhətindən
faydalanın ............................................................................140
Bacarıqların qiymətləndirilməsi.............................................142
Valideynlər üçün məsləhətlər.................................................146
Müəllimlər üçün məsləhətlər..................................................151
Söz ardı.................................................................................158
Məsləhət görülən ədəbiyyat...................................................160
Əlavələr.................................................................................162

"Elm və təhsil" nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

**Dizayner:** Zahid Məmmədov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 09.11.2023
Şərti çap vərəqi 12,5. Sifariş № 268
Kağız formatı 60x84 1/16. Tiraj 500

**Kitab "Elm və təhsil"** nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4